Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 03 (6145) 23 yanvar 2026-cı il | Qiyməti 40 qəpik

# İlham Əliyev Trampla görüşdü



Bax:səh-2

## Türkiyə səfiri: "Azərbaycanın yanındayıq..."



**2020-ci il Qarabağ müharibəsindən sonra Azərbaycan öz suverenliyini bütün ölkə ərazisində tam bərpa edib və bununla da şəhidlərin arzusu gerçəkləşib.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Şəhidlər Xiyabanını ziyarət edərkən bildirib.

Səfir qeyd edib ki, bu gün Azərbaycan xalqının azadlıq və müstəqillik yolunda göstərdiyi milli iradənin təzahürünün 36-cı ili tamam olur: "Azərbaycan xalqı bütün çətinliklərə baxmayaraq, o ağır şəraitdə öz müstəqillik və suverenlik iradəsini ortaya qoyub. Azad və müstəqil Azərbaycan naminə, Türkiyə-Azərbaycan qardaşlığı adına biz hər zaman Azərbaycanın yanında olmuşuq. Bu gün də yanındayıq, sabah da birlikdə olacağıq".

Birol Akgün Azərbaycan-Türkiyə qardaşlığının daim olmasını arzuladığını bildirib və şəhidlərə Allahdan rəhmət diləyib.

## Fransa Azərbaycanı alqışladı

**Fransa Azərbaycan hakimiyyəti tərəfindən dörd erməniəsilli şəxsin Ermənistana təhvil verilməsini alqışlayır.**

Adalet.az xəbər verir ki, bu barədə Fransa Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, 2026-cı il yanvarın 14-də baş tutan bu təhviltəslim 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş sammitdə Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində formalaşan dinamikanın konkret nəticəsidir.

Qeyd edilib ki, Sülh Müqaviləsinin imzalanması və ratifikasiyası bu prosesi tamamlamağa imkan verəcək.

## "QARABAĞ" AYĞIRLARININ KİŞNƏLTİSİ "AYNTRAXT"I SİLKƏLƏDİ



**"Qarabağ"ın rəqibi on iki nəfərlə oynadı. Hakim də onlar tərəfdən oynayırdı, amma Allaha şükürlər olsun ki, biz də on iki nəfərlə oynadıq. Azarkeşlərimiz də sona qədər bizimlə idi. Və Qalib gəldik, yolumuz play-off-a açıldı. Baxmışam cədvələ, növbəti mərhələ bizimdi, Allahın izni ilə. Onu da qeyd edim ki, hakimin xətaları ilə bağlı möhtərəm Prezident UEFA-ya müraciət elədi. Bizə qarşı hər zaman belə düşmənçilik ediblər. Ermənidilər elə bil hakimlər hamısı...**

Qurban Qurbanovu təbrik edirəm! Bütün komandanı təbrik edirəm! Bütün futbol azarkeşlərini təbrik edirəm!

Biz qalib ölkənin qalib də komandasıyıq. Və hər şey yaxşı olacaq!

Təkcə onu bilirəm ki, "Qarabağ" ayğırları hələ çox komandaları tapdalayacaq. Çox ölkələrin şəhərlərini kişnəltiləri ilə silkələyəcək.

**Allah qoysa, darıxmayın, "Liverpul"u da silkələyəcəyik!**

*Əbülfət MƏDƏTOĞLU*

## Ustadım Şahmar Əkbərzadə ilə ruh söhbəti

Bax:səh-8

## Zelenski: Rusiyaya qarşı xüsusi əməliyyat hazırlanır!



**Ukrayna lideri Vladimir Zelenski Ukrayna Təhlükəsizlik Xidmətinin (UTX) keçmiş və hazırkı rəhbərləri - Vasil Malyuk və Yevgeni Xmara ilə görüşüb.**

Adalet.az xəbər verir ki, o, bu barədə Teleqram kanalında yazıb.Zelenski xüsusi xidmət orqanları ilə yeni döyüş əməliyyatları barədə razılığa gəldiyini bildirib. Ukrayna lideri həmçinin Ukrayna Təhlükəsizlik Xidmətinin (UTX) rəhbərinin birinci müavini Aleksandr Pokladla da görüşüb. "Vasil Malyukun hesabatı. Biz Rusiyaya qarşı asimmetrik əməliyyatlarımızı hazırlamağa davam edirik. Ukrayna Təhlükəsizlik Xidməti və digər dövlət qurumları bütün lazımi resurslarla tam təmin edilib", - deyə Zelenski qeyd edib.

## İranı hədələyib, Qəzza ilə bağlı xəbərdarlıq etdi

**İsrailin Baş naziri Benyamin Netanyahu İranı təhdid edib.**

Adalet.az xəbər verir ki, Netanyahu İrana xəbərdarlıq edərək deyib: "Əgər İran səhv edib bizə hücum edərsə, biz İrana əvvəllər heç vaxt rast gəlmədiyi bir güclə zərbə endirəcəyik".

Baş nazir Qəzza ilə də bağlı açıqlama verib. O bildirib ki, Qəzzada nə türk, nə də qətərli əsgərlər olacaq.

"Qəzzada prosesə nəzarət edəcək məsləhət şurası ilə bağlı amerikalılarla fikir ayrılıqlarımız var", - deyə Netanyahu qeyd edib.

## Azad edilən ərazilərdə neçə sakin məskunlaşıb?



**Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, 01.01.2026-cı il tarixədək işğaldan azad edilmiş ərazilərə 26 014 nəfər keçmiş məcburi köçkün geri qayıdıb.**

Adalet.az xəbər verir ki, bu, Dövlət Statistika Komitəsinin açıqladığı 2025-ci ilin yanvar-dekabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərində öz əksini tapıb. Bildirilib ki, bununla da işğaldan azad edilmiş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 73 514 nəfər təşkil edib.

## GÜNÜN LƏTİFƏSİ

Deyir bostanı belləyirdim. Birdən gördüm ki, yerdə 50 qəpiklik metal pul var. Götürüb cibimə qoydum. Təzədən belləməyə davam edirəm. Görürəm yenə 50 qəpiklik pul. Beləcə düz on dəfə ard-arda.

**- Bəlkə xəzinədir?**

**- Ə, yox ee, sən demə, şalvarımın cibi deşik imiş.**

# İlham Əliyev Trampla görüşdü



**Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp ilə görüşü olub.**

Adalet.az xəbər verir ki, görüşdə Donald Trampın yenidən hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı razılaşmaların əldə edilməsində Prezident Donald Trampın tarixi rolu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara toxundu. Artıq regionda sülhün mövcud olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bunun iki ölkə arasında ticarət münasibətlərinin yaranmasında da özünü göstərdiyini bildirdi. Bu xüsusda Azərbaycandan Ermənistana neft məhsullarının ixracını, həmçinin idxal edilən taxılın ölkəmiz vasitəsilə Ermənistana çatdırıldığını vurğuladı.

Dövlətimizin başçısı Zəngəzur dəhlizinin, o cümlədən TRIPP layihəsinin regional bağlantılar baxımından mühüm rol oynadığını qeyd etdi.

Söhbət zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılan Sülh Şurasının əhəmiyyətinə toxunuldu, bu qurumun Yaxın Şərqdə sülhü möhkəmləndirmək, eyni zamanda, qlobal münaqişələrin həllinə töhfə vermək baxımından önəmi qeyd edildi. Sülh Şurasına təsisçi üzv dövlət qismində Azərbaycanın dəvət olunması Azərbaycan-ABŞ strateji tərəfdaşlığının və ölkəmizin dünyada sülhün təşviqində oynadığı rolun təcəssümü kimi qiymətləndirildi.

Söhbət əsnasında dövlət başçıları ikitərəfli əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərimizin dərinləşdirilməsində rolunu qeyd etdilər.

# İlham Əliyev: Bakı və Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub

**Bakı və Azərbaycan əcnəbilər üçün çox cəlbedici olub. Çünki bu gün sərmayədarlar özlərini rahat və təhlükəsiz hiss edəcək yerlərin axtarışındadırlar.**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə müxtəlif ölkələri təmsil edən biznes nümayəndələrinin suallarının cavabında deyib.

"Bu nöqteyi-nəzərdən multikulturalizm, mədəni və etnik müxtəliflik, qarşılıqlı fəaliyyətin və birgəyaşayışın çox müsbət ruhu, bütün etnik mənsubiyyəti olan insanlar və bütün ənənəvi dinlərin nümayəndələri arasındakı qarşılıqlı hörmət həqiqətən də bu ruhu yaradır ki, insanlar Bakıda ev, mənzil almaq, yay fəslini, tətilini gəlib burada - dəniz sahilində keçirmək, həmçinin investisiya yatırmaq istəyirlər. Çünki siz tikinti mərhələsində investisiya yatırdıqda artıq layihə başa çatdıqdan sonra onu ikiqat qiymətə sata bilərsiniz", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# "Sülh üçün öhdəlik götürülərsə, qısa zaman kəsiyində iki ölkə sülhə nail ola bilir"

**Sülh üçün öhdəlik götürülərsə, qısa zaman kəsiyində iki ölkə sülhə nail ola bilir.**

Bu sözləri Prezident İlham Əliyev Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında çıxışı zamanı deyib.

Dövlətimizin başçısı qeyd edib: "İmzalanan (Vaşinqtonda sülh sazişi ilə bağlı - red.) isə günümüzdə praktiki nəticələrə çevrilir. Bu, gələcəkdə 5-6 aylıq sülh deyil və təbii, danmırıq ki, müstəqil ölkə olaraq bu vəziyyətdən zövq alırıq".

# Vilayət Eyvazov Daxili Qoşunların fəaliyyətinə dair müşavirə keçirdi

**Yanvarın 19-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların 2025-ci ildə xidməti fəaliyyətinin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.**

Adalet.az xəbər verir ki, müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, şəxsi heyətin sosial və maddi-texniki təminatının, xidmət şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərdiyini vurğulayıb. Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti fəaliyyətin yekunları barədə məruzə ilə çıxış edib.



Bildirilib ki, hesabat ilində Daxili Qoşunlar qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə icra edib.

İşğaldan azad edilmiş ərazilərdə mühafizə tədbirləri, minalanmış sahələrə keçmələrin qarşısının alınması istiqamətində görülən işlər xüsusi əhəmiyyət daşıyıb. Məruzələrdə şəxsi heyətin döyüş, fiziki və ixtisas hazırlığının, idarəetmə və qarşılıqlı fəaliyyət bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən xüsusi-taktiki təlimlərin həm Daxili Qoşun hissələrinin, həm də polis orqanlarının birgə fəaliyyətinin səmərəliliyini daha da artırdığı diqqətə çatdırılıb.

Müşavirədə beynəlxalq əhəmiyyətli idman yarışları və kütləvi tədbirlər zamanı polis və Daxili Qoşunların şəxsi heyətinin peşəkar fəaliyyəti xüsusi qeyd olunub. Vurğulanıb ki, ölkəmizdə keçirilən mötəbər idman turnirləri, beynəlxalq forumlar və digər irimiqyaslı tədbirlər dövründə ictimai asayiş və təhlükəsizlik yüksək səviyyədə təmin edilib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində DİN-in Daxili Qoşunlarının fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışaraq konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda əmin olduğunu bildirib ki, şəxsi heyət qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

# "Azərbaycanın bu platformada təmsil olunması ölkənin strateji maraqları baxımından..."

**"Nəhayət, Donald Trampın yaratdığı Sülh Şurasının nizamnaməsini ingilis dilli mənbələrdən tapa bildim. Maraqlıdır ki, Şuranın nizamnaməsi beynəlxalq təşkilat sənədlərindən daha çox şəxsi şirkətin nizamnaməsinə bənzəyir. Sənəd bütün əsas səlahiyyətlər onu təsis edən şəxsin əlində cəmlənir. Üzvlərin dəvəti və çıxarılması, qərarların təsdiqi və ya veto edilməsi, icra qurumlarının formalaşdırılması, maliyyə axınlarına nəzarət, hətta varisin müəyyənləşdirilməsi belə birbaşa təsisçinin iradəsinə bağlıdır".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.



O, bildirib ki, bu baxımdan, Şura kollektiv beynəlxalq idarəetmə mexanizmindən çox, mərkəzləşdirilmiş və şəxsyönümlü idarəetmə modelinə əsaslanır:

"Nizamnamədə ən çox müzakirə yaradan məqam üzvlüklə bağlı "1 milyard dollar" müddəasıdır. nizamnaməsinin II fəsli, 2.2-ci maddəsinin (c) bəndində belə yazılıb: "Hər bir üzv dövlət bu nizamnamənin qüvvəyə mindiyi tarixdən etibarən üç ildən artıq olmayan müddətə üzvlük statusuna malik olur və bu müddət yalnız sədr tərəfindən uzadıla bilər. Bu üçillik üzvlük müddəti, Nizamnamənin qüvvəyə mindiyi ilk il ərzində Sülh Şurasına nağd şəkildə 1 milyard ABŞ dollarından artıq vəsait köçürən Üzv Dövlətlərə şamil edilmir". Bu müddəanın mənası odur ki, üzvlük adi qaydada üç il üçün nəzərdə tutulur və bu müddətin uzadılması tam şəkildə Sədrin qərarından asılıdır. Lakin ilk il ərzində 1 milyard ABŞ dollarından artıq vəsait ödəyən dövlətlər üçün bu vaxt məhdudiyyəti tətbiq edilmir və qayda dəyişir".

İqtisadçı bildirib ki, məhz bu yanaşma nizamnaməni klassik beynəlxalq təşkilat modelindən çox, şirkət idarəçiliyi modelinə yaxınlaşdırır: "Çünki burada, maliyyə qoyuluşu status üstünlüyü yaradır, qaydalar bütün üzvlər üçün eyni tətbiq olunmur, "daha çox töhfə - daha çox hüquq" prinsipi formalaşır. Bu isə Sülh Şurasının idarəetmə fəlsəfəsinin kollektiv beynəlxalq mexanizmdən çox, təsisçiyə və maliyyə gücünə əsaslanan mərkəzləşdirilmiş struktur olduğunu göstərir. Lakin onsuzda beynəlxalq hüququn işləmədiyi mövcud qlobal geosiyasi şərait, Şuranın təşəbbüsçüsünün siyasi çəkisi, eləcə də ABŞ-Azərbaycan münasibətlərinin hazırkı dinamikası onu deməyə əsas verir ki, Azərbaycanın bu platformada təmsil olunması ölkənin strateji maraqları baxımından əhəmiyyətli və məqsədəuyğundur".

**Vasif ƏLİHÜSEYN**

# «Bu Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinə dəstək verən İran rejiminə...»

**"İranın İrəvandakı səfiri Xalil Şirqolaminin mətbuat konfransında söylədikləri İran-Ermənistan münasibətlərində dönüş nöqtəsi sayıla bilər. Ermənistan müstəqillik qazandıqdan bu yana İranla sıx münasibətləri olub və bu iki dövlətin bir-birlərinə iradları olmayıb. Ancaq Ermənistan baş naziri Nikol Paşinyanın İran rejiminin düşməni ABŞ ilə müxtəlif sahələrdə tərəfdaşlığını genişləndirməsi, üstəgəl ərazisində "Tramp yolu"nun inşasına imza atması Tehranı hərəkətə keçməyə sövq edib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.



"İran səfirinin "Ermənistan getdikcə İrana qarşı düşmən mövqedə olan qüvvələrin fəaliyyət mərkəzinə çevrilir" açıqlaması ikili münasibətlərdə mövcud vəziyyətdən xəbər verir. Aydındır ki, səfir İran Xarici İşlər Nazirliyinin təlimatı əsasında Ermənistan hökumətinin siyasətini sərt tənqid edib. İran səfirliyi qarşısında İrəvanda yaşayan iranlıların ölkələrindəki etiraza dəstək verməsi səfirin narazılığına səbəb olub. Səfiri narazı salan həm də Ermənistan polisinin səfirlik qarşısında etiraza şərait yaratması olub. İranlı diplomat "ən çətin məqamlarda məhz Tehran həmişə İrəvana yardım əlini uzadıb" cümləsiylə İrəvanın Tehrana arxa çevirdiyini demək istəyib. Səfirin son cümləsini belə də oxumaq olar: "Azərbaycan torpaqlarının işğalında Sizə vediyimiz dəstəyi unutduz".

Nikol Paşinyan İranda gec və ya tez rejimin dəyişəcəyinin fərqindədir. Ona görə o qəddar rejimlə tərəfdaş olmaqdansa, dünyanın super dövləti ABŞ ilə sıx tərəfdaşlığa üstünlük verib. Bu, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinə dəstək verən İran rejiminə də yaxşı dərsdir", - deyə o, bildirib.

**Sübhan**

## *Xamenei: "Xalqın dolanışığı çətindir"*

**İranın ali dini lideri Ayətullah Əli Xamenei ölkədə davam edən iqtisadi böhran və kütləvi etirazlar fonunda xalqın yaşayış şəraitinin ağır olduğunu ilk dəfə etiraf edib.**

Adalet.az xəbər verir ki, ali lider bu barədə "X" hesabında etdiyi paylaşımda bildirib. Xamenei dövlət rəsmilərinə müraciət edərək, vəziyyətin düzəldilməsi üçün ciddi tapşırıqlar verib:

"İranda iqtisadi vəziyyət yaxşı deyil, xalqın dolanışığı çətindir. Dövlət məmurları və vəzifəli şəxslər səyləri iki dəfə artırmalı və işə daha ciddi yanaşmalıdırlar. Xüsusilə əsas məhsulların, heyvandarlıq üçün yem və digər zəruri ərzaq mallarının ölkəyə fasiləsiz çatdırılması üçün daha çox işləmək lazımdır".

# "Davos forumu dərinləşən beynəlxalq böhran fonunda keçirilir"

**"Davos iqtisadi-siyasi forumunun dünya siyasi nizamında yaranmış dərin böhran fonunda keçirilməsi qloballaşmanın hələ də aktual olduğunu göstərir. Lakin bu qloballaşma əvvəlki liberal məzmununu itirərək daha çox güc balansı və rəqabət üzərində formalaşır. Forum ABŞ və Avropa İttifaqı arasında yaranmış siyasi böhranın davam etdiyi, ənənəvi müttəfiqlərin artıq bir-birini rəqib kimi qəbul etdiyi bir mərhələdə baş tutur".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, ABŞ prezidenti Donald Tramp Davosda iştirakı ilə beynəlxalq müstəvidə ölkəsinin şəriksiz lider olduğunu və hər bir dövlətin ABŞ ilə hesablaşmalı olduğu mesajını verir:




"Bu kontekstdə Davos artıq klassik siyasi-iqtisadi əməkdaşlıq platformasından çıxaraq ABŞ-Avropa rəqabəti fonunda güc nümayişi meydanına çevrilir. Dünyanın siyasi nizamı dəyişir. Donald Trampın Davosda iştirakı təsadüfi deyil. O, ABŞ-nin beynəlxalq hüquqa deyil, yalnız ikitərəfli tərəfdaşlıqlara əsaslanan yeni xarici siyasət xəttini açıq şəkildə elan etməyə hazırlaşır. Bu yanaşma çoxtərəfli institutların zəifləməsi və yeni alternativ platformaların meydana çıxması ilə müşayiət olunur. Artıq Qəzza Sülh Forumunun beynəlxalq gündəmə gətirilməsi Davosa alternativ yeni bir qlobal platformanın formalaşdırılması cəhdidir. Bu, beynəlxalq münasibətlər sistemində yeni mərkəzlərin yarandığını göstərir. Azərbaycan Prezidenti də Davos forumunda iştirak edir". M.Əsədullazadə bildirib ki, Cənubi Qafqazda yeni siyasi-iqtisadi nizamı formalaşdıran Azərbaycan artıq Asiya ilə Avropanı birləşdirən əsas geostrateji aktora çevrilib:

"Yeni dünya siyasi nizamı şəraitində həm Avropa, həm də ABŞ Azərbaycana ciddi siyasi və strateji dəstək verməkdə maraqlıdır. Prezidentin Davosdakı çıxışı Azərbaycanın yeni strateji baxışını ortaya qoydu. Bu strategiya təhlükəsizlik, enerji, nəqliyyat və sülh komponentlərini özündə birləşdirir. Azərbaycan məhz bu müstəvidə açıq, praqmatik və balanslı tərəfdaşlığa hazır olduğunu beynəlxalq ictimaiyyətə bəyan etdi".

**Eldar**

# Natiq Məmmədli: Azərbaycanda dezinformasiya ilə mübarizə üçün siyasi sistem mövcuddur



**"Azərbaycanda dezinformasiya ilə mübarizə aparmaq üçün güclü siyasi sistem mövcuddur".**

Adalet.az xəbər verir ki, bu fikirləri Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli "Dezinformasiya: qlobal miqyasda və Azərbaycan reallığında ən ciddi təhlükə kimi" mövzusunda keçirilən ictimai müzakirədə deyib.

O qeyd edib ki, dezinformasiya insanların məlumatı düzgün anlamaqda çətinlik çəkməsinə səbəb olur və bu da getdikcə daha ciddi problemlərin yaranmasına gətirib çıxarır: "Hazırda bir çox ölkələrdə informasiya mühitini çirkləndirən dezinformasiya halları artmaqdadır. Xüsusilə, süni intellekt əsaslı kontent dezinformasiyanın yayılmasında ciddi təhdid kimi qiymətləndirilir".

Natiq Məmmədli qeyd edib ki, dezinformasiyanın sürətlə yaranmasının əsas səbəblərindən biri dünya üzrə mediaya olan ictimai etimadın azalmasıdır: "Media həqiqətə xidmət etməlidir, lakin təəssüf ki, bunu beynəlxalq mediada hər zaman görmək mümkün olmur. Nəticədə mediaya olan inam azalır və bu etimadın bərpa edilməsi son dərəcə vacib məsələ kimi ön plana çıxır".

# «Avropadan Azərbaycana investisiya marağı gözlənilən səviyyədə deyil»

**"Euronews"un təşkil etdiyi "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" tədbirində Prezident İlham Əliyev investorların suallarını özünə məxsus peşəkarlıqla cavablandırdı.Prezident ölkənin əsas iqtisadi prioritetlərini, enerji sektoru, ixrac potensialını, süni intellektlə bağlı hədəfləri, mədən sənayesini, Azərbaycanın təhlükəsiz tranzit və bağlantıda rolunu, "Tramp marşrutu"nu, eləcə də Ermənistanla yolların açılması məsələsini strateji rakurslardan təqdim etdi".**




Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O, deyib ki, lakin bu görüşdə geniş ictimaiyyət üçün xüsusi əhəmiyyət daşıyan bir anons və bir kəskin vurğu daha çox diqqətimi cəlb etdi:

"Anons ABŞ ilə yeni mərhələ mesajı idi. Prezident İlham Əliyev bildirdi ki, Prezident Tramp ilə imzalanmış strateji tərəfdaşlıq sənədi əsasında hazırlanan xartiya demək olar ki, yekunlaşır və ümid edirəm ki, bu proses növbəti ay baş tutacaq. Bu sənəddən sonra ABŞ ilə siyasi, iqtisadi və enerji sahələrində əməkdaşlığın daha da intensivləşəcəyi anons edildi. İkincisi isə kəskin vurğu idi. Prezident açıq şəkildə qeyd etdi ki, Avropadan Azərbaycana investisiya marağı gözlənilən səviyyədə deyil. Əsas tərəfdaşlar hazırda daha çox Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Çin, Böyük Britaniya və ABŞ şirkətləridir. Əslində son mesaj Avropa investorları üçün gecikmədən qərar vermək çağırışı idi. Yəni, baxın, məsləhət sizindir, onsuz da Azərbaycan artıq alternativ tərəfdaşlarla irəliləyir".

**Sübhan**

# "Bakı regional rasionalizmin ana qaydalarını tapa bildi"



**"Hazırda dünyada gedən müharibələrin əksəriyyəti bizim coğrafiyaya yaxındır. Daxili münaqişələri də nəzərə alsaq, hazırladığımız xəritədə harda yaşadığımızı daha dəqiq görə bilərik. 2 min km radiusda 5-6 dənə müharibə ocağı mövcuddur. Maraqlıdır, beynəlxalq münasibətlər üzrə nəzəriyyələrin bu vəziyyətə dair izahı nədir?".**

Adalet.az xəbər verir ki, bunu beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli deyib.

"Realizmə görə dünyada həmişə mövcud olan anarxik beynəlxalq sistemin mahiyyəti elə budur.Yəni bu xəritədə normlar yox, hərbi reallıqlar əvvəlcə gəlir.

Neorelist Kenneth Waltzın yanaşmasına görə bölgədə bu vəziyyətin səbəbi qlobal güclərini toqquşma zonasına düşməsinə görədir. ABŞ, Rusiya,Çin üçbucağında qalan orta şərq və Şərqi Avropa təzyiq zonasına düşür( biz də şərqi Avropaya aidik). Liberalistlərə görə qlobal nizamın uğursuzluq nümunəsidir. Konstruktivizmçilərə görə isə bölgədə dövlətlərin güclü millil kimlik davası gedir. Klassik Maklinder və Spaykmana görə isə Heartland və Rimland savaşı gedir. Xəritənin təhlili göstərir ki, beynəlxalq sistem post-liberal xaosa daxil olub.Müharibələr lokal deyil, bir-biri ilə əlaqəlidir.

Əsas sual:Bu qədər müharibə zonasında Bakı necə salamat qalır? Bakı təhlükəsizlik formulunu tapdı - Ermənistanı məğlub edərək, geosiyasətdə ciddi hərbi-siyasi müttəfiqlik münasibətləri qurdu. Bakı balans diplomatiyasının ən nadir nümunələrdən biridir. Bakı regional rasionalizmin ana qaydalarını tapa bildi", - deyə o, bildirib.

# "ABŞ yaxın vaxtda İranı mütləq vuracaq"

**"Münəccimlik eləmirəm, mənə elə gəlir ki, ABŞ yaxın vaxtda İranı mütləq vuracaq. Hələlik yolda olan güc gəmilərinin gəlib çatmasını gözləməklə və ərazidə həssaslıq təşkil edən nöqtələrin bir daha dəqiqləşdirilməsilə məşğuldur. ABŞ-nin guya İran rəhbərliyi ilə islahatlara razılaşdığı, guya İranın edamları dayandırdığına inanması, guya Şahın oğlu variantından vaz keçməsi inandırıcı görünmür. İran televiziya kanallarının peyk yayımını ələ keçirən ABŞ kəşfiyyatı heç kimin yox, məhz şahın oğlunun bəyanatını yaymaqda davam edir".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib.

Onun sözlərinə görə, ABŞ-nin belə mühüm geopolitik məsələdə yüz ölçülüb bir biçilmiş strateji planı dəyişməsi və ya təkbaşına dəyişə bilməsi ağlabatan görünmür:

"Çünki o, təkcə ABŞ-nin planı deyil. Daha kimlərin planıdır, onu hamı bilir. İran sallaqxana qapısına bağlanmış qurbanlıq kimi hələ də ümid edir, özünü inandırmağa çalışır ki, bəlkə daşı ətəklərindən töküb kəsmədilər. Ancaq düşmən qəvi, tale zəbundur. ABŞ və İsrailin, eləcə də ingilisin Yaxın Şərq doktrinası hamıya bəllidir. Bu aydın planın qarşısında İranın bu dəfə raketə raketlə cavab verməyi, zənnimcə, çətin olacaq. Olsa belə, bu taktika ona fayda gətirməyəcək. Onlar çox güman ki, bunu nəzərə alıblar.



Sual oluna bilər: bəs İran indiyədək nə etməli idi və indi nə edə bilər ki, ölkəsi hər cəhətdən viran olub, külli halda plan sahiblərinin müstəmləkəsinə çevrilməsin?".

S.Alışarlının fikrincə, plan sahibləri İranı parçalamaq və oradan yeni bir türk, kürd, ərəb dövləti çıxarmaq fikrində deyillər:

"Bu sahədə onların yetərli təcrübəsi var. Bu, son an - İranı bütöv götürməyin mümkün olmayacağı - variantda ortaya çıxa bilər. Onlar İran kimi təbii resurslarla zəngin bir dövləti bütöv, bir əyalətini, bir kəndini belə itirmədən, 90 milyonluq əhalisi ilə müasir müstəmləkəyə çevirməyi düşünürlər. Şahın oğlunu da buna görə irəli itələyiblər. Yüz il əvvəl eyni planla Türkiyənin üstünə gəlmişdilər, qəhrəman türk xalqı Allahın köməyilə onlara layiq olduqları cavabı verdi. İndi məsələ o zamankından xeyli qəlizdir: avanqarda ABŞ-ni basıblar, silahlar dəhşətli dərəcədə dağıdıcıdır, insanlar yüz il əvvəlkinə oxşamır, İran da Türkiyə deyil".

Yazıçının sözlərinə görə, İranın qonşuları, xüsusən türklərlə ənənəvi düşmənçiliyi onun sonunu gətirmiş əsas amildir:

"İran bu fars düşmənçiliyini 1925-ci ildən bugünkü Zəngəzur dəhlizinə qədər bütün dünyanın gözü qarşısında açıq-aşkar körükləyə-körükləyə gətirib. İran hakim rejimi türk dünyasının ən həssas yeri olan Azərbaycana 35 illik dövlət müstəqilliyi dönəmində əlindən gələn bütün zərbələri vurub. İndi Azərbaycan İranın müdafiəsinə qalxarmı? Qalxmaz. Əgər qalxsaydı, İran bugünkü dəhşətli duruma birmənalı şəkildə düşməzdi. Bu düşmənçiliyə rəğmən, Azərbaycan, xüsusilə Türkiyə İrana xarici müdaxiləni qəti şəkildə pisləyir və müttəfiqləri hərbi variantdan çəkindirməyə çalışır. İranın süqutunu zəruri edən ikinci məsələ onun daxili dövlət quruluşunun klerikallığı, cəmiyyətin mənəvi aşınması və iqtisadiyyatın korrupsiyalaşmasıdır. İranın vəziyyəti çox ağırdır. Bu ağır vəziyyətdən İranın çıxmaq imkanı son dərəcə məhduddur".

**Vasif ƏLİHÜSEYN**

# "Dörd məhbusun Ermənistana verilməsində problem yoxdur"

**"Azərbaycanın Ermənistana dörd məhbusu təhvil verməsi ikitərəfli əlaqələrin inkişafı və sülh istiqamətində etimadın möhkəmləndirilməsidir. Həmçinin Ermənistanda seçkilər yaxınlaşır. Məhz N.Paşinyanın qalib gəlməsi "Yekun sülh" müqaviləsinin bağlanması deməkdir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, dörd məhbusun təhvil verilməsi ilə Paşinyan seçkilərdə mövqeyini gücləndirilməsi istiqamətində istifadə edəcək:

"Azərbaycan həbs etdiyi bütün ermənilər cinayətkarlardı. Onları məhz öz ərazilərimizdə həbs etmişik və cinayətləri də sübut olunub. Qeyd edim ki, Ermənistan tərəfi Zəngəzur dəhlizi ilə bağlı praktiki addımlar atdıqdan sonra, Azərbaycan dörd ermənini təhvil verdi.Qarabağda separatçı rejimə və onun qanunsuz silahlı dəstələrinə rəhbərlik etmiş şəxslərin təhvil verilməsi mümkün deyil. Ümumiyyətlə , onları Ermənistan da qəbul etmək istəmir. Onlar, Ermənistana verilərsə, potensial şəkildə N. Paşinyana qarşı müxalifətdə çıxış edəcəklər. Ermənistan da revanşizmin inkişafına səbəb olar".

**V. ƏLİHÜSEYN**



Səxavət Məmməd

## Raquf Orucovun haqqını rəsmən verməkdə ancaq və ancaq fayda var

*İnsanlar çox zaman necə öləcəyini seçə bilmir. Bəzən arzuladıqları sonu istədikləri kimi yaşamırlar. Bəziləri döyüş meydanında canını vermək istəyir, ancaq ömrünü yataqda, qocalaraq, altına gələcək bir qaba möhtac halda tamamlayır. Ancaq bəzi insanlar da var ki, bəlkə də heç istəməsələr də, seçdikləri yola uyğun, haqq etdikləri kimi ölürlər.*

*Şəhidlərlə bağlı filmlər qarşıma çıxanda baxmağa çalışıram. Lakin xüsusilə tanıdığım biri haqqında filmdə "həyat eşqi ilə dolu idi" tipli şablon cümlələr eşidən kimi ekranı söndürürəm. Bəlkə də yaxşı filmdir, amma baxa bilmirəm.*

*Minlərlə hərbçimiz var, lakin onların hamısına "döyüşçü" demək olmaz. Qərargah siçovulları ilə daim odun-alovun içində olanları necə eyni tutmaq olar? Bu, mümkün deyil. Bəziləri hərb sənətini döyüşmək üçün seçir, bəziləri isə qüsursuz xidmət edib ev almaq, yaxşı pensiya ilə gələcəyini təmin etmək üçün. İnsanların seçimlərinə hörmətlə yanaşıram. Bəzilərinin məqsədi yaxşı yaşamaq, ev-eşik, qadınlar, maşın sahibi olmaqdır. Bəziləri isə xoşbəxtliyini savaş meydanında tapır və orada da dünyasını dəyişir. İnsan ölümü üzücüdür; müharibələrdə çoxlu tanış, yoldaş və dost itirmişik. Hamısına üzülürəm, amma nə gizlədim, bəzilərinin məhz savaş meydanında şəhid olmasına hörmət edirəm. Çünki bu, onların seçimidir.*

*Bu yaxınlarda bir məclisdə döyüşçülərdən (əsl voyaka) biri məni kənara çəkdi. Qucaqlayıb ağlamağa başladı. Deyir ki, "yaşaya bilmirəm, öyrəşə bilmirəm; evdə uşaqların yanında otururam, gözlərim onlara baxır, amma beynimdə hələ də müharibənin içindəyəm". Və sonda əlavə etdi: "Qorxuram yataqda ölməkdən, mənim ölümüm formada olmalı idi".*

*Bir dəfə Xanı və Yasənlə Ağdamda postların birində idik. Yaz ayları idi, səngərin ətrafında bənövşələr açıb, hər yer yamyaşıl... Belə havada bizim insanlar nə deyər? "Tam kətə havasıdır", "samovar havasıdır" və ya "içmək havasıdır", düzdür? Yasən isə qəfil qayıtdı ki: "Xanı, nə ölməli havadır!" O adamlara üzüləndə də hörmətlə üzülün, ağlayanda da hörmətlə ağlayın!*

*Biz gözümüzü müharibəyə açmışıq. Qohum-əqrəbamızın hamısı döyüşüb. Xanını, Yasəni, Raquf Orucovu da elə uşaqlıqdan, həmin döyüşən qohumlara görə tanımışam. Onlar mənim üçün bu günün, dünənin yox, uşaqlığımın əfsanələridir. Bəziləri döyüşməyi peşə seçir, harada müharibə olsa fərqi yoxdur, gedib döyüşür. Onun üçün xoşbəxtlik savaş meydanındadır. Bəziləri isə hərb peşəsini dövlətə xidmətlə sintez edir; öz savaşını dövləti üçün aparır. Xanı da, Yasən də, Raquf da bu kateqoriyaya aiddir.*

*Əslində, bu yazı Raquf Orucov haqqındadır, amma o "qızıl üçlüyü" bir-birindən ayıra bilmərəm. Raquf Orucov 2016-cı ildə şəhid oldu, Yasən Əhmədov 2020-ci ildə. Xanı isə müharibədə şəhid ola bilməsə də, elə müharibənin fəsadlarına görə dünyasını dəyişdi. Onların başqa cür dünyadan köçəcəyini təsəvvür etmək çətindir. Xanının dəfnində Raquf Orucovun həyat yoldaşı Sevinc xanımla görüşdük. Ağlaya-ağlaya dedi: "Raquf getdi, Yasən getdi, bir Xanı qalmışdı, o da getdi. Heç kimimiz qalmadı..."*

*Hər komandir hörmətlə anılmır. Bəzi komandirlər olur ki, nəinki özünə, hətta ona görə, onun torpağından olana da hörmət edirsən. Bir dəfə şimal rayonlarımızdan birində kafedə çay içirdim. Bir nəfər yaxınlaşıb qonaq olduğumu, haralı olduğumu soruşdu. "Ağdamlıyam" deyəndə soruşdu ki, "Raquf Orucovu yəqin tanıyarsınız?". Tanıdığımı deyəndə adam mənimlə 40 ilin dostu kimi görüşdü, mənə xüsusi hörmət-izzət göstərdi. O adam, bir rayona və o torpağın insanına məhz il yarım onun komandiri olmuş Raquf Orucova görə hörmət edirdi. Dedi ki, "Raquf Orucova görə ağdamlılara ürəyimi də verərəm". Bu hörməti hər çiynində rütbə daşıyan qazana bilmir. Elə komandirim olub ki, rastlaşanda üzünə demişəm: "Sən adam deyilsən!" Amma komandirlərimdən Elşən Qapaqov mənim üçün həmişə komandir olaraq qalacaq.*

*Raquf Orucov haqqında çox yazılıb, amma fikrimcə, hələ də azdır. Bəziləri ad-san qazanır, təltif edilir, amma yenə də belə xalq sevgisi qazana bilmir. Dəfələrlə rəsmi şəxslərlə, müxtəlif sahənin adamları ilə söhbət edəndə Raquf Orucovun adını eşidən kimi deyirlər: "O, Milli Qəhrəman adını ən çox haqq edənlərdəndir". "Hələ verilməyib" deyəndə isə təəccüblənirlər. Sonra da deyirlər, camaat onun adını (qəhrəmanlığını) çoxdan verib onsuz da!*

*Raquf Orucova qədər də, ondan sonra da Ağdamdakı səngərləri qarış-qarış gəzmişəm. Aradakı fərq yerlə göy qədər idi. O, əsgərləri üçün hər şey edirdi. Peşəkar kəşfiyyatçı idi; istədiyini əldə etmədən, tutduğunu qoparmadan əl çəkməzdi. Düşmən qarşısında necə döyüşürdüsə, düşmən arxasında da elə idi. Ümumiyyətlə, kişinin düşməni olar! Raquf Orucov öz əsgərləri üçün nə qədər can yandıran idisə, düşməni üçün bir o qədər can alan idi. Onun keçidləri, gətirdiyi kəşfiyyat məlumatları, əsir götürdüyü adamlar, çəkdiyi kadrlar... saymaqla bitməz. Biz unutqanıq; bəziləri müharibəni ağır bilir, amma o səngərləri görənlər bilir ki, atəşkəs dövründə cəbhədə xidmət etmək bəzən müharibə qədər çətin idi.*

*"Murov qartalı" bir titul deyil. O, bu ləqəbi xidməti ilə qazanmışdı. Raqufdan sonra özünə bu adı dedirtmək istəyənlər oldu, amma bu, "Koroğlu" ilə "kor kişinin oğlu" müqayisəsinə bənzəyir. Raquf Orucov təkcə Aprel döyüşlərinə görə yox, məhz Murovdakı illərlə çəkdiyi zəhmətə görə Milli Qəhrəman adını haqq edir. Bəlkə kimsə deyər ki, xalqın gözündə onsuz da qəhrəmandır. Amma biz unutqan xalqıq. 5-10 il sonra xatirələr zəifləyə bilər. Bu günə qədər qazanılan hörmət, aldığı ləqəb Raqufun öz zəhmətidir, özü alıb. Ancaq bundan sonrasını dövlət verməlidir. Niyə? Çünki hərbçilərimizin bir hissəsi qisas üçün, Xocalı üçün, bir hissəsi təminat üçün bu yolu seçib(r). Amma onlarla zabit tanıyıram ki, onlar Allahverdi Bağırova, Əliyar Əliyevə, Fred Asifə görə hərbçi olublar. Tanıdığım xeyli sayda gənc zabitlərimiz var ki, Raquf Orucova görə hərb sənətini seçiblər. Xanıya görə, Pəncəliyə görə bu ölkədə sırf gizir olanlar var. Hər şeyi, ailəsini, uşaqlarını, dosatlarını qoyaq bir kənara, bu ənənəni davam etdirmək üçün Raquf Orucov və onun kimilərin haqqını rəsmən verməkdə ancaq və ancaq fayda var.*

# "Heç kəs ölkədə həmrəy olan cəmiyyəti dağılmış cəmiyyətə çevirə bilməz..."

”Zorakılığa nəzarət siyasətin mərkəzində durur və bu, bütün ölkələrdə belədir. Azərbaycanda zorakılıq yolu ilə hakimiyyəti dəyişmək çağırışları praktikada müxtəlif zamanlarda və müxtəlif siyasi şəraitlərə uyğun olaraq səsləndirilib. Ölkə daxilində yaşayan bəzi siyasətçilər bu prosesi gizli formada aparıblar, xaricdəkilərə isə təlimatları buradan veriblər: ”Çıxın küçələrə, qorxmayın, hakimiyyəti dəyişin”. Bu cür çağırışları xüsusilə ölkəmizin milli maraqları ilə bağlı ən kritik siyasi qərarların verildiyi mərhələlərdə ediblər ki, ölkədə insanları çaşdırıb və əldə olunan uğurların qarşısını alsınlar. Bəli, bu ağıldan və vicdandan məhrum olanlar zorakılıq yolu ilə prosesləri həyata keçirmək istəyiblər, lakin müdrik xalqımız heç vaxt belə vətən xainlərinə inanmayıb”.

Adalet.az xəbər verir ki, bunu ”Yeni Xətt” siyasi tədqiqatlar mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, ona görə hakimiyyət, yəni dövləti qoruyan, vicdanla dövlətə və dövlətçiliyə xidmət edən siyasi rəhbərlik və hüquq-mühafizə orqanları, bu zorakılıqların qarşısını almaq üçün tədbirlər planlarını həyata keçiriblər: ”Bəzi siyasi zorakılıqla məşğul olan ”dırnaq arası” siyasətçilərin həbs olunmasını siyasi məhbus kimi qələmə verənlər və onlara dəstək verənlər ölkə daxilindən və xaricindən fərqi yoxdur bu insanların xarakterindən istifadə edərək onları siyasi alver predmetinə çevirir və xəyanət yolu ilə siyasi və maliyyə kapitalı əldə etməyə çalışıblar. Hakimiyyət isə dövlətin verdiyi səlahiyyətlərdən istifadə edərək bu aldadılmış və aldanmış şəxslərin davranışlarını lazımı həddə qədər nizamlayıb. Bu heç də siyasi rəqiblərlə mübarizə deyil; bu, zorakılığın qarşısını almaq üçün profilaktik tədbirlər planına uyğun, demokratik prinsiplərə söykənən idarəetmə metodudur. Əgər kimsə bundan narazıdırsa, ona sual etmək lazımdır: sənin zorakılıqla, kimlərinsə tapşırıqları ilə küçəyə çıxıb qanunsuz addımlar atanla-



rın qarşısını almaq üçün qanuni tədbirlər görülür, niyə narazısan? Sizin spekulyantlıq fəlsəfəsinə tam yiyələnib, o spekulyasiya etməyiniz indiki dövrdə qətiyyən yerimir. Ona görə də özü yıxılan ağlamaz. Siz özünüz-özünüzü idarə edə bilmədiniz və bu, heç kimin günahı deyil. Dəyərli soydaşlar, siz fikir verin: hansı zamanlarda ”çıxın küçələrə, dağıdın, sökün” çağırışları gəlib və xaricdən xain kuklaların çağırışlarını buradakı zorakılıq sevdalıları necə həyata keçirib. Ustalıqla.... Amma bu, o demək deyil ki, biz sizin gizli və məkrli planlarınızdan bixəbərik qətiyyən elə deyil. Sizin siyasi ”dırnaq arası” taktikanız artıq köhnəlib”.

O, deyib ki, dövləti, dövlətimizi və vətənimizi qorumaq üçün verilən qərarlar, atılan addımlar və edilən həbslər rəqiblə mübarizə deyil, rəqabət prinsiplərini pozmaq da deyil:

”Bunlar təhlükəsizliyimizə qarşı kənar müdaxilələrin qarşısını almaq üçün atılan addımlardır. Bu məsələləri hər zaman başqa cür yozanlara imkan verilməməlidir. Nəzərdə tutduğumuz həmin təbəqə özünü çox ədəbsiz, aqressiv və ağılsız manqurt kimi aparır. Bunun kifayət qədər səbəbləri var. Ən başlıcası isə özlərini idarə olunan sinfə aid etmələridir. O idarəetmədə inkişaf yoxdur; o idarəetmə dövlətə düşmən çevrilmə məktəbidir. O məktəblərdən çıxın çünki o məktəblər sizi uçuruma aparır. Silah, fiziki təzyiq, çevriliş və iğtişaşlar siyasi təfəkkürdən uzaq olmalıdır və belə zorakı üsullara qarşı siyasət daha sərt və dəqiq olmalıdır. Hər bir problemin qanuni dialoq və institusional yolları var. Siz dialoqdan qaçırsınız, qanundan yayınır, qanunu pozub siyasi fəallıq edirsiniz. Həbs olunanda isə özünüzü siyasi məhbus sayırsınız. Halbuki siyasi məhbus fikirinə görə həbs ediləndir və bu gün hər kəs öz fikrini sərbəst və azad şəkildə bildirir. Fikir bildirməyi də bacarmırsınız ədəbsiz, tərbiyəsiz və söyüşlü üsullarla mübarizə aparırsınız. Üstəlik, qanunsuz iğtişaşlara sövq edən dairələrin tapşırıqları ilə hərəkət edirsiniz. Sizin etdikləriniz cinayət məsuliyyəti yaradır, siyasi mövqe deyil. Heç kəs ölkədə siyasi sabitliyi poza bilməz, heç kəs ölkədə həmrəy olan cəmiyyəti dağılmış cəmiyyətə çevirə bilməz. Bunların qarşısı mütləq alınacaq!”.

**Vasif**

# "Bu xain molla rejimi istənilən halda dəyişəcək..."

**”İranın ali dini lideri Ayətullah Əli Xamenei ölkədə davam edən iqtisadi böhran və kütləvi etirazlar fonunda xalqın yaşayış şəraitinin ağır olduğunu ilk dəfə etiraf edib:”İranda iqtisadi vəziyyət yaxşı deyil, xalqın dolanışığı çətindir”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

Hərbi ekspert bildirib ki, indi Xameneidən bunları soruşmaq lazımdır:



”1. Dünyanın ən zəngin təbii ehtiyatlarına malik olan ölkəsini kim dilənçiyə çevirib?

2. İranın uzun onilliklər ərzində sanksiyalar altında edilməsinə kim şərait yaradıb?

3. SEPAH tərəfindən Həmas və Hizbullah kimi bir çox terror təşkilatlarının, işğalçı ölkələrin və seperatçı rejimlərin maliyyələşdirilməsinə kim icazə verib?

4. Bütün İslam dünyası ilə İranın münasibətlərini korlayan kim olub?

5. Dəyərli və etibarlı qonşu olan Azərbaycanın sərhədlərində Ermənistana dəstək məqsədilə hərbi təlimlər keçirən kim idi?

6. İran öz vətəndaşına atəş açan antiislam ölkəsinə kim çevirdi?

Bütün bu sualların cavabı hamıya, o cümlədən Xameneiyə məlumdur. Bu xain molla rejimi istənilən halda dəyişəcək. Zaman məsələsidir. Xamenei özü getsə İran bu ağrılı prosesdən daha az itki ilə çıxacaq”.

**Ömər**

# "ABŞ Maduronun iqamətgahında bu silahlardan istifadə edib..."

**”ABŞ prezidenti Donald Tramp iki gün əvvəl bildirdi ki, Amerika kimsəyə məlum olmayan yeni silahlara malikdir. Tramp bu silahlar barədə başqa məlumat vermədi. Maduronun iqamətgahına hücum zamanı sağ qalan mühafizəçilər bildirir ki, ABŞ hərbçiləri dəhşətli baş ağrısına və burun qanamasına səbəb olan silahlardan istifadə ediblər. Bu istifadədən sonra mühafizəçilər halsız halda yerdə tərpənməz halda qalıblar”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, ABŞ daha əvvəl rast gəlmədiyimiz yeni səs silahlarından ilk dəfə döyüş əməliyyatları zamanı istifadə ediblər:

”Bu silahların mikrodalğalı səs dalğaları insan tərəfindən eşidilmir, lakin insan beyninə təsir edir, yüksək qan təzyiqi yaradır və bəzi kapilyar damarları dağıdır. Səs silahlarının artıq müddətdə tətbiqi insanı öldürə bilir.



Bu əməliyyat zamanı başqa bir maraqlı məsələ Venesuela hava hücumundan müdafiə qoşunlarının zenit-raket komplekslərinin ölkə səmasında aşağı sürətli helikopterlərə atəş açmaması ilə bağlıdır. Burada ağlımıza ilk gələn Venesuelaya aid radiolokasiya stansiyalarının müşahidə imkanlarından məhrum edilməsidir. Böyük ehtimalla ABŞ hərbi hava qüvvələri istiqamətləndirilmiş mikrodalğalardan istifadə edən daha yeni bir silah əldə ediblər.

Amma 5 il əvvəl Çin ordusu Hindistanla sərhəd münaqişəsi zamanı istiqamətlənmiş lazer silahından uğurla istifadə etmişdi. Görünür ki, ABŞ sənayesi düşmən RLS-in elektron sensorları üçün uzaq məsafədən təhlükəli istilik temperaturunu təmin edən və hava vasitələri ilə daşına biləcək optimal olcələrə malik silahlar əldə edərək onu da ilk dəfə döyüş əməliyyatları zamanı uğurla sınaqdan keçiriblər”.

**Vasif ƏLİHÜSEYN**

# "Bu forum həm dövlət başçıları, həm də biznes-texnologiya liderləri üçün..."

**"Davos iqtisadi forumunda bir araya gələn dünya liderləri 2026-cı il üçün aşağıdakı 5 suala cavab axtaracaq:**

1. Daha çox qarşıdurmaların yaşandığı bir dünyada beynəlxalq əməkdaşlıq necə təmin oluna bilər?
2. Qlobal iqtisadiyyatda yeni və dayanıqlı artım mənbələri necə formalaşdırıla bilər?
3. İnsan kapitalına investisiyalar necə daha məqsədyönlü və səmərəli qurula bilər?
4. İnnovasiyalar geniş miqyasda və məsuliyyət prinsipləri çərçivəsində necə tətbiq edilə bilər?
5. Planetar məhdudiyyətlər fonunda rifahın davamlı modeli necə qurula bilər?Forumda bu dəfə rekord sayda dövlət başçıları, biznes liderləri və beynəlxalq təşkilat nümayəndələri iştirak edir".




Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, əsas diqqət Donald Trumpda olacaq:

"O, bu dəfə Davosda ən geniş ABŞ nümayəndə heyətinə rəhbərlik edəcək. Onun iqtisadi və təhlükəsizlik siyasəti, tariflər, Avropa ilə ticarət gərginliyi, geosiyasi təzyiqlər kimi məsələləri debatların mərkəzində olacaq. Bu günlər ABŞ-nin xarici siyasətində qlobal əməkdaşlıq və beynəlxalq sistemin gələcəyi baxımından proqnozların verilməsində əhəmiyyət daşıyacaq. Avropa İttifaqının liderləri bu forumda Avropa-ABŞ və Avropa-Çin münasibətlərində yaranan yeni dinamikaları, texnologiya, enerji və müdafiə strategiyalarını müzakirə edəcəklər. Bu debatlar Avropanın geosiyasi mövqeyinin gücləndirilməsi qorunması baxımından diqqət mərkəzində olacaq. Amma bu Avropa üçün faydalı olacaqmı, yoxsa bu forum Avropanın daha da zəif tərəflərini üzə çıxaraq? Məncə, ikincinin ehtimalı daha çoxdur. Fakdır ki, ənənəvi əməkdaşlıq modelləri zəifləyir, onların yerini daha çox regional ittifaqlar və məhdud tərkibli əməkdaşlıq formatları tutur. Buna görə də Aİ texnologiya liderliyi və əmək bazarının transformasiyası Davos gündəliyinin əsas mövzularından biridir. Bu proseslər artıq təkcə iqtisadi artım kontekstindən çıxaraq təhlükəsizlik, qlobal rəqabət və siyasi təsir alətinə çevrilir. Əlqərəz, bu forum həm dövlət başçıları, həm də biznes-texnologiya liderləri üçün gələcək qlobal sistemin konturlarını müəyyənləşdirəcək debatların mərkəzi olacaq".

**Vasif ƏLİHÜSEYN**

# Erməni yazıçı Qarabağda erməni vəhşiliyindən yazdı

**Kardaş Onniq Livanda anadan olub, ABŞ-da yaşayan erməni əsilli rəssam və yazıçıdır. O, 1982-ci ildə nənəsini xilas edən türklərin şərəfinə "Kardaş" ("qardaş") adını götürüb.**

2001-ci ildə işğal olunmuş Azərbaycan ərazilərində qurulan separatçı rejimin "mədəniyyət nazirliyi"nin dəvəti ilə Şuşaya erməni diasporundan ilk rezident rəssam kimi gəlib və orada beş aydan bir qədər çox vaxt keçirib. Həmvətənlərinin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər barədə qəddar hekayələrdən o qədər şoka düşüb ki, şəhəri cangüdənin müşayiəti ilə gəzib.

Amerikaya qayıtdıqdan sonra o, Azərbaycanın mədəniyyət paytaxtında yaşadığı təcrübələri təsvir edən "Vəhşi qəşəng: Qafqazın axmaq salnaməsi" adlı kitab yazıb. Bundan sonra ailəsi də daxil olmaqla, bəzi ermənilər onu xain, digərləri isə ən dürüst erməni yazıçı adlandırıblar. (Kitabın PDF versiyası burada)

O, uzun illər Ermənistan rəhbərliyində təmsil olunan şəxslərin (Robert Köçəryan və Serj Sərkisyanın) fəaliyyətlərini və Qarabağda törədilən cinayətləri tənqid etdiyi



üçün Ermənistanda "vətən xaini" elan edilmiş və təqib olunmuşdur.

"Mən gördüklərimi yazmaya bilməzdim. Ermənilər azərbaycanlılara qarşı törətdikləri qəddarlıqları qəhrəmanlıq kimi təqdim edirdilər, bu isə dəhşətli idi", - Kardaş Onniq deyir.

Onun kitabından bir hissəni təqdim edirəm, görün bu vəhşi millət nələr edib Azərbaycan xalqına:

"Sovet dövründə, Artsax sakinlərinə silah saxlamağa icazə verilməyəndə, 25 yaşlı Rafik doqquz azərbaycanlının başını çılpaq əlləri ilə əzib, sonra cəsədləri maşını ilə sürüyüb doğma kəndinə aparıb və orada basdırıb. O, şəxsi qəbiristanlığı ilə fəxr edir. Bir gün Rafik və mən 6-16 yaşlarında 11 uşağı piknikə apardıq. Rafik uşaqlara ağzı qızıl dişləri ilə dolu bir azərbaycanlını necə tutduğu (o, həmişə çoxlu qızıl dişləri olanları axtarırdı), oğlanın əl-ayağını bağladığı, bütün dişlərini çıxartdığı, ağzından qan axarkən dərin bir çuxur qazması üçün ona kürək verdiyi barədə bir hekayə danışdı. Sonra kürəklə başını əzib çuxura basdırıb".

Onniq qeyd edir ki, ermənilər silahlıları azərbaycanlı mülki şəxsləri, o cümlədən qocaları və qadınları qətlə yetirdikdən sonra bu hərəkətləri ilə fəxr edirdilər. O, əsgərlərin öz aralarında "filan qədər türkü necə kəsdikləri" barədə söhbətlərini və bu qətlləri bir qəhrəmanlıq kimi bir-birinə danışmalarını dəhşətlə xatırlayır.

Onun şahidliyinə görə, Şuşa işğal edildikdən sonra şəhər sistemli şəkildə qarət olunub. O yazır ki, ermənilər təkcə qiymətli əşyaları deyil, evlərin qapı-pəncərələrini, dam örtüklərini belə söküb Ermənistana daşıyırdılar.

Müəllif bildirir ki, erməni komandirləri əsgərlərə azərbaycanlıları insan kimi deyil, "məhv edilməli olan obyektlər" kimi təqdim edirdilər.

O, Şuşada bir erməni əsgərin azərbaycanlı uşağın meyiti ilə necə rəftar etdiyini gördükdə mənəvi olaraq sarsıldığını və həmin an hər şeyi tərk edib getmək istədiyini bildirib.

"Mən ora bir erməni vətənpərvəri kimi getmişdim, amma ordan qatı bir antimillətçi kimi döndüm. Çünki gördüklərim insanlığa sığmırdı. Çünki qan içində boğulan körpələri və silahsız qocaların necə qətlə yetirildiyini gördükdən sonra heç bir ideologiya mənim gözümdə təmiz qala bilməzdi. Bizə uşaqlıqdan nifrət aşılanmışdı. Amma mən Qarabağda gördüm ki, bizim "qəhrəman" dediklərimiz əslində qatillərdir. Biz özümüzü qurban kimi təqdim edirik, amma mən orada gördüm ki, biz sadəcə cəlladıq", - o yazır.

Son cümləsi isə belə bitir: "Mən susa bilərdim və Amerikada rahat yaşaya bilərdim. Amma Şuşada gördüyüm o gözlər - öldürülən insanların baxışları hər gecə yuxuma girirdi. Mən bu kitabı və bu sözləri ona görə yazdım ki, erməni xalqı bilsin: bizim "qələbə" dediyimiz şeyin arxasında minlərlə günahsız insanın ahı var".

Kitabı oxumağı hər kəsə tövsiyə edirəm, elə ermənilər özləri də oxusunlar.

**Zaur Əliyev**

# 2026-cı ildə üç Avropa ölkəsi lideri istefa verəcək"?

**ABŞ silahlı qüvvələrinin quru qoşunlarının istefada olan polkovniki Loures Ulkerson YouTube kanalının efirindən bbildirib ki, guya Ukrayna münaqiçşisuni dəstəkləyən üç avropa dpvlətinin liderləri öz postlarından gedəcək.**

Polkovnikin fikirincə, Almaniya, Fransa və Böyük Britaniyada keçirilən sorğuların nəticələrinə görə, əhali Rusiya ilə müharibəni istəmirlər. Rusiya mətbuatının yaydığı bu tip məlumatların əslində mənbəyi şübhə doğurur. Fransa prezidentinin səlahiyyət müddə-



tinin başa çatmasına onsuzda az vaxt qalıb və onun ölkəsində baş verən qarşıdurmalara görə, yenidən prezident seçilmək şansı demək olar ki, yoxdur. Böyük Britaniyanın baş nazirinin və Almaniya kanslerinin isə, hazırda vəzifələrindən getmələri üçün elə bir siyasi böhran vəziyyəti yoxdur.

**Rüstəm Hacıyev**

İman ABDUYEV,
politoloq

# Davosdan mesajlar: Azərbaycanın regional və qlobal mövqeyi



**Beynəlxalq aləmdə böyük nüfuza malik olan Azərbaycan dünyada etibarlı tərəfdaş imicini qazanıb. Vətən müharibəsində qazandığı qələbədən sonra Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir. Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 20-də Davosda "Euronews" televiziyasına verdiyi müsahibə Azərbaycanın bu gün regional və qlobal miqyasda öz sözünü deyən, milli maraqlarını beynəlxalq hüquq çərçivəsində müdafiə edən güclü dövlət, etibarlı tərəfdaş olduğunu bir daha təsdiqləyir.**

**Xüsusi olaraq qeyd edək ki, Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycan dövlətinin sülhə, dialoqa və insan həmrəyliyinə verdiyi töhfənin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsidir. Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondunun 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qalibləri sırasında Prezident İlham Əliyevin yer alması Azərbaycan liderinə olan etimadın, eləcə də, dövlətimizin başçısının sülhə verdiyi töhfələrin əyani sübutudur. Bu mükafat böyük iradənin, ədalətli sülhün əlbəttə ki, təcəssümüdür. Şeyx Zayed Fondunun yaradılmasının əsasında dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqi dayanır. Məlumdur ki, sözügedən mükafat dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilir. Dövlətimizin başçısının bu mükafata layiq görülməsi həm də Azərbaycan Prezidentinin sülh gündəliyinin dünya tərəfindən təqdiridir. Otuz ildən artıq davam edən münaqişə və qan tökülməsindən sonra Cənubi Qafqazda sülhün bərqərar olması tarixi nailiyyətdir. Bu gün məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daxilində sabitlik tam təmin olunub. Azərbaycan Prezidenti "Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm", - deyə Davosda "Euronews" televiziyasına verdiyi müsahibəsində bildirib. Dövlətimizin başçısı bizim beş-altı aydır sülh şəraitində yaşadığımızı vurğulayaraq, müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamadığımızı qeyd edib.**

**Bildiyimiz kimi, Azərbaycan dövləti ərazilərini Ermənistanın işğalından azad etdikdən sonra yeni reallıqlar formalaşdırıb. Müasir dünyada mövcud reallığı dəyişəcək güc mövcud deyil. Ölkəmizin mövqeyi milli maraqlarımızı inamla müdafiə edir. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi uzaqgörənliyi, böyük diplomatik bacarığı sayəsində dövlətimiz dünyanın böyük gücləri sırasında ədalətli mövqeyini sərgiləyir və bütün zəruri addımları tam zamanında atır.**

**Dövlət başçısının müsahibəsində Azərbaycan ilə Ermənistan arasında münasibətlərə diqqət çəkilir. Artıq bu münasibətlər əməkdaşlığa çevrilir. "Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri aradan qaldırdıq", - deyən Prezident əlavə edib ki, biz Ermənistanın böyük dərəcədə asılı olduğu əsas malların, ilk növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq: "Bu vəziyyətdən hamı udur. Beləliklə, düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq.**

**Heç şübhəsiz ki, Azərbaycanın enerji sahəsində oynadığı rol həm regional, həm də qlobal əhəmiyyət daşıyır. Bu gün ölkəmiz Cənubi Qafqazın əsas enerji təminatçısı olmaqla yanaşı, Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşdır. Azərbaycan Cənubi Qafqazın enerji ehtiyatlarına məxsus və digər ölkələrə neft və qaz ixrac edən yeganə ölkədir. Belə ki, uzun illər Gürcüstan, indi isə artıq Ermənistan enerji ehtiyatlarını Azərbaycandan idxal edir. Avropa və Avropa İttifaqı ilə isə enerji əməkdaşlığımız artmaqdadır. Artıq 16 ölkəyə təbii qaz ixrac edir. Onların 10-u Avropa İttifaqının üzvüdür. Bir çox Avropa ölkələri ilə olan münasibətlər enerji təhlükəsizliyini gücləndirmək imkanı yaradır.**

**Prezident İlham Əliyevin Davosdan verdiyi mesajlar bir daha sübut etdi ki, ölkəmiz yeni beynəlxalq reallıqlarda öz yolunu müəyyənləşdirib.**

**Azərbaycan Prezidenti İlham Əliyevin Davosda "Euronews" telekanalına verdiyi müsahibə ölkənin regional və qlobal mövqeyini əks etdirən mühüm siyasi bəyanat oldu. Dəyişən dünya düzənində Azərbaycan öz yerini müəyyənləşdirib və milli maraqlarını beynəlxalq hüquqa uyğun olaraq müstəqil siyasət yürüdür.**



*Elgün Gəncimsoy*

## Raquf Orucov: igidliyi haqqında əfsanələr dolaşan komandir!

***Axşam idi. Otağın işığı yanmırdı. Çöldə elə soyuq idi ki, dodaqlar çatlayırdı. Hamımız sobanın başına yığışıb söhbət edirdik. Birdən söhbət ondan düşdü. Hər kəs bildiyi hər hadisəni xatırladı. "Varın verən utanmaz" deyərlər, kimin nə xatirəsi vardısa, dilə gətirdi.***

***Masada əyləşən kəşfiyyatçı dostum sanki danışmağa tərəddüd edirdi. Ancaq özünü saxlaya bilmədi. Çayını təzələyib bir qurtum içdi. Stəkanı ovucunda saxlayaraq arxada ikimərtəbəli əsgər çarpayısında dirsəklənib alaqaranlıq masamıza baxan yoldaşını əli ilə göstərdi və danışmağa başladı:***

***- Bunun da iştirak etdiyi bir döyüş tapşırığına getmişdik. Düşmən arxasına sızaraq tapşırığı uğurla yerinə yetirdik. Ancaq Ağdamın Yusifcanlı kəndi ərazisində düşmən bizi mühasirəyə aldı. Dəfələrlə döyüş manevrləri etsək də, vəziyyətdən çıxa bilmədik. Rabitə vasitəsilə çağırış etdik. Əlaqə alındı. Bizə atəş dəstəyi göstəriləcəyi bildirildi.***

***O tərəfdə hər şey plan üzrə aparılırdı. Qarşıdurma xəttində rabitənin o başında olan komandirin göstərişləri ilə bütün proses dəqiqliklə idarə olunurdu. Artilleriya düşməni aldatmaq üçün qrupun tam əks istiqamətinə atəş açdı. Biz isə düşmənin gözləmədiyi yerdən qurdun sürüyə hücumu kimi sarsıdıcı basqı etdik və mühasirədən çıxdıq. Öz səngərlərimizə doğru hərəkət başladı. Səngərə atıldığım an qarşımdakı işıltılı gözlər birbaşa gözlərimin içinə baxdı. Palçığın içində idim. O, gözləri ilə gözümə baxıb alnını alnıma dirədi, sonra palçıqlı çiynimdən öpdü və soruşdu: - İtkimiz yoxdur ki? - Yox, hər şey qaydasındadır. - Oğulsan. Mən sizin sağ qalmağınız üçün böyük məsuliyyətin altına girdim, - dedi və əlindəki qətifəni mənə uzatdı. - Üz-gözünü qurula, isti çay iç və dincəl.***

***O, bütün qrup üzvlərini eyni səmimiyyətlə, eyni doğmalıqla qarşıladı.***

***Sonra mən ondan kim olduğunu soruşdum. O qədər sadə və səmimi idi ki, gülümsəyərək dedi: - Mən bu hərbi hissənin komandiriyəm, sizin də qardaşınız.***

***Adım Raqufdur...***

***Bu, həmin Raquf Orucov idi.***

***Səmimi deyirəm, bəzən işğaldan azad olunmuş ərazilərdə ilk dəfə ayaq basdığım yerlərdə elə bilirəm onunla göz-gözə gəlirəm. O, əsl qəhrəman idi. Vətəni canından çox sevirdi. Bunu sübut etmək üçün yox, yaşadığı amalın həqiqət olduğunu dünyaya çatdırmaq üçün 2016-cı ilin Aprel döyüşlərində şəhadətə ucaldı.***

***Haqqın ödənilməz qəhrəman qardaşım.***

## *Çindən Azərbaycana yükdaşıma marşrutu açıldı*



**Çinin şimalındakı Tiencin bələdiyyəsindən Azərbaycanın paytaxtı Bakıya Xəzər dənizi üzərindən ilk Çin-Orta Asiya yük qatarı yola salınıb.**

Adalet.az xəbər verir ki, qatar paslanmayan polad borular və məişət texnikası da daxil olmaqla, müxtəlif mallar daşıyır. "China Railway Beijing Group" tərəfindən idarə olunan qatar Çinin şimal-qərbində yerləşən Sincan Uyğur Muxtar Bölgəsindəki Horqos sərhədkeçid məntəqəsindən ölkəni tərk edərək, Qazaxıstan ərazisindən keçəcək, daha sonra isə Xəzər dənizi üzərindən Bakıya çatdırılacaq.

Tiencin Konteyner Mərkəzi Stansiyasının nümayəndəsi Yanq Cunyonqun sözlərinə görə, yeni marşrut Tiencini Azərbaycan, Qazaxıstan və digər ölkələrlə birləşdirən sabit və səmərəli yükdaşıma kanalı yaradacaq.

O bildirib ki, təxminən 7 min kilometr məsafəni 20 günə qət edən bu marşrut ənənəvi dəniz nəqliyyatı ilə müqayisədə daşınma müddətini təqribən 10 gün azaldır.

Vurğulanıb ki, Azərbaycanın paytaxtı Bakı Xəzər dənizi üzərindən keçən beynəlxalq multimodal nəqliyyat dəhlizində mühüm mərkəz rolunu oynayır. Tiencindən gətirilən yüklər Bakıya çatdıqdan sonra digər ölkə və regionlara da paylana bilər.

Qeyd edək ki, 2025-ci ildə Tiencin Konteyner Mərkəzi Stansiyası ümumilikdə 390 Çin-Avropa (Mərkəzi Asiya) yük qatarına xidmət göstərib ki, bu da əvvəlki illə müqayisədə 38 faiz artım deməkdir.

# "Televiziyalar reklam xatirinə gəncləri məhvə sürükləyir..."

**"Deməк olar ki əksər meyxanalar, meyxanalı mahnılar narkomaniyanı və tüfeyli həyatı təbliğ edir. Narkomaniya əleyhinə mübarizə aparılırsa bu təbliğatın qarşısı alınmalıdır. Taksilərdə, kafelərdə, çayxana və qalyanxanalarda şüurlu şəkildə gənclərin beyninə bu mahnılarla kriminal aləm və narkomaniya yeridilir. Gəncləri bu yolla təşviq edirlər".**

Bunu Adalet.az-a açıqlamasında ilahiyyatçı Tural İrfan deyib.

O, bildirib ki, narkomaniya ilə mübarizə çərçivəsində maarifləndirmə o vaxt fayda verər ki, bütün bu təbliğatın qarşısı alınsın: "Hətta daha dəhşətlisi odur ki, bu cür mənfi xarakterli təbliğat efirlərə də ayaq açır, təbliğ olunur. Nalayiq və narkomaniya aləminin jarqonları ilə zəngin söz yığınından ibarət meyxanaları hind və fars melodiyaları üstündə oxuyub cəmiyyəti mənəvi təhqirə məruz qoyurlar. Pis vərdişlərin və sosial şəbəkələrdəki təhqir təlatümümün səbəblərindən biri də məhz bu amildir. Hətta bu propaqanda o qədər dərinə işləyib ki, orta məktəb şagirdləri də bunun təsirindədir. Son zəng tədbirində, ötən ilərdə müəllimin şagirdlərlə birgə narkomaniyanı və kriminal aləmi tərənnüm edən mahnı oxuduğuna görə cəzalandırıldığının şahidi olduq. Amma sonra bu "mahnıların" cəmiyyətə açıqlamasının qarşısını almağa yönəlik tədbir görülməsini görə bilmədik".

T.İrfan deyib ki, vaxt vardı taksilərdə, yeməkxanalarda, istirahət guşələrində Rəşid Behbudovun, Müslüm Moqamayevin, Qədir Rüstəmovun səsi eşidilirdi:

"Muğam, aşıq - saz musiqisi səslənirdi. Bir qədər kübar və zadəgan təbəqə Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Şəfiqə Axundovanın, Ramiz Mirişlinin bəstələrini dinləyirdi. İndi isə cəmiyyətin musiqi zövqü də korlanıb. Bayağı və ucuz musiqilər, söz yığınından ibarət meyxanalar, tüfeyli və avara həyatını tərənnüm edən mahnılar hər yeri bürüyüb. Orta məktəb şagirdlərinin saxlayıb qulağından qulaqcıqları çıxarıb qulaq assaq görəcəyik ki, əksəriyyəti bu cür bayağı, ictimai əxlaqa zidd, mənəvi dəyərlərə əks olan musiqi və meyxanalara qulaq asırlar. Çünki televiziya və radioda, sosial şəbəkələrdə məhz bunun təbliğatı gedir. Bu cür mahnı və meyxanaları oxuyanlar cəmiyyətə qəhrəman kimi, seçilmiş obrazlar kimi təqdim olunur".



İlahiyyatçının sözlərinə görə, televiziyalar reklam xatirinə əhalinin zövqünü korlayır, gəncləri məhvə sürükləyir:

"Bu əslində çox ağır problemdir. Açıqca narkotik vasitələrin təbliğatı gedir. Psixoloji cəhətdən gənclərin beynində rəy formalaşdırılır. Dininiz, milli mentalitetimiz, mənəvi dəyərlərimiz əsla bu çirkin mənzərə ilə uyğunlaşmır. Çox zaman dini dəyərləri də bu təbliğata alət edirlər. Dini simaların, dəyərlərin adları çəkilir, sanki onların obrazından da qalxan, sipər, pərdə kimi istifadə olunur. Hesab edirəm ki, əsasən gənclərin, orta məktəb şagirdlərinin pis vərdişlərdən, kriminaldan, tüfeyli həyatdan uzaq tutulması üçün qeyd edilən problemin həlli üçün müvafiq addımlar atılmalıdır. İctimai əxlaq zidd, mənəvi dəyərlərə və dinə, əxlaqa əks olan istənilən təbliğat növü, hal və hərəkətlərə qarşı mübarizə aparılmalı, məsuliyyət tədbiri görülməlidir. Müxtəlif təşkilatlar narkotiklərə qarşı mübarizə aparır, istifadəçilərin normal həyata qayıtması üçün fəaliyyət göstərirlər. Amma bir törədən də meyxanaçılar, meyxanalı mahnı oxuyanlar, taksi sürücülərinin əksəriyyəti, kafe - restoranlar bu bəlanı şirin göstərib, şirniklən-dirici təbliğat aparır, həmin mahnılarla cəmiyyəti psixoloji tilsimə salırlar. Bu mahnılarla gənclərin beyninə təhsil, elm öyrənmək, idman, incəsənət deyil, həbsxana həyatı, narkomaniya, kriminal yeridilir".

**Vasif ƏLİHÜSEYN**

# «Çin və Rusiya üçün İranı itirmək daha ağır nəticələrə səbəb olacaq»

**"Ağır vəziyyətdə olan İran tərəfdaş ölkələrin Tehrana dəstəyini artırmasını istəyir. Məsələ burasındadır ki, İran rejimi yürütdüyü siyasətlə yanlız Qərb ölkələri ilə münasibətlərdə gərginlik yaşamır, qonşu ölkələrlə münasibətləri də normal deyil. Buna baxmayaraq, Tehran iki tərəfdaşı - Rusiya və Çindən daha fəal dəstək arzulayır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, İranın xarici işlər naziri Abbas Əraqçinin çinli həmkarı Van Yi ilə telefon danışığı məhz bu məqsəd daşıyırdı: "Əraqçi çinli həmkarına İranda baş verən son hadisələr barədə məlumat verib. Əraqçının sözlərinə görə, İranda sabitlik bərpa edilib və dialoq üçün qapı açıqdır. Əraqçi Çindən regionda sülh və stabilliyin təmin olunmasında daha fəal rol oynamağı gözlədiklərini qeyd edib. Van Yi cavab olaraq bildirib ki, Çin BMT Nizamnaməsinin və beynəlxalq hüququn prinsiplərinə sadiqdir, beynəlxalq münasibətlərdə



zor tətbiqinə qarşıdır. O əlavə edib ki, Çin bütün tərəflərin təmkinli olmasını və fikir ayrılıqlarını dialoq yolu ilə həll etməsini arzulayır. Çinli nazir vurğulayıb ki, ölkəsi bu prosesdə konstruktiv rol oynamağa hazırdır".

Politoloqun sözlərinə göəə, bu arada, Pekin ABŞ-nin İranın daxili işlərinə müdaxiləsinə qarşı olduğunu bir daha bəyan edib:

"Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mao Nin deyib ki, Pekin ardıcıl olaraq digər ölkələrin daxili siyasətinə müdaxiləyə qarşıdır və Tehranın milli sabitliyin təmin olunması səylərini dəstəkləyir. Oxşar açıqlamalar Kremldən də səsləndirilib. ABŞ Venesuellanı nəzarətə götürdükdə Rusiya və Çin buna qarşı çıxsalar da, prosesə mane ola bilmədilər. İrandakı rejim Moskva və Pekinin İrana münasibətdə də eyni siyasətdən çıxış edəcəyindən narahatdır. Doğrudur, Çin və Rusiya üçün İranı itirmək daha ağır nəticələrə səbəb olacaq. Ancaq Venesuelladan fərqli olaraq İranda dəyişikliklər daxildən başlayarsa və buna ABŞ də dəstək verərsə, Moskva və Pekinin prosesə müdaxilə imkanları çox olmayacaq. Bunu Tehranda da anlayırlar. Təsadüfi deyil ki, İsrail və ABŞ İranın hərbi mərkəzlərini raket atəşinə tutduqda prezident Məsud Pezeşkian ölkəsinin müttəfiqlərindən kifayət qədər dəstək almadığını söyləmişdi. İran prezidenti ölkə adı çəkməsə də Rusiya və Çinə işarə edirdi".

O, bildirib ki, Rusiyanın başı Ukrayna müharibəsinə qarışıb, müxtəlif bölgələrdə baş verənlərə reaksiya üçün resursları kifayət deyil:

"Çin isə Venesuella və İrana görə ABŞ ilə münasibətləri indikindən daha da çətin vəziyyətə salmaq istəmir. ABŞ Prezidenti Donald Trampın İranla ticarət aparan ölkələrə qarşı əlavə 25 faizlik gömrük tariflərini tətbiq etməsini açıqlaması Çin iqtisadiyyatına əlavə problemlər yarada bilər. Çin lideri Si Cinpin ötən ilin oktyabr ayında Cənubi Koreyada görüşdüyü ABŞ Prezidenti Donald Trampla ticarət barışığı əldə edib. Si Cinpin həmin barışığı İrana görə pozmayacaq".

**Eldar**

# "İrandakı etirazlar ona görə inqilab şəklini ala və nəticəyə çata bilmədi ki..."

**"İranda baş verənlər inqilabın xalq işi olması kimi sadəlövh yanaşmaları bir daha kökündən çürütdü. Tramp və ya hər hansı maraqlı güc dəstək versəydi və İranda rejim dəyişsəydi, tarix belə yazacaqdı: İran xalqı ayağa qalxdı və narazı olduğu rejimi devirdi. Dəstək olmadı deyə inqilab və ya xalqın etirazı rejimi daha da gücləndirdi. Çünki idarəetmədəki bütün boşluqlar kəşf olundu. Suiqəsdçi maraqlar dəstək vermədikdə inqilab xalqı, sadəcə, öldürür".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

"Nə Böyük Fransız inqilabı, nə də rus proletar inqilabı, nə də digər hər hansı inqilab xalq gücüylə gerçəkləşmədi. Hər inqilabın gizli müəllifləri vardı. İrandakı etirazlar ona görə inqilab şəklini ala və nəticəyə çata bilmədi ki, müəllifləri daha tez istədiklərinə nail oldular.

Yeni xalqın tarix yazmaq gücü və bacarığı yoxdur. Tarixi hadisənin də hər hansı bir əsər kimi müəllifi və ya müəllifləri var.

İran türkləri XX əsrdə iki dəfə inqilab edib acı dadını bilirdilər deyə çox da canfəşanlıq etmədilər və haqlı olduqları üzə çıxdı. Çünki inqilabda əsas gücün xalqda deyil, hadisələrin müəllif və ya müəlliflərində olduğunu gözləriylə görmüşdülər.Bu elə bir məsələdir ki, bu məsələdə bilməmək xoşbəxtlik gətirmir, adamı öz bədbəxtliyindən də məhrum edir", - deyə o, bildirib.

**Vasif**

# QƏDİM ELİN GERÇƏK TARİXİ

## İndi daha gözəl gələcəyə boylanan Göyçay

**Göyçaydan söhbət açarkən , indiki halda mütləq olaraq şəhərin , eləcə də əksər kəndlərin son illər sürətli inkişafı , özünəməxsus bir gözəlliklə modernləşməsi fonunda keçmişə -tarixə də ekskurs edilməlidir. Bu, əslində ən vacib istiqamətlərdən biridir. Tarixi keçmişlə müasir reallıq bir-birini təsdiqləməlidir.Eyni zamanda bir məqama da xüsusi diqqət yetirmək lazımdır: Əfsanəvi Ali Baş Komandanımız İlham Əliyevin həm siyasi, həm də hərbi taktikaları ilə Qarabağın tam azad edilməsi və burada aparılan böyük quruculuq işlərinin uğurlu tendensiyası respublikamızın hər yerində olduğu kimi göyçaylılarda da böyük ruh yüksəkliyi yaratmışdır. Vətənini, şəhərini, kəndini, el-obasını ürəkdən sevmək şirin duyğulardır həm də...**

Mən əvvəllər də xatırlatmışam: Bu kiçik, ancaq adı böyük olan rayondan söz düşəndə Göyçay şəhərinin tarixindən ,yaşından da söbhət açılır. Bir neçə qədim binanın, eləcə




1901-ci ildə tikilən məscidin , "Yer hamamı" deyilən qurğunun tarixi abidə kimi təqdimatından sonra belə fikir yaranır ki , Göyçay şəhərinin yaşayış məskəni kimi mövcudluğu uzaqbaşı 220 ilə gedib çıxır. Doğrudur, tələsiklikdən və AVCİYA-nın prezidenti Elxan Süleymanovun inam və etibarından istifadə edilməklə heç də gözlənilən uğur gətirməyən "Göyçay ensiklopediyası" nda bəzi tarixi faktlar öz qiymətini ala bilmişdir. Bütün bunlara baxmayaraq , təəssüf ki, Göyçay layiq olduğu şəkildə öyrənilib tədqiq edilməmişdir. Tarix bəzən əldə yazılı mənbə olmadan da dövr və məkanla uyğunlaşaraq bəşəriyyətə reallığa və həqiqətə yaxın olanı çatdırmalıdır. Ancaq şəhərin yaşını 220 , ən qədim kəndlərin isə yaşını 400-500 il civarında müəyyənləşdirən diletant şəxslərin vətəndaşlıq mövqeyinə şübhə ilə yanaşmalı olursan. Tarixçilərin, arxeoloqların məsuliyyətini heç də öz üzərimə götürmək fikrində deyiləm.Ancaq bəzi fakt və məlumatlar tarixi və intuitiv yanaşma tələb edir ki bunlarsız da mümkün olmur.

Əvvəlcə elə Göyçay şəhərinin özündən başlayaraq . Bu şəhər əsasən Göyçay çayının sağ sahilindən genişlənərək böyüyüb indiki görkəmini alıb.Əsl şəhər quruluşu planlı - paralel küçələr çaydan təxminən 400-500 metr kənarda formalaşır. Bu, həqiqətən 200 ildən bərinin inkişafıdır. Bəs bundan əvvəl buralarda yaşayış olmayıbmı?. Olub. Hələ ən yaxın tarixi götürsək qədim Alban dövlətinin mövcudluğu illərinə gedib çıxır. Bir neçə fakt bunu sübut edir. Göyçay çayının sağ-sol dağ silsilələrindən genişliyə - ucsuz-bucaqsız düzənliyə çıxdığı ərazinin başlanğıcında böyük bir qəbirstanlığın qalıqları vardı. Başqa bir qəbirstanlığın qalıqları isə indiki şəhər ərazisinin Ağdaş rayonu istiqamətindəki qurtaracağının 100-150 metrliyində 45-50 il bundan əvvəllərə kimi dururdu. İndi heç biri yoxdu, qalıqlar isə torpaq altındadır.Çayın sahilinə yaxın son dağ silsiləsinin düzə- arana açıldığı yerdə əsrlərdən bəri mövcud olan qəbirstanlıq və onun qalıqları burada sahilboyu yetişən kiçik bir şəhərin tarixçəsini təsdiqləyir. İnsanlar qədim dövrlərdə yaşayış məskənlərini ilkin olaraq suya yaxın yerlərdən seçiblər.Bunsuz qurmaq və yaşamaq mümkün deyil. Şirvanda ən əlverişli ərazilərdən biri də məhz bu yerlər olub.

... Göyçay çayı kənarında 4 kilometrdən çox məsafəboyu kiçik bir şəhərin hələ orta əsrlərdən mövcudluğu dəqiqdir. Bu şəhər Alban dövlətinin təşəkkülü dövründə müəyyən inkişafda olub. Paytaxt Qəbələyə əlverişli yollar buradan keçirdi. Çay kənarı və Əlvan dərəsi ilə. Sözsüz ki, Qəbələyə uzaq ellərdən gələnlər az deyildi. Tacirlər və başqa yolçular dağlara qalxmazdan qabaq istirahət edib güc toplamalı idilər. Bax onda indiki Göyçayın həmin ərazisindəki kiçik şəhərin karvansarayları, bu şəhərdə yaşayıb çalışan dəmirçilər , nalbəndlər və başqa sənətkarlar kara gəlirdi. Bağ-bağatlı Göyçay kəndlərinin meyvələri, digər ərzaq məhsulları bu şəhərdə satılırdı. Buralarda olmayan mallara dəyişdirilirdi. Böyük tikililəri və qurğuları olmasa da , bura qaynar bir şəhər idi.

Müasir Göyçayın ən böyük küçəsi Nizami Gəncəvinin adını daşıyır. Təsvir etdiyimiz həmin o qədim şəhərin ən böyük və geniş yaşayış massivi buradır. Dahi Nizaminin yubileyinə qədər, yəni bu yubiley ərəfəsində bura Nizaminin adının verilməsinə qədər , heç bilirsiniz bu küçə necə adlanırdı? Sadəcə Qəbələ.İxtiyarların söylədiklərinə görə üstündən 10-15 il keçənə qədər də çoxları Nizami küçəsi deməyə öyrəşə bilməyərək Qəbələ küçəsi deyirmiş. Mən heç də tarixi gerçəkliklərdə mistika axtarmıram. Ancaq kimsə deyə bilərmi ki, qonşu Ağdaş, İsmayıllı və ya Qəbələ şəhərlərində Göyçay adlı küçə olub. Bəs onda nədən burada Qəbələ adı yaşayıb və sonradan küçə adına çevrilib? Sadəcə öz məkanına görə Göyçay o zamanlar qədim Alban dövlətinin paytaxtı olan Qəbələnin bir növ forpostu rolunu oynayıb .



O biri qəbirstanlıqdan götürülüb indi Göyçay rayon diyarşünaslıq muzeyində çox az bir qismdə saxlanılan eksponatların da yaşı İslamdan öncəki dövrləri əhatə edir. Silahları, zinət əşyaları, qab -qacağı ilə birlikdə küp qəbirlər ...

Burası belə.

Göyçayın Qaraman (Karaman) , Ləkçıplaq, Qarabaqqal, Çayarxı, Qaraxıdır, Mırtı, Alpout , Bəydövül və başqa kəndlərin yaşı 400-500 yox, ən azı 1800-2000 ildir. Ərəb,



Ərəbşahverdi, Ərəbcəbirli, Mirzəhüseynli, Şəhadət...kimi "ortayaşlı" kəndlərin yaranması isə bu yerlərdə İslam dininin yayılması dövrünə təsadüf edir. Ən azı 1100-1200 il ! Özü də bu kəndlərin əksəriyyətində Xilafət ordularından çoxlu sayda "qopub" qalanlar da olub. Onlar əsrlərlə öz nəsillərini artıraraq zamanımıza qədər gəlib çıxıblar. Danışıq dilləri türkçələşsə də , ərəb tələffüzü müəyyən elementləri ilə hələ də yaşamaqdadır. Təkrar



edirəm: mistika arxasınca düşməmişəm. Ancaq bütün bunlar da elə belə göydən düşməyib.

Hüngütlü kəndini götürək. Türk dilində belə mürəkkəb sözmü olur, bunun mənası nədir? Axı bu kəndin əsl adı Hunqutlu olub. Ulu babalarımız hunlar uzaq Şərqdən minlərlə kilometr yol gəlib Atillanın qurduğu böyük Türk imperiyasını genişləndirərkən belə yaşayış məntəqələrini qurub yaradıblar. 1500 il bundan əvvəllər Avropanın mərkəzində indiki Macarıstan (Hunqariyu) dövlətini yaratdıqları kimi. Belə misallar çoxdur. Sadəcə tarixçilərimiz, vakkumda qalmış bəzi ziyalılarımız rus sovet ənənəsindən asanlıqla qopa bilmirlər. Erməni yerdən ovulmuş bir qaya parçası tapıb tez də üstünə bir xaç şəkli , bir neçə qədim hərf və işarə uydurasaq muzeyə qoyur, dünyaya göstərməyə çalışır, bizsə özümüzə məxsus olana biganə qalırıq. Qədim Şumer mədəniyyətinin və Turançılığın bir parçası olduğumuzu unutmayaq. Bu mənada Göyçayın da kəndli-şəhərli 2000 -2500 il tarixə malik olmasını da sübut edən çoxlu faktların mövcudluğuna əsl vətəndaşlıq mövqeyindən yanaşaq.

Söz Vətəndən, Vətən tarixindən başlayanda daha çox məsuliyyətli olmalıyıq. İndi də sovet dövrü deyil ki , İqrar Əliyevin fars-rus modelli "Azərbaycan tarixi" kitabından kənara çıxa bilməyək .

... Yenidən bu günlərimizi yaşayaq. Artıq hər bir sakində belə bir fikir və inam formalaşır ki rayon bütün istiqamətlər üzrə düzgün yolda , gözəl inkişafdadır. Rayon rəhbərliyi təkcə şəhərin daha da abadlaşıb gözəlləşməsi ilə kifayətlənmir, baxmayaraq ki Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlovun sakinlərlə məsləhətli tədbirləri olduqca effektli təsir bağışlayır. Təmizlik,səliqə-sahman , nizam-intizam, qonaqpərvərlik və digər vacib xüsusiyyətlə rayon rəhbərinin intensiv fəaliyyəti ilə yanaşı, çoxçalarlı zövq balansıını da müəyyənləşdirir.

Bütün bunlar digər məsələlərə də təsir edir. Hər yerdə işgüzarlıq, hər yerdə şəffaflıq,sakinlərlə müntəzəm təmasların effektivliyi, cinayətkarlığa qarşı mübarizədə uğurlar...

Əlbəttə, həyatımızın ,zamanın belə bir gedişatı öz qiymətini layiqli şəkildə almalı, tarixin bir parçasına çevrilməlidir. Yüz illərlə vaxt keçəcək. Bu gün Göyçay şəhərinin 100-150 yaşlı çinarları bir vaxt 500 yaşında olacaq . Küçə və meydanlar ,park və bağlar daha da gözəlləşəcək, insanlar daha xoşbəxt və firavan yaşayacaqlar. Göyçayın bugünü və xoş gələcəyi üçün can qoyan insanların da adları gözəl hisslərlə xatırlanacaq. Tariximiz gələcəyə ən düzgün və ədalətli bir yolla çıxacaq.

***P.S*** **Son olaraq bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, hər yerdə olduğu kimi bu günlərdə Göyçay rayonunda da keçirilən 2025-ci ilin yekunlarına dair hesabat yığıncağında çox vacib məsələlərə toxunuldu. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Orxan Mürsəlovun hesabat məruzəsində rayonun sosial-iqtisadi inkişafı ilə yanaşı, mədəni həyatın yüksəlişi, mənəvi dəyərlərə həssas yanaşılması xüsusi vurğulandı. Bütün bunlar rayon rəhbərliyinin məsələlərə elə ilk vaxtlardan böyük inam və təşəbbüslərlə başlayıb davam etdirdiyi effektiv fəaliyyətinin daha mükəmməl anonsu idi. Hər dəfə aparatda və yerlərdəki görüşlər zamanı səmimi və realist davranışı başçıya sakinlərin böyük hörmətini qazandırır. Elə cənab Prezidentin də yüksək vəzifəli dövlət məmurlarından tələb və istəyi budur. Göyçayın və göyçaylıların bəxtindən rayonun rəhbərliyi etibarlı əllərdədir.**



**Səmimiyyət, açıq-ünsiyyət, müasir fəaliyyət formulu , yüksək dünyagörüş və intellektual səviyyə ...**

**Ayrıca olaraq bu mövzu ətrafında 2026-cı ilin 6 aylıq yekununda yəqin ki daha geniş söhbət olacaq.**

**Məzahir ƏHMƏDOĞLU**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Ustadım Şahmar Əkbərzadə ilə ruh söhbəti

Dərd, kədər, sevinc, vüsal, qayğı, xoş anlar... Bütün bu duyğular insana məxsusdur və insan da yaşından, başından asılı olmadan həyatı boyu bu duyğuları, bu hissləri az və ya çox yaşayır. Yəni hərənin bəxtində ya sevinc çox olur, ya da kədər, ya vüsal çox olur, ya ayrılıq, ya ağrı çox olur, ya da xoş anlar... Bax, bu müqayisənin içərisində bir gerçəklik də var. O da insanın bütövlüyü, sözün həqiqi mənasında bir Allah bəndəsi olaraq kamilliyidi. Əgər bu kamillik, bu bütövlük varsa, onda insan sona qədər dayanacaq, dözəcək, savaşacaq, bir sözlə, məqsədə doğru dizin-dizin də olsa gedəcəkdir...

Mən bu fikirləri bədahətən, ya da yazı yazmaq üçün bilgisayara diktə eləmirəm. Bunun bir səbəbi var. O da içimdə alışan bir qığılcımdır. O qığılcım da elə-belə, təsadüfdən alışmayıb. Kitab rəfimin önündə dayanıb layihəmə uyğun olaraq növbəti müəlliflə həmsöhbət olmaq istəyirdim. Bu dəfə ustadım, unudulmaz Şahmar Əkbərzadənin qapısını döydüm. Onun 1988-ci ildə işıq üzü görmüş və xalq şairi Bəxtiyar Vahabzadənin ön söz yazdığı "Ona yanıram ki" kitabı ilə qarşılaşdım. Zamanında, yəni kitabı ilk dəfə əldə etdiyim dövrdə demək olar ki, masamın üstündə yer tutmuş bu kitabı bəlkə də yüz dəfə oxumuşam. Ona görə də bu dəfə konkret bir şeiri axtarmadım. Elə kitabı az qala gözüyumulu açdım və oxuduğum şeir "Həyatmış demə" oldu.

Hə, doğurdan da təkcə bu dünya, bu ömür yox, təkcə bu çevrə, bu mühit yox, bütövlükdə gözümüzün görüb ruhumuzun və ürəyimizin dəyər verdiyi hər şey həyatmış. Bizim təmasda olduğumuz, bizlə təmasda olan həyat. Bu həyatın ən incə, ən işıqlı və ən çox cəlbedici bir nöqtəsi də var. Əslində mənə görə o nöqtə deyil. O bütün həyatın özüdü. Çünki o, Sevgidi! Əgər sevgidirsə, demək yaşamdı, demək yaşatmaqdı, demək xalq şairi Bəxtiyar Vahabzadə demiş, yanmaqdı, yandırmaqdı!

Bax, elə Şahmar Əkbərzadə də yanıb yandırmaq bucağı altında mənə, sənə, hamımıza üz tutub deyir:

*Bilməzdim sevginin zülmü var belə,*
*Sevilmək zülümmüş, sevmək zülümmüş.*
*Sevda yollarında tikanlar belə,*
*Saralmaz çiçəyim, solmaz gülümmüş.*

Bəli, görün necə də kövrək, necə də səmimi və necə də pıçıltı ilə deyilib hər şey. Bu kövrəkliyi, bu səmimiyyəti, bu pıçıltını öncə duymaq lazımdı, sonra eşitmək. Elə ki, duydun, onda eşidəcəksən. Elə ki, eşitdin, onda yaşayacaqsan. Çünki duyduğun, eşitdiyin Sevgidi!.. O da səni yaşadacaq, yandıra-yandıra yaşadacaqdı! Və mən də bu yaşamın içində bir də baxıb görəcəm ki:

*Şehli çiçək kimi gözü yoldadı*
*Bahar mehi kimi əsməsəm*
*belə.*
*Qəbul etməsən də peşman*
*olmadım -*
*Canım qurbanlıqdı kəsməsən*
*belə.*

Ola bilsin ki, fikrimin, ifadələrimin düzüm sırası bir az pərakəndədi. Amma bu pərakəndəliyin içərisində də bir sevgi var. O da mənim sevgimdi və mən də ustad Şahmar Əkbərzadənin vurğuladığı, yandırıb-yaxan sevginin ocağında sadə dildə desəm, mətəsində öz sevgimin oduna isinirəm və yanıram. Bu hadisə bir cəm formasında, bir toplum halında qurbanlığın canımın olmasını diqqətə çəkir. Onu qəbul etsən də, etməsən də. O deyilmiş qurbandı və əgər qurban deyilibsə, deməli içdən gəlib, ilahidən gəlib. Axı, sevgi də ilahidən gəlir. Və bu ilahidən gələn qurbanlıq da, sevgi də biri o birisinin şərəfinədir, biri o birisinin ayağına gedir qurban olmaq üçün. Bu mənada təbii ki, ustadın fikri bir az da çəkir, haraylayır məni özünə tərəf. Mən onu dinləyə-dinləyə həm xatirələrə dalıram, yəni sevgimin izinə düşüb gedirəm, həm də məni gözləyənlərə özümü hazırlayıram. Çünki söz ustad sözüdür! Ustad isə deyib ki:



*Məni elə yandır kimsə bilməsin,*
*Ağlasın göy mənə, gülsün yer mənə.*
*Şirin işgəncənə heyfin gəlməsin*
*Oğrun baxa-baxa zülüm ver mənə.*

Görün, sevgi nə boydadı? Görün, ürəkdəki, ruhdakı, iç dünyasındakı ocağın, alovun atəşi haralara gedib çatır? Görün, sevgi naminə özünü hazır tutmaq nə deməkdir? Bax, bütün bu verdiyim sualların cavabı da, yozumu da, elə deyimi və dinlənilməsi də ustad Şahmar Əkbərzadənin misralarında var. o misraları sevgi ilə, duya-duya oxumaq yetər ki, anlayasan, hiss edəsən ki, şair nə deyir, nə ismarıc edir. Əgər duydun və anladınsa, nə sevginə, nə də sənə zaval olmayacaq. Çünki verilən şirin işgəncələr ürəyi göynətsə də, sındırmayacaq, süründürməyəcək, əksinə, onu şərəfləndirəcək, onu dəyərləndirəcək və mən də o şərəfdən, o dəyərdən çıxış edərək sənə deyirəm, daha doğrusu, yazıram:

*Tanrı dərgahında yerim*
*qaranlıq*
*Ömür qismətimə düşüb*
*viranlıq.*
*Mənim çəkdiyimi duysan bir*
*anlıq -*
*Dönərəm keçmişdən, səsləsən*
*belə.*

Bu da mənim sevgimin yaratdığı assosasiyadı. Mənim sevgimin pıçıltısı, harayı və hardasa həm də fəryadıdı. Onu təbii ki, Allah eşidir, Sən duyur və eşidirsən, mən isə yaşayıram. Bu sırada, Allah, Sən və mən cərgəsində bir düz xətt var. O xəttin də adı Sevgidir. Bizi bir-birimizə bağlayan, bizi bir-birimizə yaşadan sevgi! Başlanğıc Allahdı. Biz də sevgimizlə ona biət edənlər, ona sığınanlarıq. Yaşamımız da ordadı, xilasımız da. Demək bütün bu söylədiklərimin şah damarı olan sevgi əvvəldə dediyim kimi, əslində isə ustad Şahmar Əkbərzadənin dediyi kimi HƏYATDI. O həyatın sevgi olan dadı, tamı, şirəsi şair dilində, şair yozumunda sevgi dolu şeirə çevrilir. Həmin şeir də oxucu qapısını döyür. O qapının arxasındakı sevgi dolu, sevgi işartılı varlıqdırsa, açır qollarını. Əks halda o qapının arxasındakı itirir, şeir yox!!! Çünki şeirin yolu yerdən üzü Tanrıyadı. Əzaba, zülmə biganəliyə baxmayaraq, bunu da ustad Şahmar Əkbərzadə özünəməxsus şəkildə deyib:

*Zülüm ver, zülmün də məhəbbətinmiş,*
*Xoşbəxtlik bəxş edən qışa qış demə.*
*Verdiyin işgəncə səadətimmiş,*
*Çəkdiyim sitəmlər həyatmış demə!*

Hər bir misrasının arxasında öz böyüklüyü və böyük sevgisi dayanan ustad bu üç bəndlik şeirdə mənə yaşadığım sevginin bütün cizgilərini anbaan xatırlatdı, yaşatdı. Ya mən ötən anların bütün çalarlarını içimdən təkrar keçirdib səninlə yanaşı addımladığım, gəzib dolaşdığım, birgə olduğum, həsrətini çəkdiyim, təkliyini yaşadığım bir ömrün bədii sənədli filmini izlədim. Onun bədii tərəfi sənin təbəssümün, külək dağıdan saçların, sənin yerişin, duruşun, baxışın idi. Sənədli tərəfi isə o bədiiliyi qeyri-adi edən SEVGİ! Mən də həm tamaşaçı, həm izləyici, həm iştirakçı, həm şahid, həm aşiq, həm də bütün mənalarda sevgi fədaisi kimi o filmdə sənin yanında dayanmışdım və yavaşca pıçıldayırdım:

*Bir sənə qalıbdı ümid, inamım*
*Gözünü gözümə sanc ki,*
*inanım.*
*Mən ki, səninkiyəm, daha nə*
*danım -*
*Bitərəm daş üstə*
*bəsləsən belə.*

Bəli, bu mənim unudulmaz, hər misrası yaddaşlara və ədəbiyyatımıza hopmuş və möhürlənmiş ustadım Şahmar Əkbərzadə ilə növbəti görüşdə etdiyim söhbət idi. Bu söhbət necə alındı, necə yazıldı, onu hər ikimizin ruhu, hər ikimizin sevgisi, bir də təbii ki, Allah bilir. Mən həmin sevgi ilə Allahımın qarşısında baş əyərək şükürlər edirəm. O şükranlığın ünvanı ədəbiyyatımızda, həyatımızda Şahmar Əkbərzadə varlığı, Şahmar Əkbərzadə poeziyası, Şahmar Əkbərzadə bütövlüyü, Şahmar Əkbərzadə sevgisi və bir də mənim sevgimdir!

Həzi Həsənli,
şair-publisist



# Nəğməli ürək

*Onun ömür yolu dünyaya göz açdığı Pirşağı kəndindən başlayır.... Köksündəki duyğular şəlalə harayına bənzəyir. Elə bil, ifaları nəğməli gur bulaq, aşıb-daşan dağ çayıdır. Nəğməli ürəklər ana bətnindən Tanrı töhfəsi kimi doğulur. Xanmurad da fitri istedadı ilə anadan ifaçı kimi doğulub. Göz açıb dünyaya boylandığı gündən öz nəğməli ürəyi ilə yaşayır. İfalarını öz nəğməli ürəyinin səsi kimi duyur, eşidir və eşitdirir. O, sənətin incəliklərinə dərindən bələd olub, onun dərinliklərinə enən, ifalarını özünəməxsusluğu ilə üzə çıxaran nadir istedadlı gənclərdəndir.*

*Xanmurad həm də özündən əvvəlki nəfəsli alət ifaçılarının sənətindən bəhrələnərək, bir neçə alətdə özü kimi ifa edir. Onun ifaları bu baxımdan öz səsi, öz nəfəsi kimi seçilir. Sənət aləminin gözəlliyi də elə bundadır.*

*Mahir klarnet ifaçısı kimi tanınan gənc Xanmurad Kazımov əslində tək klarnetdə deyil, o cümlədən, qara zurnada, balabanda və tütəkdə də məharətlə ifa edir. Özü həyatda həmişə təmizlik, saflıq, xeyirxahlıq, yaxşılıq kimi insani dəyərlər haqqında düşündüyü kimi, sənətin də təmiz yolu ilə gedir. Bilir ki, sənətin təmiz yolu ilə getmək daha gözəldir. Onu da yaxşı bilir ki, hər sənətin və sənətkarın öz dəyəri, öz qiyməti var. Xanmurad öz dəyərini bilən sənətkarlardandır. Ona görə də onun sənət uğurları təkcə özünü deyil, pərəstişkarlarını da sevindirir.*



*Mən Xanmuradı tanıdığım gündən ona rəğbətim yarandı. İstedadı ilə yanaşı, xasiyyətindəki üstün cəhətləri də diqqətimi cəlb etdi. Atası rəhmətə getdikdən sonra onun sənət qayğıları ilə yanaşı, ailə qayğıları da çoxalıb. Öz halal zəhməti ilə dolanır, ailəsinin və el-obasının qayğıları ilə yaşayır. Elə buna görə də Pirşağı kəndində hamı Xanmuradın sənətinə və özünə hörmətlə yanaşır.*

*Onun müsiqi yaddaşı çox zəngindir. Qədim rəqs havalarını klarnetdə və digər nəfəs alətlərində xüsusi şövqlə ifa edir. İfaları sırasında ən gözəl örnəklər qəlbinin dərinliklərindən gəlir. Onu dinləyəndə, mənə elə gəlir ki, yaşanan duyğunu və qəlbə sığmayan hiss-həyacanı dinləyirəm. Deyir:*

*-Uşaqlıq illərimdən qonaq-qaralı, toy -büsatlı, çal-çağırlı Pirşağı kəndinə vurulmuşam. Kəndimizdə toy, şənlik olanda ora getməyə can atırdım, musiqiçilərin ifalarını dinləyəndə çox sevinirdim, fərəhlənirdim. Onların ifasında rəngarəng musiqi nömrələrini heyranlıqla dinləyirdim. Bir toyda məşhur klarnet ifaçısı Hacı Həmidoğlunun sənətinə vuruldum.*

*Elə həmin vaxtlardan ürəyimdə musiqiçi olmaq arzusu baş qaldırdı. Sonralar bir müddət Hacı Həmidoğlunun tələbəsi oldum və bu sənətə yiyələndim. Ustadımla birlikdə Bakı toylarında və çoxsaylı müxtəlif tədbirlərdə iştirak etdim. Onun özü də efirlərdə mənim haqqımda dəfələrlə xoş sözlər deyib. Sənətimə yüksək qiymət verib.*

*Xanmuradın xarakterindəki səmimiyyət, hisslərindəki dərinlik, ünsiyyətindəki doğruçuluq onu yetgin bir gənc kimi, bütöv şəxsiyyət kimi formalaşdırıb.*

*O, 1994 -cü ildə Bakının Pirşağı kəndində doğulub boya-başa çatıb. Pirşağı onun arzularının, ümidlərinin könül dünyasıdır. Pirşağı qəsəbəsində 112 saylı orta məktəbdə oxuyub. Eyni zamanda Rafiq Babayev adına 25 saylı uşaq musiqi məktəbində fortopiano sinfində təhsil alıb. Dəfələrlə festivallarda laureat olub, birinci yerə layiq görülüb. Azərbaycan respublikasının Xalq artistləri görkəmli bəstəkarlar Arif Məlikovun və Oqtay Zülfüqarovun qarşısında dəfələrlə fortopianoda və klassik ksilofon alətində ifa edib. Arif Məlikov onun istedadına və ifaçılıq qabiliyyətinə yüksək qiymət verib.*

*Xanmurad hazırda tanınmış müğənnilərlə birlikdə Bakı toylarında ifa etməklə yanaşı, Əhsən Rəhmanlının rəhbərlik etdiyi ansanblda çalışır. Bu ansanbl Mədəniyyət kanalının izləyicilərinə yaxşı tanışdır. Demək olar ki, ansanblın üzvləri, o cümlədən Xanmurad da öz rəngarəng musiqi nömrələri ilə izləyicilərin rəğbətini qazanıb. Orada ansablla birlikdə Xanmuradın da maraqlı çıxışları lentə alınıb.*

*Onu da qeyd etmək lazımdır ki, həmin ansabldа bir zamanlar rəhmətlik Hacı Həmidoğli çalışıb. Hazırda bu ansanblda Xanmurad ustadının sənətini onun adınalayiq davam etdirir. Xüsusilə vurğulamaq lazımdır ki, Xanmurad ustadı Hacı Həmidoğludan ona yadigar qalan dörd musiqi alətlərində - klarnet, balaban, qara zurna və tütəkdə çox mahir ifaları ilə yaxşı tanınır. Ona sənətin çətin yollarında uğurlar diləyirik...*



Musa Urud

# Qərib heey!

**Qərib heey!**

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri , tanınmış yazıçı- publisist Qərib Mehdi bu fani dünyaya əlvida deyib, əbədiyyətə qovuşdu. Öz uzun və mənalı ömrünün altmış ilindən çoxunu söz sənətinə həsr edən Qərib Mehdi ustad qələmini ədəbiyyatın bir çox janrlarında sınadı: hekayə, povest, roman, dram, şeir, məqalə yazdı. Qərib Mehdi nə yazdısa ürəklə yazdı, içindən gələni yazdı, sözdən ilmə toxuyurmuş kimi, biri digərinə bənzəmyən gözəl lövhələr yaratdı.**

**Qərib Mehdi nə yazdısa, " Qərib heey!" nidasının prizmasından baxaraq yazdı, məsuliyyətini və borcunu dərk edərək yazdı.**



**Qərib Mehdini mən çoxdan və kifayət qədər yaxından tanıyırdım. Ustad-şagird münasibətimiz sonradan dostluğa çevrilmişdi.**

**1984-cü ildə mən Tibb İnstitutunu bitirib təyinatla işləmək üçün Gəncəyə gedəndən sonra Qərib Mehdini tanımışam. Qərib müəllimin 1980- ci ildə Gəncədə yaratdığı və rəhbərlik etdiyi " İlham" ədəbi birliyi Gəncə ədəbi mühiti üçün yeni bir hadisə idi və qısa müddətdə gənc qələm sahiblərinin ibadətgahına çevirilmişdi. "İlham" ədəbi birliyinin hər həftənin şənbə günləri "Alimlər evi" ndə keçirdiyi toplantıları bir ədəbiyyat bayramına çevirilirdi. Birlik üzvləri yeni yazılarını oxuyur, ciddi ədəbi mübahisələr, diskusiyalar aparırdılar. Bu birliyin müdavimləri arasından Azərbaycan ədəbiyyatında öz sözünü demiş, imzasını qoymuş bir çox istedadlı qələm sahibləri yetişmişdir: Xəzangül, Qəşəm Nəcəfzadə, Sərvaz Hüseyinoğlu, Kəramət, Elçin İsgəndərzadə, Nizami Aydın, İham Məmmədov, Aydın Murovdağlı, Eldar İsgəndərzadə, Aləmzər Əlizadə, Sadiq Musa, Fərruxə Umarova, Aygün və s. kimi tanınmış qələm sahibləri məhz ustad yazıçı və müəllim Qərib Mehdinin yaradıb rəhbərlik etdiyi "İlham" ədəbi birliyinin əlaçı şagirdləri olmuşlar.**

**Qərib Mehdinin uşaqlığı ağır müharib illərinə düşmüşdü, atası müharibədən qayıtmamışdı, anasının himayəsində böyüyən istedadlı gənc olan Qərib fəhlə, qaynaqçı, daşyonan, bənna, aktyor kimi peşələrdə çalışaraq bir parça çörəyini özünün dediyi kimi "daşdan çıxararaq", həyat mücadiləsi apararaq yazıçı kimi yetişmişdi, daha sonralar müəllimi olduğu Gəncə Pedoqoji İnstitutunu da qiyabi olaraq bitirmişdi. Ancaq necə deyərlər, istedad gün işığı kimidir, həmişə üstdə qalır. Qərib Mehdi böyük ədəbiyyata "Rast" povesti ilə, " Qərib, heey" mənzum hekayəsi gəldi və parlaq istedadı ilə ədəbi mühitdə tanındı.**

**Qərib Mehdi vicdanlı və ədalətli qələm sahibi olmaqla yanaşı, aydın və qətiyyətli vətəndaş mövqeyi ilə tanınan qələm sahibi idi.**

**Qərib Mehdi olduqca təmiz mənəviyyata və daxili azadlığa malik olan söz ustadı idi.**

**Qərib Mehdi yaradıcılığı həyatın özündən, onun ən dərin qatlarından qaynaqlanırdı, axırdı, axdıqca da durulurdu, içtimai münasibətlərə də bir saflıq aşılayırdı.**

**Qərib Mehdi olduqca sadə həyat tərzi olan, təvəzökar, öz yerini, həm də öz qiymətini bilən dəyərli qələm sahibi idi.**

**Qərib Mehdi kifayət qədər uzun və mənalı ömür yaşadı, yüzlərlə bir-birindən gözəl əsərlərə öz imzasını qoyaraq dünyaya əlvida dedi.**

**Amma bir həqiqət də var ki, yazıçının əsil ömrü onun əsərlərinin ömrü qədərdir. Xoşbəxt o qələm sahibidir ki, adı, imzası fiziki ömründən qat-qat çox yaşayır və müəllifi xatırladır.**

**Qərib Mehdi kimi...**



Ayaz Arabaçı

# Kefinizə düşsə oxuyun...

Kim nə deyir-desin o illərin dadı başqaydı.

Uşaqlıq illərini deyirəm, 70-lərdən 90-lara kimi...

Həyat hələ bu qədər qaçdı-qovdu deyildi, axşamlar uzun idi,

işıqlar tez sönsə də qaranlıq indiki kimi qorxulu vahiməli olmazdı..

Çünki hər evin içində sanki ilahinin nəfəsi dolaşırdı, pul az idi, amma süfrələrimiz doluydu, gözümüz-könlümüz tox idi.

Atalarımızı Allah kimi görürdük, indiki kimi miskin, zavallı, yazıq yox..

Küçələr uşaqların səsiylə aşıb-daşırdı, pəncərələrdən analarımızın səsi bir-birinə qarışardı, adlarımız havada uçuşardı.

Heç nədən bezməzdik, yorulmazdıq, gün batardı, amma içimizdəki işıq sönməzdi.

O illərin ağrıları da başqa cür idi,

yıxılanda dizimiz qanayardı,baltayla, bıçaqla əlimizi kəsərdik, evdə bildirməzdik, öz-özünə sağalardı.

İndi qanımız içimizə axır, yaralarımız sağalmır.

Bayramların bayram kimi dadı vardı, adı yox.

Özünüz xatırlamağa çalışın, nəyini yazım ki.. Təzə paltarlarımızın sevincini yaşamaqla doymurduq,

amma köhnə paltarlarımızdan da utanmırdıq..

İndi yenisi çoxdur,

amma sevinci az.

70-lər, 80-lər, 90-lar

Bir az kasıb, bir az sərt,

amma çox səmimi illər.

İnsanlar bir-birinə yaxın idi,

evlər balaca, qəlblər geniş.

İndi geriyə baxıram,

o illər getməyib əslində,

sadəcə biz onlardan uzaqlaşmışıq.

Uşaqlıq hardasa içimizdə susub,

köhnə bir radio kimi..

Səsi eşidilməsə də nəğmələri çox həzindir

O həzinliyin içindən sizə bir yarpaq təqdim etmək istəyirəm..

İnanıram ki, könlünüzcə olacaq..

O illərin ruhunu dinləyərək böyüyənlər yaxşı xatırlayır: bəzi səslər var idi ki, kasetlərdən, radio dalğalarından yox, birbaşa adamın içindən keçirdi. Şamo İsayev də məhz o səslərdən biri idi. Səsində bir kövrəklik vardı, nə hayqırtı, nə də süni pafosla yüklənmirdi.. O səs yeri gəlmişkən indi də olduğu kimi qalır, zamana bac verməyib.O səs deyildi, sadəcə dərindən gələn, səmimi bir yanğıydı. Elə bil oxumur, yaşadıqların pıçıltı ilə etiraf edirdi. Şamo İsayevin ifalarında sevgi heç vaxt ucuz romantika olmadı.

O, sevgini, ayrılığı, həsrəti, eləcə də vüsalı damarlarımıza hiss olunmadan yeridirdi. Bəlkə də burda həkim olmağının da hikməti rol oynayırdı. Sanki hər mahnısı mən sənin üçün oxunuram deyirdi..

80-ci illərin insanı üçün musiqi bir sığınacaq idi. Gündəlik həyatın yorğunluğu, deyilməmiş sözlər, içində pərvazlanmaq istəyən hisslər Şamo İsayev bu sığınacağın qapısını açan səs idi. Onu dinləyəndə insan özünə yaxınlaşırdı, öz qəlbinin köhnə, toz basmış xatirələrini yeniləyirdi.

Bəlkə də ona görə Şamo İsayev bu qədər sevilirdi: çünki o, ulduz kimi əlçatmaz deyildi. O, bizim kimi hiss edən, bizim kimi darıxan, bizim kimi sevən bir adam idi.

Bu gün 80-ci illərə dönəndə, köhnə lentlərin sızıltısı arasından o səs yenə seçilirsə, bilin ki, o səs hələ çox illəri yoracaq.. Şamo İsayev sadəcə bir müğənni deyildi o, bir dövrün qəlbinə yazılmış kövrək bir xatirə idi.

Bu səs mənim tələbəlik illərimin səsi idi

Şəhərin dar otaqlarından, kitab qoxulu yataqxanalardan çıxıb tətilə kəndə qayıdanda, yükümüz çamadanlardan çox xatirələr olurdu. Əlimizdə "Vesna" maqnitofon o dövrün ən qiymətli xəzinəsi. Batareyası tez bitərdi, amma səs bitməzdi. Dağlara qalxardıq, meşələrdən keçərdik, dərələrə enərdik, o səslə qolboyun. .

Külək susardı, quşlar qanad saxlayardı, biz isə heç nə deməzdik. Çünki o mahnılar danışmaq üçün yox, susmaq üçün idi. İçində nə varsa sevgi, həsrət, yarımçıq qalan arzular hamısı o səsdəydi..

Bəzən tələbələrdən kimsə qürrələnərək deyərdi:

- Qardaşımın toyunu Şamo oxuyub

Biz ona həsədlə baxardıq.

O cümlə özü təkcə, bir status idi.

Onun səsi sevincin içindəki kədəri, kədərin içindəki ümidi çatdırırdı.

Bəlkə də buna görə o səs gəncliyimizə hopdu. İlk sevgilərimizin utancaqlığı, son görüşlərin sükutu, qızlara yazdığımız məktublar hamısı Şamonun səsi idi.

İndi o illəri xatırlayanda nə şəhər gözümün qabağına gəlir, nə də yollar. Bir səs gəlir əvvəl maqni tofon lentindən süzülən, dağlara doğru gedən, ürəyin ən dərin yerində ilişib qalan bir səs.

Yanıqlı

Elə bizim gəncliyimiz kimi.

# Yaşamağa və ölməyə VƏTƏN yaxşı

**İndi heç kimi təəccübləndirmək mümkün deyil..Ona görə ki, hər gün yollardayıq...Bütöv Vətənin yollarında.... Ağdama, Füzuliyə, Cəbrayıla, Xocavəndə, Zəngilana, Qubadlıya, Laçına Ağdərəyə, Kəlbəcərə, Xocalıya, Şuşaya, Xankəndinə getdiyimiz yoldu bu yol! Və biz bu yolu artıq qalib kimi gedirik... torpağın sahibi kimi gedirik. Və hələ neçə illər bundan öncə xalq şairi böyük Bəxtiyar Vahabzadə ilə söhbətlərimin birində mənə dediyi kimi, "Bu, böyük Qayıdışın yoludu". Bəxtiyar müəllim mənə ürəkdirək verirmiş kimi onu da dedi ki, "Darıxma, Türkün özünə dönüşü var. Bizim də böyük dönüşümüz olacaq. Bu, böyük Qayıdış kimi düşəcək tariximizə".**

Xalq şairimizin bu fəhmi indi çin olur, indi gerçəkləşir. Və mən bu gerçəkləşən qayıdışın bir sıra nəfəri kimi özümü xoşbəxtlərin sırasında görürəm. Çünki "ölməyə vətən yaxşı" deyənlər elə-belə adamlar olmayıb. Onların istəyinin mahiyyəti indi bəlli olur mənə. Yadıma dünyasını dəyişmək ərəfəsində atamın dediyi söz də düşür. "Allah möhlət verə, gedib kəndimdə öləm!". Mən bu arzunun fərqinə indi daha çox varıram. İndi anlayıram ki, atam Allahdan elə-belə ömür istəmirmiş, kəndini görmək üçün möhlət istəyirmiş. Təəssüf ki, bu günü görmək, qələbə xəbərlərini eşitmək dünyasını dəyişən insanlarımıza nəsib olmadı. Amma ruh ki, yaşayır. İnanıram ki, indi o ruhlar Qarabağdadı, səngərləri keçib gediblər. Orda qarşılayırlar əsgərlərimizi... orda qarşılayırlar igidlərimizi.

Bəli, bu gün daha "DQMV" yoxdu!




Gedib cəhənnəmin dibinə!!! Oradan isə dönüş mümkünsüzdü! Bu gün AZAD QARABAĞ VAR!!! Bu gün XANKƏNDİNDƏ dalğalanan AZƏRBAYCAN BAYRAĞI VAR!!! o bayrağı qaldıran DƏMİR YUMRUQ VAR!!!

...Hə, şükür ki, yolum Tuğadı... Şükür ki, içimdə sıralanan ümidlər əsgərlərimizə qoşulub məndən öndə idilər.. Və bir də mən artıq dəfələrlə yazıb təkrarladığım bir nisgili indi içimdən qovmaq gücündəyəm. Çünki "Ehtiyacım elçi daşı" kitabımda yazmışdım ki:

***Ana qucağından***
***isti yer***
***körpə qığıltısından***
***həzin musiqi***
***varmı dünyada ?!.***

***Ana - ana torpaq***
***övlad əsgər.***
***Başını söykədiyin***
***sinəyə***
***sevgini göstər...***

***Ağrısını***
***süd kimi əm***
***Və Allahın eşidə biləcəyi***
***səslə içində pıçılda -***

***Qəmin kəm, Ana,***
***Qəmin kəm***
***torpaq,***
***qəmin kəm...***

İndi torpağımız da, analarımız da, övladlarımız da, özümüz də qəmdən qurtulmuşuq. Bu gün bir-birimizə gözaydınlığı veririk. Və bu gün biz həm də darıxdığımız torpağı çiynimizə qaldırmışıq. Çünki onun 30 il yad tapdağında qalmasına dözmüşük... Və qisasımızı qanımızla alıb onu çiynimizə qaldırmışıq ki, bir daha yad ayaq dəyməsin, yad nəfəs toxunmasın. İnşallah, belə də olacaq! Və biz bir-birimizə bundan sonra bir andla müraciət edəcəyik. Yəni sözümüzü, fikrimizi isbat üçün "TORPAQ HAQQI!" - deyib and içəcəyik.. Çünki bundan gözəl and yoxdu dünyada. Mən də o anda sizə deyirəm:

**- Torpaq haqqı, sizi Tuğda gözləyəcəm!**

**ƏBÜLFƏT MƏDƏTOĞLU**



**Akif İmanlı,**
**Filologiya elmlər doktoru, professor AYB-nin üzvü**

# AZƏRBAYCANI SÖZÜN QÜDRƏTİYLƏ VƏSF EDƏN ŞAİR

**Ötən ilin sonlarında xoş bir təsadüfdən əslən Azərbaycanın gözəl, dilbər bölgəsi Masallıdan olan Rəsulovlar ailəsi ilə tanış oldum və bu tanışlıq dərin məmnunluq duyğuları ilə mənim yaddaşımda əks olundu. Ailənin başçısı Nizami Rəsulov çayçılıq texnologiyası üzrə mühəndis, xanımı isə pedaqoq, həm də şairdir. Bu yazı əlbəttə, xanım Rəsulova Təbrizə Hüseyn qızı haqqındadır. Təbrizə xanım 1960-cı ildə Azərbaycan Respublikası Astara rayonunun Siyəkaran kəndində anadan olmuşdur. 1986-cı ildə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunun ingilis-fransız dili fakültəsini uğurla bitirdikdən sonra Astara rayonunun Hamoşan və Törədi kəndlərində pedaqoji fəaliyyətə başlamışdır. 1986-cı ildə qabiliyyəti və ictimai fəaliyyəti nəzərə alınaraq Astara Rayon Komsomol Komitəsinin katibi vəzifəsinə təyin edilmişdir. 1992-ci il də daxil olmaqla həmin məsul işin öhdəsindən şərəflə gəlmişdir. Təbrizə xanım sonra yenidən pedaqoji fəaliyyətə qayıtmış, Kijəbə qəsəbə tam orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir. T.Rəsulovanın yüksək müəllimlik və ən ümdəsi idarəçilik qabiliyyətini duyan Astara Təhsil İdarəsinin rəhbərliyi 2006-cı ildə onu işlədiyi məktəbə direktor təyin etmişdir. Artıq iyirmi ildir ki, həmin vəzifədə çalışır. Onu ictimai fəallığına görə eyni zamanda yaşadığı qəsəbənin bələdiyyə üzvü seçmişlər.**

Təbrizə xanım həm də şair kimi tanınır. Onun "Sevgimin ünvanı" adlı ilk kitabı 2013-cü ildə nəşr edilib. "Bizi bağışla, Allahım" və "Bəlkə də dünyanı səhv qurmuşuq biz..." kitabları isə 2016-cı ildə işıq üzü görüb.

Təbrizə xanım Pünhan təxəllüsü ilə şeirlər yazır. Nə üçün Pünhan? Bu suala "Bəlkə də dünyanı səhv qurmuşuq biz..." kitabına "Sadə, səmimi, təbii..." başlıqlı önsöz yazmış görkəmli tənqidçi, filologiya elmləri doktoru, professor Vaqif Yusifli belə aydınlıq gətirir: "Təbrizə xanımın təxəllüsü Pünhandır. Mən deyə bilmərəm niyə bu təxəllüsü özünə seçib? Şeirlərini oxuyandan sonra gördüm ki, bu şeirlərdə gizlin, pünhan bir nöqtə yoxdur. Bəlkə ona görə seçib ki, ürəyinin gizlinlərini şeir dili ilə ifadə etsin". Pünhan təxəllüsünə Təbrizə xanımın hər iki kitabının redaktoru və naşiri Musa Ələkbərli də münasibət bildirmişdir. M.Ələkbərli "Bizi bağışla, Allahım" kitabına "Dərdin fövqündə dayanan şair" başlıqlı önsözdə qeyd edir: "İlərlə yazdığı şeirləri gizlətdiyindən "Pünhan" ləqəbini götürən Təbrizə xanım ancaq xeyirxah bir adamının - yazıçı- publisist Xudaverdi Cavadovun təkidi və köməkliyi ilə öz ilk kitabını şeirsevərlərə ünvanlaya bilmişdir".

Yeri gəlmişkən xatırladım ki, aşıq və aşiq Molla Cuma da (Cuma Saleh oğlu Orucov) şeirlərini sevgilisi "İsmi Pünhan"a ünvanlamışdır. "İsmi Pünhan"ın əsil adı Mürəstə olmuşdur. Şəkinin Göynük kəndində yaşamış, gənc yaşlarında vəfat etmisdir.

Təbrizə Pünhanın şeirləri ilə tanış olduqca adamın gözü qarşısında böyük bir ümman, əhatəli bir aləm canlanır. Burada nələr yoxdur? Hər şeydən öncə, şeirlərdə doğma, gözəl vətənimiz Azərbaycan var. Azərbaycan əzəmətli varlığı ilə şeirlərə hopub, şair qəlbinin hərarəti ilə, böyük sevgi və məhəbbətlə vəsf olunub:

*Günəş gözlü Azərbaycan,*
*Gül nəfəsli bir diyarsan.*
*Səndən ötrü can verərəm,*
*Çünki buna sən dəyərsən.*

Təbrizə xanım şeirləri ilə xalq ruhunu özündə əks etdirməklə yanaşı, insanın mənəvi zənginliyini də önə çəkir. Onun şeirlərində insan taleyinə münasibət dövrün ictimai mühiti ilə əlaqəli şəkildə verilir ki, bu da şeirlərinin sosial-fəlsəfi mahiyyətini dolğunlaşdırır. Şeirlərdə ictimai mühitdə baş verən ümid və ümidsizlik, ağrı, kədər, sevinc və fərəh kimi duyğusal düşüncələr də müəllif diqqətindən kənarda qalmamısdır. Təbrizə Pünhanın şeirlərində şair kədəri ümidsizliyin kədəri, şair etirazı sosial mühitdəki ədalətsizliyin kədəridir. Bu kədər vətən qarşısındakı vətəndaş borcunu yerinə yetirmək istəməyənin, nankorun kədəridir... Bir sözlə, bu kədər, belə sıxıntı ictimai-fəlsəfi mahiyyətlidir. Şairin bir kədəri, bir dərdi də eyni millətin, qan qardaşlarının ayrılığıdır:

*Tale bir milləti çəkdi sınağa,*
*Qardaşı qardaşdan saldı uzağa.*
*Yaxına getməyə vardır qadağa,*
*Qalmışam yox ilə var arasında.*

Vətənə bağlılıq, cəsarət, mərdanəlik əlbəttə, soydan, qandan gəlir və belə olmasa vətənpərvərlik anlayışı söz olaraq qalar. Vətən isə hər bir insan üçün doğulduğu evin astanasından başlayır və mənsub olduğu, vətəndaşı olduğu dövlətin ərazisini bütövlükdə əhatə edir. Bu vətən bütün vətəndaşlarımız üçün Azərbaycandır. Bu fikirlər şair Təbrizə Pünhanın şeirlərini oxuduqca aydın görünür. Milli kimliyindən asılı olmayaraq öz övladlarına - vətəndaşlarına qucaq açan Azərbaycan hamımızın əziz vətənidir. Odur ki, şair Azərbaycanı vəsf etməkdən doymur:

*Götürün çiynimdən bu ağırlığı,*
*Məndə qaldırmağa bir qüvvə varmı?*
*Tutub əllərində döyüş bayrağı,*
*Onu vəsf etməyə gücüm çatarmı?*

*...Bu böyük, bu ülvi Azərbaycanı,*
*Sözün qüdrətiylə vəsf etməliyəm.*
*Məndə cəsarət, o hünər varmı?*
*Gör hansı yolları mən getməliyəm.*

Təbrizə xanımın şeirlərini oxuduqca Böyük Mövlananın - dahi Cəlaləddin Ruminin bu fikrini xatırlamalı oluruq: "Gözəl düşünən gözəl görər". Təbrizə xanım Pünhanın şeirləri məhz gözəl düşüncənin, hər şeydə gözəllik axtaran, gözəlliyə vurğun, kövrək qəlbli bir şairin ürək sözləri kimi təzahür edir. Heç də təsadüfi deyil ki, Təbrizə Pünhan "Bəlkə də dünyanı səhv qurmuşuq biz..." kitabında bir bölməni "Dünyanı gözəllik xilas edəcək..." başlığı altında təqdim etmişdir. Əlbəttə, gözəllik ən yüksək ülvi məziyyətli hadisələri səciyyələndirən estetik kateqoriyadır. Mütəfəkkirlər gözəlliyi əxlaqi xeyirxahlığın simvolu adlandırmışlar. Gözəlliyin ən yüksək təcəssümü ahəngdar və hərtərəfli inkişaf etmiş insan olmalıdır ki, dünyanı xilas edə bilsin. Ona görə də qədim yunan filosoflarından üzü bəri gələn "Dünyanı gözəllik xilas edəcək" fikri bir çox yaradıcı edibdə, o baxımdan F.M.Dostoyevskidə daha qabarıq şəkildə görünür. Bu fikrə əlavələr də olmuşdur. Fransız yazıçısı Antuan de Sent-Ekzüperi dünyanı səmiyyətin qurtaracağına ümid edirdi: "Dünyanı səmimiyyət xilas edəcəkdir".

Gözəllik bir estetik anlayış kimi mədəniyyət (kültür) kateqoriyasına daxildir. Səhv etmirəmsə, Mədəniyyət terminini ilk dəfə 1767-ci ildə Şotlandiya filosofu A.Fergünson işlətmişdir. Alimlərin hesablamalarına görə mədəniyyətin 259 tərifi vardır. Bu o deməkdir ki, insan və onu əhatə edən cəmiyyət 259 cəhətdən mədəniləşə bilsə, müharibələrə, dağıntılara hər cür neqativ hallara rast gəlinməz, mədəni bir mühit formalaşır.

Böyük Mustafa Kamal Atatürk də mədəniyyətə yüksək qiymət verərək deyirdi: "Ey millət, bilin ki, Türkiyə Cümhuriyyəti şeyxlər, dərvişlər, müridlər və məczublar (dəli, divanə) məmləkəti ola bilməz. Ən doğru, ən həqiqi təriqət mədəniyyət təriqətidir".

Təəssüf ki, hər şeyin kalı yetişir, insanın isə kalı yetişmir. Ona görə də gözəllik, səmimiyyət, mədəniyyət kimi ifadələr insanın xoş arzusu olaraq qalır. Əlbəttə, təbiət və ictimai həyat hadisələri gözəllikdən xali deyildir.

İnsanın yaradıcı əməyi də gözəllik xassəsinə malikdir. İnsan fəaliyyətində gözəllik məqsədəuyğunluq və kamilliyin təzahürü kimi həmişə özünü göstərir. Təbiət və insana məxsus gözəlliyi əks etdirmək bədii ədəbiyyatın mühüm estetik xüsusiyyətidir. Böyük rus yazıçısı A.P.Çexov yazırdı: "İnsanın hər şeyi gözəl olmalıdır, üzü də, paltarı da, qəlbi də, fikri də".

Bir sözlə, gözəllik insanları mənəvi cəhətdən zənginləşdirir. Gözəllik insanları müdrikləşdirir, kamilləşdirir, həyata və qəhrəmanlığa səsləyir. Dünyanı gözəllik xilas edəcəkdir, - deyənlər haqlıdırlar" (Əli Saləddin).

Şairlər gözəlliyi duymaqda, onu qiymətləndirməkdə bizə, yəni oxuculara kömək edirlər; hətta sevməkdə də. Yenə də Cəlaləddin Ruminin sözü yada düşür: "Sevilən kimsə, nəsə gözəldir". Vətən sevildiyinə görə gözəldir.

Alimlərimizdən rəhmətlik Məsud Əlioğlunun da gözəllik haqqında qiymətli fikri vardır. Nəzərdən keçirək: "Ürək yandığı, beyin qandığı, insan inandığı, eşq canlandığı anda gözəldir".

Təbrizə Pünhanın "Sərhəd" adlı bir şeiri var. Şair həmin şeirdə yazır:

*Dövlətdə, qonşuda, insanda sərhəd,*
*Görəsən haraya qədərdi bu hədd?*

Bu misralar mənə Əmir Teymirla bağlı bir əhvalatı xatırlatdı: Əmir Teymur öz ordusunu düşmən üzərinə apararkən ölkəsinin sərhədlərinin bir yerində qoşunu saxlayır. Hər bir əsgərə bir daş götürüb onun göstərdiyi yerə qoymağa əmr edir. Beləliklə, həmin daşlardan böyük bir təpə əmələ gəlir. Qoşun geri dönərkən də orada dayanır və Əmir Teymur yeni bir əmr verir ki, hər kəs öz daşını götürsün. Bu zaman yerdə ancaq şəhid əsgərlərin daşı qalır. Əmir Teymur şəhid daşlarını qucaqlayaraq hönkür-hönkür ağlayır, sonra üzünü əsgərlərinə tutaraq deyir: "Bura yurdun ən müqəddəs yeri-şəhidlərimizdən vətən daşları qalan guşədir. Buradan içəri düşmən keçməməlidir".

Şair Təbrizə Pünhan da şəhidlərə şeirlər həsr edib. Aprel döyüşlərində şəhid olmuş, Milli Ordumuzun giziri Astara rayonunun Əzərüd kənd sakini Pəncəli Teymurova "Aslan Pəncəli" adlı şeir ithaf etmişdir. On bir bəndlik şeir yüksək vətənpərvərlik əşqi ilə yazılmışdır. Şair şəhidlərimizi Vətənin ən qeyrətli oğulları adlandırır:

*Vətənə qeyrətli oğul gərəkdir,*
*Torpaq vətən olmaz, şəhid olmasa.*
*Demirəm öz oğlum dünyada təkdir,*
*Şərəflə ölübsə, batmaram yasa.*

Xalqın milli şüurunun formalaşmasını şərtləndirən ən mühüm amillərdən biri ədəbi nümunələrdir. Bədii ədəbiyyatın tərbiyəvi əhəmiyyətini danmaq olmaz. Böyük rus tənqidçisi V.Q.Belinski bu barədə deyirdi ki: "Ədəbiyyat və tərbiyə - bu iki məfhumu günəş və işıq, həyat və fəaliyyət məfhumları kimi bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir". Bu mənada Təbrizə Pünhanın şeirləri tərbiyəvi mahiyyəti ilə bədii ədəbiyyatın tələblərini müəyyən mənada ödəyir.

Sözümün sonunda şair Təbrizə Pünhana möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq nailiyyətləri diləyirəm.

## Əfqanıstanda 17 milyon insan kəskin aclıqla üz-üzədir

**Qışın sərtləşməsi və beynəlxalq humanitar yardımın kəskin azalması Əfqanıstanda aclıq böhranını daha da ağırlaşdırıb.**

Adalet.az xəbər verir ki, "Reuters" agentliyinin məlumatına görə, paytaxt Kabulun kənarında qurulmuş çadırlarda yaşayan ailələr gün ərzində yalnız qurudulmuş çörək və çayla kifayətlənməyə məcbur qalırlar. İrandan və Pakistandan deportasiya edilən milyonlarla əfqan ailəsi müharibədən çıxmış ölkəyə qayıtdıqdan sonra ciddi sosial-iqtisadi çətinliklərlə üzləşib.

55 yaşlı Samiullah bildirib ki, ailəsi artıq ölümlə barışacaq həddə çatıb. Onun sözlərinə görə, qayıdışdan sonra bütün yığımları itirilib və qış aylarını keçirmək üçün imkanları qalmayıb.

BMT-nin Ümumdünya Ərzaq Proqramının (WFP) hesablamalarına əsasən, hazırda Əfqanıstanda 17 milyon insan kəskin aclıqla üzüzədir.

WFP-nin ölkə üzrə direktoru Con Ayliff qeyd edib ki, qış mövsümündə iş imkanlarının azalması və geri qayıdan əfqanların sayının artması vəziyyəti daha da çətinləşdirib. Onun sözlərinə görə, İrandan və Pakistandan göndərilən pul köçürmələri əvvəllər bir çox ailələr üçün əsas dolanışıq mənbəyi idi, lakin deportasiyalar bu axını kəsib. Nəticədə daha 3 milyon insan aclıq riski ilə qarşı-qarşıya qalıb.

Agentlik yazır ki, ABŞ-də Donald Trampın yenidən prezident postuna qayıtmasından sonra qlobal humanitar proqramlara ayrılan vəsaitlərin azaldılması WFP kimi təşkilatların imkanlarını xeyli zəiflədib. Digər donor ölkələrin də maliyyəni ixtisar etməsi milyonlarla insanı risk altında qoyur.

WFP-nin məlumatına görə, ötən il Əfqanıstanda tarixdə qeydə alınan ən böyük qidalanma böhranı yaşanıb və 2026-cı ildə daha 200 min uşağın kəskin qida çatışmazlığı ilə üzləşəcəyi proqnozlaşdırılır.

Qeyd edilir ki, klinikalarda uşaqların sayı artıb, lakin tibbi əlavələr və ərzaq yardımı ailələrin uzunmüddətli ehtiyaclarını ödəmək üçün kifayət etmir. Bir çox ailələr əvvəl aldıqları yardım kəsildikdən sonra yenidən yoxsulluğa sürüklənib.

"Reuters" xatırladır ki, 2021-ci ildə beynəlxalq qüvvələrin çıxarılmasından və Talibanın hakimiyyətə qayıdışından sonra Əfqanıstan dərin iqtisadi və humanitar böhran içindədir. Qışın gəlişi ilə minlərlə ailə üçün vəziyyət daha da dözülməz hal alıb

## 500 manatlıq əsginası olanların nəzərinə

**Mərkəzi Bank 500 manat nominallı xatirə kağız pul nişanının ödəniş terminalı tərəfindən qəbul edilməməsinə münasibət bildirib.**

Adalet.az xəbər verir ki, bu barədə BAKU.WS-in sorğusuna cavab olaraq Mərkəzi Bankın mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, 500 manat nominallı xatirə kağız pul nişanı Mərkəzi Bank tərəfindən 44 günlük Vətən Müharibəsində müzəffər Ali Baş Komandanın başçılığı altında rəşadətli ordumuzun tarixi Zəfərinin əbədiləşdirilməsi məqsədilə 2021-ci ildə tədavülə buraxılıb.

"Mərkəzi Bank tərəfindən tədavülə buraxılan yubiley və xatirə pul nişanları əlamətdar hadisələrə, tarixi şəxsiyyətlərə, milli mədəni irsin qorunmasına və s. mövzulara həsr olunmaqla əsas xarakteri müvafiq mövzuların əbədiləşdirilməsi, maarifləndirmə, numizmatikanın və bonistikanın inkişafı, eləcə də ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsindən ibarətdir. Bu pul nişanları tədavülə məhdud sayda buraxılır və dövriyyə məqsədi daşımadığı üçün gündəlik tranzaksiyalarda, nağd pul ödənişlərində geniş istifadə üçün nəzərdə tutulmur".

AMB-nin məlumatına görə, bu səbəbdən ölkə ərazisində istismar olunan nağd pul terminallarında (cash-in terminalı) yubiley və xatirə pul nişanlarının qəbulu və tanınması həyata keçirilmir. Belə terminallarda əsasən tədavül pulları qəbul edilir:

"Yubiley və xatirə pul nişanları öz nominal dəyəri ilə ödəniş və mübadilə vasitəsi, eləcə də yığım vasitəsi kimi funksiyaları özündə saxlayır. Bu pul nişanlarına maraq və tələb yüksək olduğu üçün vətəndaşlar öz istəklərinə uyğun olaraq onların təkrar bazarda realizasiyasını həyata keçirə bilər və bununla bağlı hər hansı çətinlik hallarına rast gəlinmir".

"Bununla yanaşı, beynəlxalq təcrübədə yüksək nominallı pul nişanlarının "cash-in" terminallarda qəbul edilməməsi təcrübəsi geniş tətbiq olunur ki, burada əsas məqsəd saxtalaşdırmaya və çirkli pulların yuyulmasına qarşı mübarizə, eləcə də xidmət effektivliyidir", - deyə açıqlamada qeyd olunub.

## *"Bu isə qadının fərdi azadlığının sistemli şəkildə məhdudlaşdırılması deməkdir"*

**"Azərbaycan reallığında zorakılıq tiplərinin təhlili bir neçə mühüm məqamı üzə çıxarır. Bir tərəfdən, impulsiv-aqressiv tip geniş yayılmışdır və xüsusilə maddi sıxıntılar, işsizlik və alkoqol istifadəsi ilə əlaqəlidir. Digər tərəfdən, sosiopatik-antisosial tip azlıq təşkil etsə də, yüksək risk daşıyır, çünki bu qrup empatiya hissindən məhrum, cinayətkar davranışa meylli və ən az reabilitasiya olunan kateqoriyadır".**

Bunu Adalet.az-a açıqlamasında "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib.



Onun sözlərinə görə, passiv-aqressiv tip açıq zorakılıq əvəzinə dolayı cəza üsullarına üstünlük verərək qadınlarda uzunmüddətli psixoloji travma yaradır:

"İkili şəxsiyyətli tip isə ictimaiyyət qarşısında müsbət imic saxlayaraq ev daxilində qəfil zorakılıq nümayiş etdirir, bu isə onun aşkarlanmasını və qadının müdafiəsini xeyli çətinləşdirir. Lakin aparılan elmi araşdırmaların və yerli müşahidələrin nəticələri göstərir ki, ən aktual və geniş yayılmış zorakılıq tipi-nəzarətçi-dominant tipdir. Bu tip zorakı kişilər qadının həyatının bütün aspektlərini-geyimindən tutmuş sosial əlaqələrinə, hərəkət azadlığından maliyyə imkanlarına qədər məhdudlaşdırmağa çalışır. Zorakılıq burada yalnız fiziki güc tətbiqi ilə məhdudlaşmır, daha çox psixoloji nəzarət, sosial izolyasiya və iqtisadi asılılıq formasına təzahür edir. Bu isə qadının fərdi azadlığının sistemli şəkildə məhdudlaşdırılması deməkdir".

M.Zeynalova bildirib ki, nəticə etibarilə Azərbaycan reallığında zorakılıqla mübarizə strategiyaları yalnız impulsiv zorakılıq aktları deyil:

"Həm də nəzarətçi-dominant tipin strukturlaşdırılmış və mədəniyyətlə əsaslandırılmış davranış modelini hədəf almalıdır.

Bu məqsədlə reabilitasiya proqramları sadəcə qəzəbin idarə etməsinə deyil, həm də patriarxal düşüncə tərzinin dəyişməsinə, gender bərabərliyi dəyərlərinin mənimsənilməsinə və empatiya bacarıqlarının inkişafına yönəlmlidir.

Yalnız bu halda zorakılığın təkrar olması zəiflədilə və qadınların hüquqlarının təmin olunması istiqamətində dayanıqlı nəticələr əldə edilə bilər".

**Vasif ƏLİHÜSEYN**

**Fazil ŞƏNAN**

# OLANLAR SİLİNƏSİ DEYİL



"O kənd bizim kənddi...

Gəncədən xeyli uzaqda bir kənd var. Yolları dolanbac, saysız cığırları, buz bulaqları... Dağ başındadı o kənd. Hər iki tərəfində şığıyıb üzü aşağı Kür çayına qovuşmağa tələsən Böyükkürək, Balakürək çaylarıdır. İlin bütün fəsillərində gözəldi bu kənd. Baharına, yazına da heç söz ola bilməz. Xalı kimi hörülmüş çəmənlikləri, sayı bəlkə də minlərlə olan dağ çiçəkləri adamı heyran etməyə bilmir. Hamısı bizlər üçün, bizim üçün İlahi tərəfindən bəxş olunmuş əvəzi olmayan sərvətlərdi...

Payızında meyvələrin dadından və ətrindən heç doymaq olmur. Davasız, dərmansız, bol vitaminli meyvələr... Qışda da ağ örpəyə bürünür bu kənd. Gözlər lazım olur ki, bu gözəlliklərə baxıb zövq alsın...

Bəli, Todandı o kənd. Məğrur, yenilməz Todan!"

Bu misralar Tofiq Əmrahın "Görüş" (Gəncə-2025) adlı kitabında "Bəzəkli corab" adlı hekayəsindəndir.

Sənətimlə bağlı bir çox ədəbi nümunələrlə tanışlığım var. Düzünü deyim ki, doğma kəndini bu cür təqdim etməyə - təsvir olunmasına çox az rast gəlmişəm.

Belə bir təsvirlə Abdulla Şaiqin "Köç" adlı hekayəsində qarşılaşmaq olar. Vaxtı ilə orta məktəbin dərsliyində A.Şaiqin "Köç" hekayəsinin öyrədilməsini yaşlı nəsil xatırlamamış olmaz.

Hər iki hekayənin doğma yerlərin təsvirində müəllif real və canlı təsvirləri ilə oxucu yaddaşında unudulmaz iz buraxmaqla vətənə məhəbbət hissi aşılayırlar.

Biz yuxarıda iki müəllifin adını çəkdik. Onlardan biri ədəbiyyatda özünəməxsus yeri olan Abdulla Şaiqdir, digəri isə ədəbi aləmdə yetərincə tanınmayan Tofiq Əmrahdır. Kimdir Tofiq Əmrah?

Suala cavab vermək üçün oxucu üçün müəllif barədə bəzi məqamlara işıq salmağa çalışacağıq. Tofiq Əmrah Todanda dünyaya göz açıb və orada böyüyüb. Uşaqlıq və ilk gənclik illərini həmin kənddə başa vurub.

Həyatın keşməkeşli yollarında çətinlikdən keçərək nankor qonşularımızın Azərbaycana qarşı torpaq iddiaları ilə bağlı başladıqları savaşla həyatının yeni bir səhifəsinə qədəm qoyur Tofiq Əmrah.

Birinci Qarabağ savaşında ermənilər yaşayan kəndlərin əhatəsində olan Todanın qara günləri başlayır. Başqa bölgələrdə olduğu kimi Tofiq Əmrah da kənd sakinlərindən könüllülər batalyonu yaradaraq özü də komandir olur. Bununla da Tofiq Əmrahın səngər həyatı, döyüş yolu başlayır.

Quş tüfəngi ilə silahlanmış todanlılar müasir silahlarla təchiz olmuş erməni əsgərlərinə qarşı sinə gərmli olurlar.

Maraqlıdır ki, "əliyalın" vəziyyətdə düşmənə qarşı vuruşan Todan könüllüləri dəfələrlə kəndə girən düşməni kənddən çıxarırlar. Hərbi biliyə malik olan Tofiq Əmrahın hərbi taktikası ilə bərabər, Todan könüllülərinin də ürəklərində doğma kəndə sonsuz məhəbbət hissinin olması idi. Mən Tofiq Əmrahın Todanın müdafiəsi zamanı göstərdiyi qəhrəmanlıqlar haqqında, başqa yoldaşlardan çox eşitmişəm. Tofiq Əmrahın ömür yolunu şərti iki hissəyə bölmək olar. Soyuq səngərlərdən və döyüş yolundan başlayan Tofiq Əmrah ömrünün son dayanacağı yazı masasının arxası olur.

Deyir tarix təkrar olur, fikrinin reallığını xalq yazıçıları Əbülhəsənin, İsmayıl Şıxlının, Süleyman Vəliyevin, Məmməd Aranlının və başqa qələm adamlarının, 1941-1945-ci il müharibəsi zamanı keçdikləri ömür yolunu XX əsrin son on illiyində Tofiq Əmrahın yaşaması arasında nə qədər yaxınlıq və oxşarlıq var?

Yazıçı fantaziyası nə qədər güclü olsa belə adlarını çəkdiyimiz yazıçıların müharibə mövzusunda yazdıqları əsərləri əvəzləyə bilməz. Çünki hadisələrin iştirakçısı olan qələm adamları həmin hadisələri canlı olaraq yaşayıblar. Tofiq Əmrah kimi.

Səngərdən başlanan ömür yolunun dayanacağını yazı masasının arxasında tapan Tofiq Əmrahın şahidi olduğu səngər ağrılarını heç cür həyəcansız oxumaq mümkün deyil. Həmin yazılar yaxın keçmişimizin bədii səlnaməsidir.

Oxucu, indi üz tutaq Tofiq Əmrahın yaradıcılığına. Görək Tofiq Əmrah gördüyü və yaşadığı hadisələri biz oxuculara necə çatdırır.

***

Tofiq Əmrahın yaradıcılıq nümunələrində müharibə (vətənpərvərlik) mövzusu aparıcı xətdir. Müharibə mövzusunda qələmə alınmış yazılar hekayə, gündəlik, xatirə, oçerk və s. formasında olmasına baxmayaraq hamısı bir xətt ətrafında birləşir. Həmin xətt müəllifin canlı şahidi və iştirakçısı olduğu müharibə mövzusudur.

"Ömür yolu" (Gəncə-2025) kitabında "Şəhidimiz, qorxmazımız... və Qana boyanmış çörək" yazısını hekayə və yaxud xatirə hekayə adlandırmaq olar.

Sənədli xatirə-hekayə olan yazıda müəllif Siyasət xanımın obrazında Azərbaycan qadınının qorxmazlığını təbii, rəngsiz boyalarla verməsi istər-istəməz oxucu rəğbətinə səbəb olur.

Biz burada real obrazla necə varsa o formada tanışlığımızın əsas səbəbi yazıçı qələminin reallıqdan qidalanmasıdır.

24 may 1992-ci il. Todan hər tərəfdən mühasirəyə alınıbdır. Düşmənin fikri qətidir, kəndə girmək. Kənd əhli təşviş içərisindədir. Hər tərəfdən düşmən güllləsi yağır kəndə. Ana qızına deyir ki, un gətir, su gətir. Qızı təəccüb içərisində "Ana, vəziyyəti görmürsən, nə etmək istəyirsən?" - deyir.

"Xəmir yoğuracağam qızım" - deyən ana, qızı ilə razılaşmır. Xəmir qatır. Bu məqamda həyat yoldaşı Qəşəm və qardaşı Cabbar da gəlir.

Qəşəmlə Cabbarın təkidinə baxmayaraq Siyasət kənddən çıxmır və deyir:

- Yox, qardaş, heç hara gedən deyiləm. Siz vuruşun, ürəklə vuruşun ki, burada bacınız (həyat yoldaşınız) var.

Komandir Tofiq müəllim desə ki, çıxın kənddən, onda çıxaram. Bilərəm ki, artıq kənd düşmənə təslim olur, - deyə cavab verir.

Siyasət təndirə od salır. Çörəyin birini çıxardır. İkinci çörəyi çıxardanda düşmənin atdığı top gülləsi Siyasətlə birgə bişirilmiş çörəyi də qana bulayır.

Todanın ilk şəhid qadını olan Siyasət qorxmazlığı ilə gələcək nəslə bir nümunə olur. Bu gün vətənin bütövlüyü uğrunda canlarından keçən oğulları Siyasət kimi analar dünyaya gətirib və həmin igidlərə döşlərindən südlə birgə vətənpərvərlik şirəsi, məhəbbəti əmizdirib.

"Burada bir igid yatır" yazısı da sənədli hekayə üslubundadır. "Azğınlaşmış düşmənin düşmən mərmilərinin səsinə oyanan todanlıların ilk oyanıb silaha sarılanı da o oldu, ilk komanda verəni də mən" deyən müəllif təzəcə nişanlanan Şubay 12 iyun 1991-ci ildə doğma torpaqların müdafiəsinə qalxır. Düşmən qarşısına ov tüfəngi ilə çıxan igidlərin düşmənin iriçaplı pulemyotu ilə qayıdanlar arasında igid Şubay da var idi.

18 fevral 1992-ci ildə düşmənin Məişli kəndindən təmizlənməsi əməliyyatı zamanı igid Şubay düşmən gülləsinə tuş gəlir.

Yazıçı qəhrəmanın şəhidliyinə ürək ağrısı ilə "Neçə-neçə arzuları yarımçıq qaldı, ata-anası göz yaşı tökdü. Nişan üzüyü yenicə barmağına taxılmış Todan gözəli, başına qara yaylıq bağladı", - deyərək, ürək parçalayan söylədiyi ağıya istər-istəməz oxucusunu da şərik edir. Haqlıdır yazıçı, oxucunu öz dərdinə şərik etməkdə. Çünki oxucunun bu gün sağ-salamat qalması və torpağının bütövlüyü ilə fəxr etməsinin səbəbkarı arzuları yarımçıq qalan Şubayların şəhidliyin ali məqamına ucalması hesabınadır.

Müəllifin yazılarında bir məsələni vurğulamaq lazımdır. Sənədli yazıların qəhrəmanlarının "Şəhidimiz, qorxmazımız və ya Qana boyanmış çörək" də şəhid olmuş Siyasətin və "Burada bir şəhid yatır" da isə şəhid Şubayın şəkillərinin verilməsi oxucu yaddaşında silinməz bir iz buraxır.

"Satqın", "Tərkisilah" və "Erməni ki, erməni" yazıları ideya baxımından bir xətt ətrafında birləşir. Belə ki, "Satqın"da çavuş Şahbazovun ayıqlığı sayəsində satqın ifşa olunur. "Tərkisilah"da döyüş yoldaşlarının arxadan vurulmasından serjant Nəbiyevin şübhələnməsinə səbəb olur və öz-özünə düşünür: "Az bir vaxtda əsgər yoldaşlarımın arxadan vurulması ancaq düşmən işi ola bilər", - fikrini qətiləşdirən serjant Nəbiyevin ayıq-sayıq olmağına təşviq edir. Serjantın ağıllı və cəsarəti nəticəsində özlərini azərbaycanlı əsgər kimi göstərən erməni əsgərləri komandirlə dialoq nəticəsində ifşa olunurlar. Müəllif erməni xislətini "Erməni ki, erməni" adlı kiçik bir yazısında yığcam və maraqlı formada oxucuya çatdırır.

Hadisə 1941-1945-ci il müharibəsi zamanı Mazdok uğrunda gedən döyüşlər zamanı baş verir. Döyüşən əsgərlər arasında Nikol adında bir erməni əsgəri də var. Azərbaycanlı əsgərin erməni Nikoldan gözü su içmir.

Döyüş zamanı komandir rus balası müvəqqəti fasilə əmri verir. Bu zaman hərə özünə səngər qazır, başqa üsullar axtarır. Erməni Nikol azərbaycanlı əsgər yoldaşına yaxınlaşaraq yaxınlıqdakı qamışlığı göstərib deyir: "Ara kirva, gəl buradan qaçaq. Ara, məzhəb haqqı nemes hamımızı qıracaq".

Mən sərt halda dedim: "Ə erməni, dəli olmusan, qaçmaq nədir? Kişi də qorxaq olar? Kişi də düşmən qabağından qaçar?"

Bu söhbətdən sonra erməni azərbaycanlı dostundan kənar gəzir. Atəşin müvəqqəti dayandığı zamanda qamışlıqdan xışıltı səsi gəlir. Komandir cəld qamışlığa tərəf sürünür və özlüyündə düşünür ki, bu yaxşı oldu. Ərzaq da çatışmır. Dəqiq qabandır fikri ilə atəş açır və əsgərlərə deyir ki, gedin qabanı gətirin.

Göndərilən əsgərlərin içərisində erməninin "dostu" azərbaycanlı da var idi. Qamışlığın içərisinə gedən əsgərlər nə görsələr yaxşıdır. Erməni Nikolun bədəni deşik-deşik olubdu.

Müəllif hadisənin keçmişdə baş verməsi ilə ermənininin tarixən qorxaq olduğunu vurğulayır. Nikolun ölüm səhnəsi kinayə qarışıq gülüş doğurur. Ermənininin qorxaqlığı ilə çox sevdiyi heyvanın qamışlıq və bataqlıqda ölməsi bir-birini tamamlayır.

Müəllif kiçik həcmli yazıda erməni xarakterini verməklə, bir məsələni oxucu diqqətinə çatdırmaq istəyir. Erməni heç vaxt Azərbaycan torpağını işğal edə bilməzdi, din qardaşlarının köməyi olmadan. Tarix kimin kim olduğunu bir daha göstərdi.

"Bu Todandır" essesi müəllifin lirik duyğularının tərcümanıdır. "Mənim görünməyən qanadlarımdı Todan. Bu qanadların böyüklüyü də, əzmi də ruhumun qidasıdır" misraları arxasında iki Tofiq Əmrah görünür. Biri cavan doğulub boya-başa çatdığı Todan uğrunda gəncliyini, sağlamlığını qurban vermiş Tofiq Əmrah. Budur vətəni sevmək! Budur ata yurdunu qorumaq! Budur canı, qanı bahasına düşmənin yerində oturtmaq.

İllər öz işini görüb. Yaş üstə yaş gəlib. "Qocalıq da ömrün hikmətidir, həyatın hədiyyəsidir" fikri ilə Todana yol alan Tofiq Əmrah doğmaların, tanıdıqlarının çoxunun həyatda olmadığını, qapıların çoxunun bağlı, həyət-bacanın ot-əncər basmasını görən Tofiqin içindən bir ağrı keçir. O, o ağrını ancaq Tofiq özü duyur, özü hiss edir. Kövrəklikdən axan göz yaşları içinə axır və "Bir gün mən də olmayacağam... Yaşımı Todanımın ömrünə, yaşadıqlarımı tarixinə, cismimi torpağına qatacağam. Torpaq olacağam..." Todan olacağı fikrində dialektik qanunauyğunluğa işarə edən müəllif "Maddələr itmir, bir formadan digər formaya keçir" prizmasından çıxış edərək yenidən zühur edəcəyinə və "sağ qalacağını" deyir.... Sonda "Hə... Mən vətən olanda sizə Todandan və məndən çox danışacaqlar" söyləməsi ilə Tofiq Əmrahın Todan tarixində əbədi qalacağına əmindir. Müəllifin bu inamlı fikrinə biz də şərikik. Bunu Tofiq Əmrahın keçdiyi ömür yolu və yazdığı kitablar da deyir.

Hər bir yaradıcı adam kimi Tofiq Əmrahın da yaradıcılığında məhəbbət mövzusu ilə qarşılaşmalı olursan. "Yaralı sevgi", "Görüş", Elçilik" və s. hekayələri maraqlı məzmunları ilə diqqətçəkən hekayələrdir. Müəllifin iki "Görüş" hekayəsi var. Hekayənin biri məhəbbət mövzusundadır. Kamilla Sevil orta məktəb illərindən bir-birini sevir. Kamil hərbi xidmətdə olarkən Sevil məktub yazaraq onu başqasına verməklə istədiklərini bildirir. Məktuba "Muştuluğuna nə verim? Verirlər, get də" cavab yazması, ağrısını ömrü boyu yaşayan Kamil ömrün ahıl çağında Xan bağına yolu düşür. Xan bağı Kamilin mamırlanmış xatirələrinin oyanmasına və yenidən yaşamasına səbəb olur. Bir təsadüf nəticəsində Sevillə qarşılaşır. İllərin arxasından boylanan gənclik xatirələrini yenidən yaşayan sevgililər bir-birlərini tanısalar da yad adamlar kimi ayrılırlar.

Sevilin arxasınca boylanan Kamil vaxtı ilə etdiyi səhvlə baş-başa qalaraq daxili əzabın içərisində qıvrıldığı bir özünə məlumdur.

İkinci "Görüş" hekayəsi ata-oğul münasibətindən bəhs edir. Əliş kişi oğlunu kənardan da olsa görmək arzusu ilə evdən çıxır. Ata oğulun nankorluğuna baxmayaraq kənardan görüb təsəlli tapmaq arzusu ilə yeməkxanaya gedir ki, yemək yesin. Kənarda dostları ilə yeyib-içən oğul, dostlarına qocanı tanımadığını söyləməsi cəmiyyətdə qarşılaşdığımız faciədir. Yazıda övlad naxələfliyini ön xəttə çəkməklə müəllif bu ağrıya güzgü tutur. Həmin güzgüdə kimin özünü necə görməsi və aldığı tərbiyənin nəticəsi kimi özünü təsdiq edir.

"Yaralı sevgi"də təmiz məhəbbətlə nadanlığın, meşşan təbiətin qarşılaşması və Qismətlə Mehrinin gələcək xoşbəxtliyinin üstündən xətt çəkir.

"Sahibini gözləyən məzar" povesti də məhəbbət mövzusunda qələmə alınıb. Povestin əsas aparıcı surətləri Bənövşə ilə Aqil olsa da, baş verən hadisələr əsas Bənövşə ilə bağlıdır.

Bənövşənin Aqilə olan sonsuz sevgisi onu xoşbəxt görməkdir. Qurduqları ailə həyatı təmiz, saf məhəbbət üzərində boy atsa da, Bənövşənin içərisində həmişə bir bədbəxtlik şübhəsi dolaşmaqdadır.

Nahaq demirlər ki, insan ürəyi həssasdır. Bənövşənin həkimə düşməsi və ana ola bilməyəcəyi sözünü həkimdən eşidəndə, şübhələrinin doğruluğunun təsdiqini anlayır.

Bənövşənin təkidi ilə ayrılırlar. Ayrılmaqda məqsədi Aqili xoşbəxt, ata olacağını görmək arzusudur.

Bədbəxtlik yol yoldaşı olan Bənövşə ikinci dəfə ailə həyatı qursa da xoşbəxtlik üzünə həsrət qalır. Həyat yoldaşı ailəsini yoxlamaq üçün gedəndə avtoqəza zamanı həlak olur. Qızının dərdinə dözməyən ata-ana da dünyasını dəyişir. Tənha və kimsəsiz qalan Bənövşə özünə məzar yeri düzəltdirir və tez-tez gedib boş məzarı ziyarət edib göz yaşı tökür. Məsələni öyrənən qoca gözətçinin göz yaşlarını qurulaması ilə bədbəxt qadının bədbəxtçiliyinə şərik olmasıdır.

Son nəfəsdə Bənövşənin Aqillə olan söhbəti povestin kövrək notları olmaqla bərabər, Bənövşənin mənən zənginliyinin göstəricisidir.

Ölümündən sonra Nərgizin xatirə albomunu oxuması, Aqilin ona verilən kağızla tanışlığı oxucuda ümidverici işartının yaranmasıdır.

Cəmiyyətdə baş verən neqativ hadisələr yazıçı diqqətindən kənarda qalmır.

Sosial şəbəkədə və televiziyada teztez qarşılaşdığımız övladını atıb başqasına qoşulub qaçan anaların obrazını müəllif "Bəzəkli corab" hekayəsində məharətlə ümumiləşdirmişdir. Ananın nənə ümidinə qoyub getdiyi övladı üçün bəzəkli corab toxuması peşmançılıq hissinin göstəricisidir.

"Kirvə qızı" hekayəsində müəllif gərəksiz milli adət-ənənəyə qarşı çıxır. Kirvəlik adəti gələcək xoşbəxt bir ailənin qurulması qarşısında aşılmaz bir sədd kimi dayanır.

"Maraqlı görüş", "Dost tərifi", "Ana ürəyi" və s. hekayələr öz məzmununa görə yadda qalan hekayələrdir.

Uşaqları yaddan çıxartmayan baba Tofiq Əmrah balacalar üçün "Tülkü və Alabaş" adlı təmsil-hekayəsində Alabaşın timsalında vəfa, etibar və sadiqliyi göstərir.

Ümumiyyətlə, biz Tofiq Əmrahın səngərdən yazı masasına doğru uzanan yoluna qısa bir nəzər salmağa çalışdıq. Həm döyüşçü kimi, həm də qələm sahibi kimi oxucularla qısaca fikrimizi bölüşdük.

Tofiq Əmrah keçdiyiniz ömür yolu və qələmə aldığımız mövzular silinəsi deyil. Gələcək nəslin yaddaşında döyüşçü və yazıçı kimi qalacağınıza əmin ola bilərsiniz.

Qarşıya qoyduğumuz məqsədə necə nail olmağımızı tələbkar oxucular dəyərləndirəcəkdir.

**23.12.2025**

# Sənətlə ucalanlar

**Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının aktyoru , Azərbaycan Respublikasının əməkdar artisti Vidadi Həsən oğlu Rəcəblinin 60 illik yubileyidir.**

Naxçıvan teatrının sevilən və seçilən simalarından biri - Vidadi Rəcəbli 19 yanvar 1966-cı ildə Culfa ( indiki Babək rayonu) rayonunun Nəhəcir kəndində dünyaya göz aşıb. Uşaqlıqdan səhnəyə maraq göstərən Vidadi Rəcəbli gənclik illərində teatr sənətinə böyük həvəs göstərib , bu sevgi onu peşəkar səhnə yoluna gətirib çıxarıb. 1986-1988-ci illərdə Bakı Mədəni-Maarif Texnikumunun dram fakültəsində təhsil alan gənc aktyor burada aktyor və rejissor sənətinin incəliklərini öyrənib. O, Mirzəbala Məlikov və Fikrət Zəkiyev kimi tanınmış aktyor və rejissorların rəhbərliyi altında sənət dərsləri alaraq peşəkar səhnə məktəbi keçib.

Tələbəlik illərində teatrla sıx bağlı olan Vidadi Rəcəbli bir sıra tamaşalarda səhnəmizin görkəmli sənətkarları ilə tərəf müqabili olub. Xalq artistləri Səyavuş Aslan və Xuraman Hacıyeva kimi ustadlarla birgə səhnəyə çıxması onun yaradıcılıq yolunda mühüm mərhələ olub. Bu əməkdaşlıq gənc aktyorun peşəkarlığını daha da artırıb, tamaşaçılar qarşısında daha inamlı çıxış etməsinə şərait yaradıb. Bu gün Vidadi Rəcəbli Naxçıvan teatrının ən təcrübəli, zəhmətkeş aktyorlarından biri kimi tanınır.

Onun səhnədəki səmimiyyəti, sənətə bağlılığı və peşəkarlığı teatrsevərlərin yaddaşında silinməz iz buraxıb. 1997-ci ildə Naxçıvan televiziyasında diktor işləyib. Sözə, sənətə bağlı olan aktyor bədii yaradıcılıqla da məşğul olur. O,"Gerçəklik" şerlər və "Gerçəkliyin özüyəm" kitablarının müəllifidir. V. Rəcəbli 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, 2008-ci ildə isə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adlarına, 2010-cu ildə Prezident mükafatına layiq görülüb.

Aktyor müxtəlif illərdə teatr səhnəsində 70-dən çox irili -xırdalı obrazlar canlandırıb. O, dram, musiqili dram, komediya, musiqili komediya, tragikomediya, faciə, alleqoriya janrlarında bir çox obrazlar silsiləsi yaradıb. Belə ki, Ü.Hacıbəyovun "Arşın mal alan"ında Süleyman, H.Cavidin "Topal Teymur"unda Sabutay, İ.Əfəndiyevin "Hökmdar və qızı "nda Saday bəy, Elçinin "Mənim ərim dəlidir"də Dost, "Mənim sevimli dəlim"də Panteleymon Polikarpoviç, İ.Məlikzadənin "Gəl qohum olaq"ında Qarakişi, C.Məmmədquluzadənin "Qurbanəli bəy"ində Aşpaz Əli, N.Nərimanovun "Nadir şah"ında Cəfər xan, N.Həsənzadənin "Atabəylər"ində Əbubəkir, Mahmud, Ayəba,"Pompeyin Qafqaza yürüşü"ndə Qasid, M.F.Axundovun "Lənkəran xanının vəziri"ndə Heydər, Hidayət Orucovun "Bu dünyanın adamları"nda Sarvan Qaradağlı, C.Məmmədquluzadənin "Dəli yığıncağı"nda Farmasion Rüstəm, Mir Cəlalın "Dirilən adam"ında Sultanəli, H.Cavidin "İblis"ində Ərəb



zabiti, M.S.Ordubadinin "Beş manatlıq gəlin"ində Qiyas,Kəbleyi Hüseynəli, Ə.Əsgərovun "Qız atası"nda Vilayət, R.Əhmədzadənin "Hələlik"ində Qorxmazov, İ.Əfəndiyevin "Şeyx Xiyabani"sində Hacı Fərhad, V.Qubarevin "Sehrli yaylıq" tamaşasında Pişikdiş, Həmid Arzulunun "Əlincə qalası"nda Əhəd, Hüseyn Cavidin "Səyavuş"unda Tus, Yalçın, Elçinin "Ah, Paris...Paris"ində Eynsteyn, Şəmil Sadıqın "Qana qan qarışdı"sında Beyrək, Adil Babayevin " Yarımçıq şəkil"ində Vaso, İsi Məlikzadənin " Hərənin öz ulduzu"nda Əlibala, Həsən Elsevərin "Koroğlu nəsli"ndə Bağır, Səməd Vurğunun "Fərhad və Şirin"ində Topal, Həsənalı Eyvazlının " Araz sahilində doğan günəş"ində Veysəl Ünivar, Elman Həbibin "Sahilsiz çaylar"ında Araz, Kəmalə Ağayevanın " Məhsəti"sində İlyas (Nizami Gəncəvi), Zülfüqar Hacıbəyovun "Əlli yaşında cavan"ında Şulu, Mərkəz Quliyevin "Qarğanın iflası"nda Sağsağan, M.F.Axundovun "Sərgüzəşti- Vəziri-Xani- Lənkəran"ında Ağa Bəşir, Səməd bəy, "Hekayəti-xırs-quldurbasan"ında Nəcəf, Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı"nda Güloğlan, Anarın "Qaravəli"sində Əsgər Əsgərov, Nəbi Xəzrinin " Atillanın atlıları"nda Varyaq və s. rollar oynayıb.

Yaradıcılıq fəaliyyətini 2016-cı ildən 2020-ci ilə qədər Babək Rayon Mədəniyyət Sarayında bədii rəhbər-rejissor vəzifəsində davam etdirən Vidadi Rəcəbli həmin müddətdə Babək Rayon Xalq Teatrının səhnəsində hazırlanan M.S.Ordubadi və S. Rüstəmin "Beş manatlıq gəlin" retro komediyasında Kəbleyi Hüseynəli, İ. Məlikzadənin "Subaylarınızdan görəsiniz"də Seyfi , Ə. Əsgərovun "Qız atası"nda" Cavad, Ə. Haqverdiyevin "Bəxtsiz cavan"ında Hacı Səməd ağa, B. Vahabzadənin "Yollara iz düşür"ündə Loğman, H. Mirələmovun "Xəcalət"ində Kərim, S.S,Axundovun "Tamahkar"ında Hacı Murad və digər tamaşalarda yaddaqalan obrazlar yaradıb. Ə. Yusiflinin" Alova çevrilən qəzəb" pyesinə isə rejissor kimi quruluş verib. Bu gün Naxçıvan teatrında bir- birindən maraqlı rolları ustalıqla ifa edən aktyor son illər Aqşin Babayevin " Xilaskar"ında Saqqal Həmzə, İlyas Əfəndiyevin " Xurşidbanu Natəvan"ında Hidayət xan ,Hüseyn Cavidin " Topal Teymur"unda Əli Paşa, Nizami Gəncəvinin " Sirlər xəzinəsi"ndə 1-ci oyunçu, Elçinin" Teleskop"unda cənab Mikayıl, Əli Əmirlinin " Xeyir xəbər"ində Hümbət, Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasında milli klassikanın ölməz nümunəsi- Məşədi İbad obrazlarını özünəməxsus tərzdə ifa edib.

**Bu gün 60 illik yubileyini qeyd edən Vidadi Rəcəblinin ömür yolu cəmiyyətə sədaqətli xidmətin və milli-mənəvi dəyərlərə bağlılığın parlaq nümunəsidir.Bu əlamətdar yubiley münasibətilə Vidadi Rəcəblini təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür və yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq. İnanırıq ki, onun zəngin həyat və yaradıcılıq yolu hələ uzun illər cəmiyyətimiz üçün dəyərli töhfələrlə yadda qalacaq**

**Adilə Səfərova**
**Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi**

# İlduzə Əliyeva: «Elə bildim ki, oğlumun tarı erməniyə qalsa, günaha bataram»

*Qarabağın bəzəyi olan Şuşada müəllimə işləyəndə ağlına da gəlməzdi ki, bir gün bu doğma torpağı ilə ayrılığından şeirlər yazacaq. Şuşa işğal olunanda İlduzə Əliyeva təkcə vətənindən deyil, öz fidanlarından da ayrı düşdü. O, təkcə yurd həsrəti çəkmirdi, həm də hər gün bağrına basdığı şagirdləri üçün darıxırdı.*

*Bu ömür yolunda həyatı eniş-yoxuşlarla dolu olan İlduzə müəllimə ilə Şuşalı günlərindən danışdıq...*

**-Təxminən ömrünüzün 40 ildən çoxunu Şuşada yaşamısınız. Doğma yurdunuzda müəllimə işləmisiniz. Pedaqoji fəaliyyətiniz dövründə hansı hadisəni heç unutmamısınız?**

-Hələ ondan Şuşalı günlərimiz idi. Daha doğrusu Şuşanın mənfur ermənilər tərəfindən yaralanmadığı günlər idi. Bakıda əməliyyat olunmuşdum. Şuşaya qayıdandan 2-3 gün sonra gördüm ki, şagirdlərim hamısı əlində bir dəstə çiçək qapımda dayanmışdılar. Məni görən kimi hamısı üstümə yüyürdülər. O günü heç unuda bilmirəm. Həmin balalarımdan ayrı düşdüm. Bu mənim üçün ən böyük dərd oldu. Axı onlar mənə öz övladlarım qədər doğma idilər

**-Şuşadan çıxdığınız günü necə xatırlayırsınız?**

-Həmin günü bu gün kimi xatırlayıram. Hər kəs bir şey götürürdü. Şuşanın işğalının son günləri idi. İnsanlar bilmirdi özlərin qorusunlar, yoxsa mülklərinə sahib çıxsınlar. Çətin zaman idi. Kimin gücü nəyə çatırdısa, onu da götürürdü. Amma mən oğlumun tarını bağrıma basdım. Elə bildim ki, tar erməniyə qalsa, mən böyük bir günaha bataram. Gözlərimdən yaş axa- axa



Şuşadan çıxırdım. Daha doğrusu çıxmağa məcbur idim. Mənfur ermənilər cənnət Şuşanı talan etmişdilər.

**-Şeirlər yazırsınız. Daha çox vətəni vəsf edirsiniz. Şuşa işğal altında olanda ondan yazmaq çətin deyildi?**

- Həmin günlərin öz ağrıları var idi. Məni bu barədə ancaq o torpaqda doğulub- böyüyən insanlar anlaya bilərdilər. Yazdığım şeirlər yalnız Şuşaya- doğma yurduma həsrətimin sözlə ifadəsi idi.

**-Şanlı zəfərimizdən sonra doğma yurdunuza getdiniz. Hansı hisləri keçirdiniz?**

- Şuşa iğaldan azad olunandan sonra doğma yurduma getdim , o zaman ürəyimdən bir hiss keçdi. Şuşa ilə bağlı ən gözəl şeirlərimi oxudum. Torpağı qucaqladım.

Elə bilirdim ki, dünya-aləm mənimdir. Sanki həyata yenicə gəlmişdim. İnsan öz yurdunda ancaq uşaqlaşa bilir Körpə uşaq kimi idim, kövrək, səssiz...

**-Deyirsiniz ki, "Fələk, evin yıxılsın, Belə çəkmə sınağa."**

**Deyəsən bu 28 il sizin üçün heç də asan keçməyib...**

- Bəli, fələyin sınağı çox ağır oldu. Deyərdim ki, qəriblik ağır sınaqdır, taleyin ən ağır dərdidir. Arzulayıram ki, o dəhşət dolu illəri heç kəs yaşamasın.

**- Dərdi nədir buludun? Yağış olub ağlayır. Sizcə insanlar da bulud kimdir? Hər dərdə ağlamaq olur?**

- Bəli, insanlar da bulud kimi ağlaya bilir. Buludlara baxırdım, elə bilirdim mənəm ağlayan. Təsəvvür edin, insan doğulduğu, böyüdüyü, ömrünün bir hissəsini yaşadığı yurdundan məcbur çıxarılır. Bundan böyük dərd ola bilərmi? Əlbəttə, yox. Bu gün çox şükür olsun ki, Qarabağ işğaldan azaddır. Şəhidlərimizin qanı yerdə qalmadı. Biz Qarabağlı- Şuşalı günlərimizi şəhidlərimizə, qazilərimizə borcluyuq.

**-Ömrünüzün 44 ilini müəllimlik peşəsinə həsr etmisiniz. Bu peşədən mənəvi qazancınız nə olub?**

-Müəllimlik peşəsindən ən böyük qazancım, indi həkim, hüquqşünas, müəllim, ifaçı olan şagirdlərimdir. Küçədə, yolda məni görüb qarşıma gələn şagirdlərimi o qədər çox istəyirəm ki, onlar mənim bəhrələrimdir. Onlarla fəxr edirəm. Bir müəllim üçün bundan böyük qazanc ola bilərmi? Əlbəttə, yox.

**Əntiqə KƏRİMZADƏ**

## *Bu ölkədə Novruz dövlət bayramı elan edildi*

**Suriyanın keçid dövrü Prezidenti Əhməd əl-Şaraa tərəfindən imzalanan yeni prezident fərmanı ilə Novruz bayramı Suriyada rəsmi dövlət bayramı elan edilib.**

Adalet.az xəbər verir ki, fərmana əsasən, bahar və qardaşlığı simvolizə edən Novruz bayramı (21 mart) Suriya Ərəb Respublikasının bütün bölgələrində ödənişli rəsmi tətil günü kimi qeyd olunacaq.



Prezident fərmanında Novruzun ölkədə yaşayan müxtəlif etnik və mədəni icmalar arasında birgəyaşayışın, milli həmrəyliyin və mədəni müxtəlifliyin simvolu olduğu vurğulanır. Qərarın cəmiyyətdə inklüzivliyi gücləndirməyə və mədəni hüquqların tanınmasına xidmət etdiyi bildirilib.

**Qeyd edək ki, Novruzun dövlət bayramı elan edilməsi Suriyada uzun illərdir davam edən müzakirələrdən sonra qəbul edilən mühüm siyasi və mədəni qərarlardan biri kimi qiymətləndirilir.**

*Əntiqə Kərimzadə*

# Tarixə çevrilən Aslan Ağaverdiyev

**Əsrlər keçsə də, illər ötsə də yaddaşlardan silinməyən izlərdən biridir "Qanlı 20 Yanvar". Həmin gün neçə-neçə talelər yarım qaldı, neçə- neçə evlərdən körpə səsi kəsildi, neçə- neçə ailələr başsız qaldı, neçə- neçə gəncin tale işığı söndü... Saymaqla bitməyən faciələr...**

**Həmin gün hər kəs bir məqsəd, amal uğrunda birləşib meydanlara axışırdı. O məqsəd Azərbaycanın müstəqil sabahı və işıqlı taleyi idi.**

**Məhz həmin gün- 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə silahsız insanlar tank belində gələn Sovet ordusunun qarşısına çıxdılar. Onları nə top-tüfəng, nə də o tanklar qorxudurdu. İnsanlar yalnız azadlıq istəyirdilər. Qəlbi azadlıq eşqi ilə alışıb-yananlardan biri də "20 Yanvar" şəhidi Aslan Ağaverdiyevdir. O, həmin gecə üç körpə balasını evdə qoyub Azadlıq meydanına yollanır.**



**Sovet tanklarının qarşısını kəsməyə gedən, son nəfəsində də qızlarının adını çəkən şəhid Aslan Ağaverdiyev 1952-ci ildə Bakıda anadan olub. O, Zevin (indiki Əziz Əliyev) küçəsindəki müəssisədə anbardar işləyib. Hərbi xidmətini başa vurduqdan sonra Zərifə adlı xanımla ailə qurub. Onların bu nigahdan üç qızı dünyaya gəlib. Əməkdar artist Məsmə Aslanqızı şəhid Aslan Ağaverdiyevin qızıdır.**

**Ailəsi onu həmişə mehriban, mülayim, ailəcanlı insan kimi xatırlayır. 1988-ci ildə Azadlıq meydanındakı mitinqlərdə həyat yoldaşı ilə birlikdə iştirak edib. O, 1990-cı ildə Keçmiş Sovet ordusunun hissələri Bakıya daxil olanda tankların, qoşunların qarşısına çıxır.**

**Şəhidin qızı həmin dəhşətli gecəni belə xatırlayır:"Yanvarın 19-u atam gecə evə gəldi. Anama dedi ki, şəhərdə çaxnaşma var. Bu gecə nəsə baş verəcək. Gecə saat 12 idi. Birdən partlayış səsi eşidildi. Atışmalar başladı. Atam dedi ki, mən gedirəm. Bu günə qədər yadımdadır atam elə deyəndə anam atama şərfini verdi ki, Aslan, şərfini götür. Sənə soyuq olar. Paltosunu geyinib evdən çıxdı. Atam gedəndən sonra babam onun arxasınca getdi, amma tapa bilməyib geri qayıtdı. Evə gələndə bizi qorxutmamaq üçün deyirdi ki, boş güllələrdir, qorxmayın. Biz də ona inanmışdıq".**

**Aslan Ağaverdiyev "Naxçıvan" mehmanxanasının qarşısına gedir. Sovet əsgərləri ilə üz-üzə dayanan əli-körpəli qadınları geri çəkir. Onların qarşısında cavanlarla birgə səd çəkib dayanır.**

**Yanvarın 20-si səhər saatlarında "Semaşko" xəstəxanasından onun evinə zəng gəlir. Həyat yoldaşı Zərifə xanıma Aslanın ayağından yüngül yaralandığı deyilir. Bunu eşidən xanımı xəstəxanaya gedənə qədər dua edir ki, Aslanın 2 ayağı olmasa da, yaşasın. Övladlarının yanında olsun. Amma onun yarası o qədər də yüngül deyildi. Ağır yaralanmışdı. Dəyən güllələr onun daxili orqanlarını darmadağın etmişdi.**

**Xəstəxanaya gətiriləndə baş verənləri ətrafındakı insanlara danışır:**

**"Mən tank üzərində dayanan əsgərə dedim ki, bizi güllələməyin. Həmin sözümdən sonra üzümə baxıb güldülər. Avtomatı üzərimə boşaltdılar". Huşu gedəndən gedəndən sonra ancaq qızlarının adını çəkən Aslan Ağaverdiyev çoxlu qan itirir və şəhid olur. Yanvarın 21-i izdihamla Dağüstü Parkda dəfn edilir.**

## *Su çiçəyinə yoluxmada artım olub*

**Azərbaycanda əhali arasında 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 2025-ci ilin 11 ayı ərzində su çiçəyinə yoluxmada artım müşahidə olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, sözügedən dövrdə həm də brusellyoz, kəskin hepatit B, qoturluq ilə xəstələnmə hallarında da artım olub.

Ötən il qeydə alınmış xəstəliklər sırasında tənəffüs orqanları, həzm orqanları, qan dövranı sistemi xəstəlikləri, bəzi infeksion və parazitar xəstəlikləri, sidik-cinsiyyət sistemi xəstəlikləri, göz və gözün əlavə aparatı xəstəlikləri, sinir sistemi xəstəlikləri, eləcə də qan, qanyaradıcı orqanları xəstəlikləri üstünlük təşkil edib.

# ALBAN MEMARLIĞININ İNCİLƏRİNDƏN BİRİ QAZAX ALBAN MƏBƏDİ

**"Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu 1989-cu il 22 fevral tarixində Azərbaycan Nazirlər Sovetinin 99 №-li qərarı ilə yaradılmışdır. Nazirlər Sovetinin qərarı ilə qoruğa 3613 hektar ərazi ayrılmışdır. "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu zəngin tarixi memarlıq və arxeoloji abidələr diyarı kimi ən qədim daş dövrünün yadigarı olan "Avey" dağının adı ilə adlandırılıb.**

Qoruğun ərazisində olan: arxeoloji və memarlıq abidələri, daşınan və daşınmaz tarixi və mədəniyyət abidələri qoruğun əsas mülkiyyəti hesab olunur. Bu ərazilərdə yüzlərlə qədim paleolit, mezolit, neolit, eneolit, orta əsr dövrlərinin və sonrakı tarixi əsrlərin mədəniyyət abidələri mövcuddur.

Bu abidələrdən biri də "Avey" Dövlət Tarix Mədəniyyət qoruğunun "Damcılı" filialı ərazisinə daxil olan Alban məbədidir.

Azərbaycanın müxtəlif bölgələrinə təşkil edilmiş arxeoloji ekspedisiyalar zamanı alban mədəniyyətinin incəliklərini özündə əks etdirən külli miqdarda maddi-mədəniyyət nümunələri, məbədlər və digər abidələr aşkar edilmişdir. Bu abidələr içərisində "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun ərazisindəki aşağıdakı abidələri misal çəkmək olar: V-VII əsrlərdə Yuxarı Əskipara kəndində inşa olunmuş Alban məbədi, VII əsrə aid Daş Salahlı kəndindəki Alban məbədi, IV-V əsrlərə aid Koroğlu məbədini, Alban bütpərəst məbədini və s. abidələri göstərmək olar.



Belə Alban məbədlərindən biri Azərbaycanın Qərb qapısı sayılan Qazax rayonunun Daş Salahlı kəndində Avey dağının cənub zirvəsinin ən uca nöqtəsində- dəniz səviyyəsindən 922 metr hündürlükdə, dağ ətəyindən isə 420 metr yüksəklikdə yerləşir. V-VII əsrlərə aid edilir.

Məbədin Avey dağının ən yüksək nöqtəsində olması da onun xristianlıqdan çox-çox əvvəl tikildiyini söyləməyə əsas verir. Çünki, Alban məbədləri dağların ən yüksək zirvəsində tikilirdi. Tədqiqatçıların fikrincə Avey xristian məbədi elə qədimdə Avey dağının zirvəsində olmuş "Ay məbədi"nin yerində tikilmişdir.

Məbəd kompleksi iki tikilidən - birincisi şimal-cənub istiqamətində yerləşən düzbucaq formalı böyük əsas tikili və ikinci kiçik yardımçı tikilidən ibarətdir. Əsas tikili iki pilləli özül üzərində, qədim ay məbədinin üzərində tikilmişdir. Daha doğrusu, bütpərəst məbədi xristianlığın qəbulu ilə dövrün dini tələblərinə uyğun olaraq sökülmüş, onun yerində xristian məbədi inşa edilmişdir. Məbədin şimal-şərq tərəfində qədim tikiliyə aid altı cərgə hörgü daşının saxlanması da deyilən fikirləri təsdiq edir. Çaxmaqlaşmış əhəng daşından olan həmin hissə sonrakı tikilmiş binanın hörgü daşlarından fərqlənir.

Tikilinin qədim divarları arası xırda daş parçaları və palçıqla doldurularaq hər iki üzüdə iri daşlarla hörülmüşdür. Birinci iri otağın şərq divarının hər iki yanında "T" formalı sütun olan tağ formalı absida yerləşir. Bu cür sütunlar ara qapının cənuba, iri otağın içinə baxan üzünün və cənuba açılan giriş qapısının hər iki yanında da vardır. Binanın bərpası zamanı düzəldilmiş sütunlar (qapının yanlarındakı) kobudluğu ilə digərlərindən seçilir.

Qafqaz Albaniyasının memarlıq tarixində tağlar olduqca mühüm rol oynayır. Onlar əsas daşıyıcı konstruksiyalardan biri və eyni zamanda dekorun mühüm elementidir. Tağların quruluşu bütün orta əsr dövründə dəyişməz qalmır, onlardan bəzilərindən inkişafın yalnız müəyyən mərhələsində istifadə edilir.

Otağın tavanı günbəzvaridir. Ortadakı dairəvi deşik örtükləri silindirvari barabanla tamamlanır. Üstü alçaq, konusvari düzəldilmiş barabanın hündürlüyü 2m, diametri 2m-dir. Barabanın konusvari örtüklə birləşən yuxarı hissəsini qoşa, paralel, qabarıq kəmər əhatə etmişdir. Barabanda bir-birindən müəyyən məsafədə yerləşən 4 ədəd uzunsov, kiçik pəncərə açılmışdır. Baraban və konusvarı örtüyün üstünə nazik daş piltələr düzülmüşdür. Otağın şərq divarında bir dar pəncərə açılmışdır. Qərb divarında qədimdə pəncərənin olub-olmadığını deməkdə mütəxəssislər çətinlik çəkirlər. Lakin, məbədin son bərpası zamanı bu divarda həm çöldə və həm də daxildə formasına görə qarşı divardakı pəncərədən tam fərqlənən yeni pəncərə açılmışdır. Ümumiyyətlə, aparılan müşahidələrə əsasən məbədin ayrı-ayrı vaxtlarda üç dəfə bərpa olunduğunu müəyyənləşdirmək mümkün olmuşdur. Bu bərpa izləri tikilinin qərb divarının cənub hissəsində və cənub divarının müəyyən hissəsində qapı ətrafında qabarıq nəzərə çarpır .

Avey məbədinin həyətində XIX əsrin 70-80-ci illərində qəbirlər aşkar edilmişdir. Qəbirlərin sinə daşları albanlara xas olan üslubda naxışlanmışdır. Daşlarının birinin üstündə emblem kimi albanlara məxsus lotos gülü və onun yuxarı hissəsində künclərində günəş simvolu olaraq içərisi 8 hissəyə ayrılmış rozetka qazılmışdır.

Alban məbədində aparılan arxeoloji tədqiqat işlərinin davamı 2023-cü ilin sonu 2024-cü ilin əvvəllərində AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçiləri - tarix üzrə fəlsəfə doktoru, dosent Şamil Nəcəfov və Tarix üzrə fəlsəfə doktoru dosent Vaqif Əsədov, tarix üzrə fəlsəfə doktoru, dosent Mansur Mansurov tərəfindən aparılmışdır. Tədqiqatlar sayəsində məbəd ətrafında dəfn adətlərinə, məbədin tikinti üslubuna və dövrünə aydınlıq gətirmək mümkün olmuşdur. Bu ərazidə aparılan arxeoloji elmi tədqiqatlar xristianlıq dini abidələrinin tədqiqi baxımından çox vacib elmi əhəmiyyət daşımışdır və Alban məbədinin təbliğinə çox böyük imkan yaratmışdır. Mütəxəssislər hesab edirlər ki, məbədin həyətinin qazıntısı, xristian dəfnlərinin aşkara çıxarılması müəyyən elmi yanaşmalara səbəb olan müxtəlif məzmunlu və formalı artefaktların əldə edilməsi abidənin təbliği üçün mühüm elmi nailiyyətdir.

Qeyd etdiyimiz kimi, ermənilər daim alban məbədlərini və onlara aid maddi-mədəni nümunələri öz adlarına çıxarmağa çalışıblar. Lakin, Azərbaycan dövlətinin beynəlxalq ictimaiyyəti də cəlb etməklə həyata keçirdiyi tədbirlər nəticəsində ermənilərin alban tarixini saxtalaşdırmaq cəhdlərinin qarşısı alınıb. Aparılan işlərin nəticəsidir ki, artıq dünya ictimaiyyəti alban məbədlərinin məhz alban xristianlığına məxsus olması barədə kifayət qədər məlumatlıdır.

Azərbaycan Albaniyasının həm sərhədləri daxilində, həm də ondan kənarda inşa edilmiş xristian abidələrinin kompleks analizi sübut edir ki, regionun xristian dövlətlərinin bu abidələrə varislik iddialarının heç bir elmi əsası yoxdur. İslam dini Azərbaycan Albaniyasında yayılmamışdan əvvəl burada xristianlıq aparıcı dövlət dini olmuş, mövcud olduğu müddətdə çoxsaylı maddi və mənəvi mədəniyyət abidələri yaratmışdır. Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Albaniyaya məxsus kilsələr Cənubi Qafqazda inşa edilən digər xristian abidələrindən müəyyən şəkildə fərqlənmişdir. Bu fərq abidələrin memarlıq plan quruluşlarında və s.də özünü büruzə vermişdir.

Avey dağında aparılan elmi tədqiqatlar əsasında sübut edilmişdir ki, bu məbəd qədim Alban torpağına, xristian alban əhalisinə xidmət etmiş abidədir. Hər zaman olduğu kimi xristianlıq dövründə də Alban kəndlərinin sakinləri yalnız xristian albanlardan, müsəlmanlığın qəbulundan sonra isə müsəlman alban-azərbaycanlılardan ibarət olmuşdur. Ümumiyyətlə, qədim alban məbədlərinin qorunması Azərbaycan dövlətinin qarşıya qoyduğu prioritet məsələlərdən biridir. Son illərdə bu tarixi-mədəni irsin daha da tanıdılması üçün çox işlər görülüb.

**Tehran Nağdalıyeva**
**"Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun Kiçik elmi işçisi**

## *"TikTok" bu hesablara məhdudiyyət tətbiq edəcək*

**Sosial şəbəkələrə mümkün qadağalarla bağlı təzyiqlərin artdığı bir vaxtda "TikTok" Avropa üzrə istifadəçilər üçün gücləndirilmiş yaş yoxlama mexanizmlərini tətbiq etməyə hazırlaşır.**

Adalet.az xəbər verir ki, platforma 13 yaşdan aşağı uşaqlara məxsus hesabların qarşısını almağı hədəfləyir. Şirkətin açıqlamasına görə, yeni texnologiya profil məlumatları, paylaşılan videolar və platformadakı davranışlar da daxil olmaqla müxtəlif göstəricilər əsasında hesab sahibinin 13 yaşdan kiçik olub-olmadığını proqnozlaşdıracaq. Şübhəli hesablar daha sonra moderatora yönləndiriləcək və hesabın bağlanıb-bağlanmaması ilə bağlı yekun qərarı o verəcək.

"TikTok" bildirib ki, bu yenilik yaxın həftələrdə tətbiq olunacaq. Sınaq mərhələsi zamanı minlərlə əlavə yetkinlik yaşına çatmayan istifadəçiyə məxsus hesab silinib.

Məsələ Böyük Britaniyada da geniş müzakirə olunur. Baş nazir Kir Starmer Avstraliya modelinə bənzər şəkildə 16 yaşdan aşağı şəxslər üçün sosial şəbəkələrə qadağa tətbiq edilməsi ilə bağlı artan təzyiqlərlə üzləşib. Bazar günü Leyboristlər Partiyasından 60-dan çox deputat Baş nazirə məktub göndərərək ümumi qadağanın tətbiqinə çağırıb.



# BAYAT

№ 69 (929)





Çingiz ƏLİOĞLU

# Üstəgəl ayrılıq, çıxaq məhəbbət

## Məhəbbət düsturu

Oxşardır sevginin tarixçələri...
Yatmışdıq yuxudan ayıldıq, əlbət!
Belədir bir eşqin nəticələri
Üstəgəl ayrılıq, çıxaq məhəbbət...

Heç kimə dərs deyil, olub-olacaq...
Həzz ilə zülm edir özünə millət.
Səndən gördüklərim bunlardır ancaq
Üstəgəl məşəqqət, çıxaq mərhəmət...

Hər şeydə günahkar tək məni saydın,
Biz necə olaydıq səninlə xoşbəxt?!
Cəbrinin cavabı öncədən aydın,
Üstəgəl haqsızlıq, çıxaq ədalət!!!

Nə günə qoyurdu məni o eşqin,
Hardandı səndəki bu kin,kidurət?!
Hasilə nə qaldı,indi bax sevin...
Üstəgəl miskinlik, çıxaq əzəmət...

Dedilər sınama,sınanan haqdı,
Əzilən adamdan umma dəyanət.
Gör gəlib axırı hayana çıxdı! -
Üstəgəl xəyanət,çıxaq sədaqət...

Mən ülfət ummadım,sən həsrət dedin...
Dözümə tapmadım özümdə qüdrət!
İndi bu qalığı haqq-hesab edin
Üstəgəl fəlakət, çıxaq səadət...

## Vida şeiri

Bir də o yerlərə düşməz güzarım,
Bir də o yerlərə səsləmə məni.
Sən aylı gecədə ay işığında
Bürünüb, bir daha gözləmə məni.

Aylı eyvanından əsən küləyə
Tapşır ki, yaxamdan əl çəksin mənim.
Yorğun gözlərimdən axan gileyə
"Tapşır" ki, yaxamdan əl çəksin mənim.

Qalmasin bir ömrün gündoğanında,
Gunbatan küləyi qarsız üzümü.
İtmiş bir nəğməni soraqlamaqçün
Yolları yormağın yoxdu lüzumu...

Bir də o yerlərə düşməz güzarım,
Bir də o yerlərə səsləmə məni.
Sən aylı gecədə ay işığında
Bürünüb, bir daha gözləmə məni...

## Sənsizlik sürgündür

Mən içən şərabın adı ayrılıq,
Çəkdiyim siqaret həsrət adlanır.
İçmədim bayıldım, içdim ayıldım,
Sənsizlik sürgündür... hicrət adlanır.

Necə də tünd imiş hicran qəhvəsi,
Sinəmə çəkdiyim tüstü qaradır.
Ağzımdan burulub çıxan nəfəsim
Havada miraj bir obraz yaradır. -

Sənin xəyalındır ani, apaydın...
Daha yuxuda da məndən qaçırsan.
İşıqlı günümü özün qapadıb,
Zülmət gecələrə qapı açırsan.

Özümdən sürgünəm... deyir hal qanan,
Səbr elə ələcın səbrdir elə.
Daha hardan bilsin, halıma yanan,
Səbir də mənimçün Sibirdir elə...

***

Qayğılar bir ovuc düyü-çətənə,
Düşüb düyün-düyün bu tünük tənə.
Ha çözmək istədim düşdüm çətinə,
Diriltdi, dəbərtdi bu yazlar məni.

Bir xəfif titrəyiş, bir titrək hənir,
Anında tərpənir tənimdə sinir.
Ruhumda buz sınır, irmaqlar dinir,
Səsləyir, oyadır avazlar məni.

Dedim ta müdrikəm, ahılam daha,
Təpilim bir küncə, qaxılım daha.
Demə ki, dəliyəm, cahiləm daha,
Dərbədər eylədi bu qızlar məni...

## Unuda bilmirəm

Unuda bilmirəm, sevə bilmirəm,
Sənsiz darıxıram, sənlə tənhayam.
Belə anlaşılmaz, belə barışmaz,
Duyğular əlində qalıbdır yaxam.

Unuda bilmirəm, sevə bilmirəm,
Sizin qapınıza, sizin küçəyə,
Ayaq özü çəkir, gələ bilmirəm..
Bu niyə belədir, hələ bilmirəm.

Unuda bilmirəm, sevə bilmirəm,
Bu sirrin cavabını,çözə bilmrəm.
Yaş elə yaşdır ki,bu gizli dərdi
Bir kəsə danışa, bölə bilmirəm.

Unuda bilmirəm,sevə bilmirəm,
Ağlaya bilmirəm,gülə bilmirəm,
Bu sənli dünyada,sənsiz dünyada
Yaşaya bilmirəm,ölə bilmirəm.

***

Dünya, boyun bircə qarış...
Qarı dünya, qımış görüm.
Ürəyimdə yağ qalmamış,
Dünya, mənnən danış görüm.

Yolların yüyrəkdi sənin,
Yerişin küləkdi sənin.
Olanım - ürəkdi mənim,
Dünya, mənnən yarış görüm.

Niyə belə yaraqlısan,
Hansı fikir, soraqlısan,
Mən haqsızam, sən haqlısan,
Dünya, mənnən vuruş görüm.

A qırışmal, gidi dünya,
Neynədin igidi, dünya?
Mən bilmirəm, sən bilirsən...
Dünya, mənnən barış görüm.

## Mənim bu həyatla öz hesabım var

Mənim bu həyatla öz hesabım var,
Bilirəm pislik nə, yaxşılıq nədir?
Yaşamaq - kimçün oyun, əyləncə,
Mənimçün gündəlik mübarizədir.

Bilirəm dadını halal çörəyin,
Yerində deyilmiş ötkəm sözün də.
Xoşbəxtəm o vaxt ki, dosta gərəyəm,
Düz baxa bilirəm düşmən gözünə.

Bir ömür yaşaram - narahat, çətin.
Arxamca daş atan olsa da, nə qəm.
Nəsillər rahatca keçsinlər deyə
Atılan daşlardan bir yol döşərəm!

## Qarışqa payı

Bu gün tamam ayrı, tam başqayam mən,
Bir kəsək dalında, qum kölgəsində
Gizlənə bilən bir qarışqayam mən!
Qurdların, quşların dişi dibində,
Neçə böyüklərin cibi dibində
Gizlənib dən payım, hər qıxmıq payım.
Bu gün tamam ayrı, tam başqayam mən,
Çiynində özündən nə qədər ağır -
Böyük yük gəzdirən qarışqayam mən.
Nə olsun ağırdır dünyanın yükü?
Özləri özümdən heç seçilməyən,
Hər an harayıma yüyürüb gələn
Qarışqa dostlarım, qardaşlarım var,
Başqa sirdaşlarım, yoldaşlarım var!
Çəkib apardığım yükün siqləti
Sanmayın haçansa məni əzəcək, -
Dünya arpa dəni, qarabaşaq tək,
yerimi tutmağa həmişə hazır
Dostların çiynində yenə gəzəcək...

## Deyə bilmədiyim söz

Deyə bilmədiyim sözün içində
İçimin nə qədər ağrıları var.
Deyə bilmədiyim sözün ucundan
Dilim piltə kimi alışıb yanar.
Dilimin ucuna gələn o sözü
Nə qədər qaytarıb uda bilərəm?
Allahın sözüdür, desəm nə olar,
Bir Allah adamı eşidər onu,
Allahın adamı eşitməsə də,
Bu evin qapısı, pəncərələri,
O evin qır damı eşidər onu...
O sözə bağlıdır gizli arzular,
O sözün içində azadlığım var.
O sözə bağlıdır bütün varlığım,
O sözdən başlanır tanımadığım,
Görə bilmədiyim dadlı bir həyat.
O sözü... o sözü deyə bilmirəm...
Çalışıb-vuruşmaq əbəsmiş... heyhat!

## Ən böyük sevgim

Sən məni heç zaman tərk etməmisən,
Mən səni hər zaman qoyub getmişəm.
Sən mənə heç zaman ərk etməmisən,
Hər uzaq səfərə yola salmısan.

Bütün gəmilərin vida fitini,
Son vağzal zəngini özün çalmısan.
Hansı dayanacaq, hansı perronda
Mən ensəm görmüşəm sən qarşımdasan.

Yaxın limanlardan yola ötürüb,
Uzaq körfəzlərdə qarşılamısan.
Qızmar səhralarda azıbdır izim,
Şimalda dizədək qar şumlamışam.

Mən hara baş vursam bu nəhəng şarda
Görmüşəm hər addım, hər qarışdasan
Ürəkli olmuşam sənə söykənib,
Duymuşam, tanrıtək kürəyimdəsən.

O qədər təbii sanmışam bunu,
Demişəm qanımda, ürəyimdəsən.
Bildinmi dünyanın harasındasan?!
Gah zülmət gecənin zil qarasından,

Gah sübhün nurundan mənə baxırsan.
Kitabı açıram arasındasan,
İçirəm, mey kimi qana axırsan
Zaman, axan nəhr, bərəçi mənəm,
Səndən sənə yolda bələdçi mənəm.

Havan avazımda, sədan ədamda,
Nə qədər oxşarlıq olar adamda?!
Hər azan sözünün, itən səsinin,
Heç dilə gəlməyən yeni kəlmənin
Ardınca iz tutan ləpirçi mənəm.
Yaşa, ANA DİLİM, zindanda hətta
Sənə zindan döyən dəmirçi mənəm!

## Yerdə qalan...

Yerdə qalan nədir ki...
Yerdə qalan azdır, az!
Beş-üç payız, beş-üç qış,
Bir də, bəlkə, beş-üç yaz...
Yerdə qalan nədir ki -
beş-üç bayram, beş-üç toy.
Bir də... beş-üç dərd-qəmi
Sən bunların üstə say.
Yerdə qalan nədir ki -
Beş-üç görüş, ayrılıq.
Sonra... uzun bir gecə...
Bir də gizli bir ümid:
"Bəlkə, bir də ayıldıq..."

## Dağlar

Bir səs yuvarladım dərə dibinə
Diksinib oyandı yuxudan dağlar.
Yığdı ayıları kaha cibinə
Qartalı qoynundan ürküdən dağlar.

Bu görüş nə şirin, nə xoş görüşdü,
Zirvədə dodağım qarla öpüşdü.
Qəlbə işıq düşdü, gözə nur düşdü
Silkinib çıxanda kürkündən dağlar.

Havanla dərmanlı, davalıyam mən,
Səndən ayrılalı havalıyam mən,
Kimə əmanətəm, həvaləyəm mən...
Yanına dönmüşəm sürgündən, dağlar...

Mənim qəlb ağrımın öz həkimi var,
Yüz təbib tökülə dilini tapmaz.
Bu gizli bölgəmin öz hakimi var,
Başqa fərman, dərman bir əlac yapmaz.

Bürünüb çöhrəsi bax elə nura,
Sehrilə canımda ağrım azalır.
O gəlib eləcə kənarda dura,
Candan çən kürünür, duman sozalır.

Dirilir əzalar, azar-bezar nə,
Ecazkar loğmandır, quşa dönürəm.
O mübhəm dəryadır, sirli xəzinə,
Üzünü döndərsə daşa dönürəm.

Nə bilsin zəlili, divanəsiyəm,
Hərdən, bir şahanə gülüş lütf edir.
O şamdır, teylənən pərvanəsiyəm,
Hüsnünü görəndə ürəyim gedir.

Mən ona ta bundan yaxın getmərəm,
O uca bir məqam, dərin ümmandır.
Bu eşqi heç zaman bəyan etmərəm,
Yüz aşkar aşiqdən biri pünhandır...

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 3 (2475) 23 yanvar 2026-cı il



# Tarixi Zəfər qələbəmiz Böyük qayıdışı sürətləndirir



**Otuz illik həsrətimizə, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun mübariz əzmi və sücaəti ilə son qoyuldu. Ölkə prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı” üzrə, azad olunmuş torpaqlarımıza yeni bir həyat vermək üçün bütün qüvvələr səfərbər edildi.**

Dövlətimiz ərazi bütövlüyünü təmin etməklə dayanıqlı sülhə, inkişafa dayanan yeni bir mərhələyə qədəm qoydu. İşğaldan azad edilmiş ərazilərdə geniş miqyaslı bərpa və quruculuq işləri, mədəni və tarixi abidələrin bərpası ilə yanaşı, müasir tələblərə cavab verən yeni layihələrin həyata keçirilməsi mərhələsinə qədəm qoydu.

Ötən illər ərzində istər Qarabağın şəhər və kəndlərində, istərsə də Şərqi Zəngəzurda artıq demək olar ki, bir neçə şəhər, kənd və qəsəbələrdə bərpa və yenidənqurma işləri tamamlanıb və ya tamamlanmaq üzrədir. Laçın şəhərində bərpa-quruculuq işləri - yaşayış evləri bərpa olunub, kommunikasiya işləri başa çatıb, tarixi mədəniyyət ocaqları yenidən qurularaq vətəndaşlarımızın istifadəsinə verilib.

Otuz illik vətən, doğma yurd həsrətindən sonra, respublikamızın müxtəlif şəhər və kəndlərində məskunlaşan keçmiş məcburi köçkün həyatı yaşamış laçınlıların böyük əksəriyyəti doğma el-obalarına qayıtmışlar.

44 günlük Zəfər Qələbəsindən ötən beş il ərzində ümumilikdə, yetmiş mindən çox keçmiş məcburi köçkün həyatı yaşamış vətəndaşlarımız, Laçınla yanaşı, Füzuliyə, Zəngilana, Şuşaya, Xankəndinə, Kəlbəcərə, Ağdama, Xocalıya, Ağdərəyə, yeni layihə ilə tikilmiş ev-eşiklərinə qayıdıblar.

Qələbəmizdən ötən illər ərzində, işğal dövründə erməni işğalçıları tərəfindən demək olar ki, tamamilə dağıdılıb məhv edilmiş yol-nəqliyyat infrastrukturu yenidən qurulur, müasir yol layihələri üzrə yeni magistral yollar çəkilir, çətin relyefli yerlərdə avtomobillərin rahat hərəkət etmələri üçün onlarla tunellər tikilir.

Azərbaycanln paytaxtı Bakı şəhərindən Ağdama gedən dəmir yol xətti tamamilə bərpa olunub və yeni qurulmuş Ağdam dəmiryol vağzalı artıq bir neçə aydır istifadəyə verilib.

Nəqliyyat şəbəkələri ilə yanaşı, işğaldan azad olunmuş ərazilər arasında əlaqələrin və yükdaşınanların daha da asanlaşdırılması üçün, ”Qarabağın hava qapıları”- Füzuli, Zəngilan və Laçın şəhərlərində müasir hava limanları tikilib istifadəyə verilib.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa işlərinin əsas tərkib hissəsi kimi enerji infrastrukturlarının qurulması və enerji təminatının yüksək səviyyədə paylanması istiqamətində də çoxlu işlər görülüb. Xüsusilə ”Yaşıl enerji” layihələrinin həyata keçirilməsinə xüsusi əhəmiyyət verilir. Böyük Qayıdış proqramının icrası davam edir, keçmiş məcburi köçkünlərin könüllü şəkildə istifadəyə hazır olan yaşayış ərazilərinə köçürülməsi növbəli şəkildə həyata keçirilir.

”Böyük Qayıdış Planı”nın icrası Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir.

Prezident işğaldan azad olunmuş ərazilərdə aparılan işlərə şəxsən nəzarət edir və birbaşa yerlərdə görülən işlərlə tanış olur, müvafiq tapşırıqlarını verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2026-cı ilin ilk ayında, işğaldan azad olunmuş Ağdərə rayonuna səfər edib. Müzəffər Ali Baş Komandan səfəri çərçivəsində rayonda aparılan quruculuq-bərpa işləri ilə tanış olub, rayonun yenidən bərpa olunan Aşağı Ortatağ, Çıldıran, Heyvalı və Çapar kəndlərində doğma yurd-yuvalarına yenidən qayıtmış sakinlərlə görüşüb, onlar üçün yaradılan şəraitlə tanış olub. Daha sonra Prezident İlham Əliyev Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən hazırlanmış Ağdərə şəhərinin yeni Baş planı ilə tanış olub. ”Böyük Qayıdış Planına” uyğun olaraq Ağdərə rayonunun məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. Gələcək perspektivdə şəhərin əhalisinin 14 min nəfər olması planlaşdırılır.

Ağdərə şəhərinin Baş planına uyğun olaraq, şəhər mərkəzi, fərdi və azsıxlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonaların yaradılması nəzərdə tutulur. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Birinci mərhələdə 104 hektar şəhər mərkəzində tikiləcək binalara 3590 nəfərin köçürülməsi mümkün olacaq.

Ağdərə şəhərində Milli Ordumuzun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də işlər görülür. Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binalarında təmir-bərpa işləri başa çatdırılıb və artıq istismara verilib. Ağdərə şəhərinin Baş planı ilə tanış olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüləcək işlərin sürətləndirilməsi üçün müvafiq tapşırıqlarını verib.

Doğma yurdlarına qayıdan sakinlərlə səmimi şəraitdə keçirilən görüşdə Prezident İlham Əliyev bildirib ki, ”Son səksən il ərzində Azərbaycan kimi tam və müstəqil qələbə qazanan ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir, lakin heç biri tam və mütləq qələbə ilə nəticələnməyib. Ancaq biz buna nail olduq, özü də cəmi 44 gün ərzində...”

Prezident İlham Əliyev səfər çərçivəsində Ağdərənin Qızılkörpü kəndində inşa edilmiş Su Elektrik Stansiyasının açılışında iştirak edib, Canyataq kəndində ”Dəmirli” Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.

Prezident İlham Əliyev həmçinin Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlqoyma mərasimində iştirak edib. Bütün bunlar göstərir ki, ”Böyük Qayıdış Planı”na uyğun olaraq, quruculuq-bərpa işləri qarşıya qoyulan strateji yol xəritəsi ilə uğurla həyata keçirilir.

**Ölkə başçısının işğaldan azad olunmuş ərazilərə müntəzəm səfərləri, aparılan quruculuq-bərpa işləri ilə şəxsən tanış olması, ilk öncə mənəvi əhəmiyyət daşıyır və bütün dünyaya Azərbaycan dövlətinin gücünü, iradəsini nümayiş etdirir.**

**Rüstəm Hacıyev**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Əntiqə Kərimzadə*

## Dünyanın dəyişkənliyi və ya «Master-Klass»

**Bu həmişə belə olub. Dünyanın rəngarəngliyini dəyişmək insanın yaradılış xislətidir. İnsan qurtula bilmədiyi hər şeyi dəyişmək istəyir. Dəyişə bildiklərinə gülümsəyir, kədərlənir  Dəyişə bilmədiklərinə isə həsrətlə baxır. Axı təbiətən insan qazana bilmədiklərinə həsəd çəkən bir varlıqdır. Qazandıqlarının isə təəssüf ki, dəyərini bilmir. Həmişə belə olmasa da əksər hallarda belə olur. Necə deyərlər, istisnalar qaydaları pozmur.**

**Bəzən olur ki, insan ətrafındakı insanlara adlar, rollar, gözləntilər yükləyir. Birini xilaskar, birini güvənc yeri, birini inam yeri, birini sonsuz sevgi mənbəyi kimi görür və ya təsəvvür edir. Belə olan halda qarşımızdakı insan özünü unudur. Kimin üçünsə var olduğunu qəbul edir, nə üçünsə yaşadığını qavrayır. Bu dərketmə bəzən onun taleyinin ən ağır zərbəsi olur.**

**Yapon dramaturq Koki Mitanin "Gülüş Akademiyası" pyesi əsasında səhnələşdirilmiş "Master-Klass"tamaşası da həyatın bu və buna bənzər məqamlarını öz tamaşaçısına çatdırır. Səhnənin tam mərkəzində ikitərəfli ağ- qara taxta dairə var. Bunu dünyanın sevinci və kədəri adlandırsaq, fikrimizdə yanılmarıq. Hadisələr nəticəsində həmin dairənin dəyişilməsini isə dünyanın dövretmə mərhələsi adlandırmaq olar.**



**Deyərdim ki, dünyanın ən böyük mənəvi dəhşəti insanın mənimsəmə, talama hissinin güclü olmasıdır. Tamaşa əvvəldən sona qədər tamaşaçısına məhz bu "siqnal"ı ötürürdü. İnsanı mənimsəmək, ona məna yükləmək, bəzən mümkün olmayanları ondan istəmək onu yaşamaqdan təcrid etməkdir. Rejissor Gümrah Ömər seçdiyi personajlarda bunu aydın ifadə edir. İnsanların zəncirvari asılığını isə əsərin hər məqamında hiss etmək olur. Bəşər övladının tamahkar olmağı məsələsi isə tamaşa boyunca qətiyyən gözdən yayınmır.**

**Aktyorların səhnəyə gəlişi , libaslarındakı qeyri-adilik, tamaşaçılarla tamaşa zamanı replikaları onları tam olaraq fərqləndirir.**

**Aktrisa Mətanət Abbasın dəyişkən obrazları, dünyanın hər iki üzünə eham vuran monoloqu bir Yuğ tamaşaçısı üçün diqqətçəkən məqamdır. Elgün Həmidovun səhnə plastikası və təəbbüsüm yaradan replikaları tamaşanı daha da baxımlı edir. Digər presonaj Amid Qasımov da tərəf müqabillərindən heç də geri qalmır. Aktyor diqqətçəkən jestləri, tamaşaçı ilə ünsiyyəti daha çox yadda qalır.**

**Quruluşçu rejissor Gümrah Ömərin səhnələşdirdiyi "Master- Klass" tamaşası diqqətli tamaşaçını bir az da "Adəm- Həvva" dövrünə aparır. İnsanın daxili eniş-yoxuşu onun hansı məqama qədər yüksəlməsindən xəbər verir. Bəzən insana yüksəliş kimi görünən həmin məqam insanın daxili çöküşü olur. Bunun yalnız o zaman fərqində olursan ki, çarəsizlik adlı quyuya düşürsən.**

**Tamaşa boyunca bir məqam məni ordan uzaqlaşdıra bilmirdi. Bu, insanın özünü inandırması idi. Yaxşı olmayan və ola bilməyən hər şeyə yaxşı olacaq demək dünya adlı evin qaranlıq tərəfi idi. Bu inanmaqlar insanın özündən- özünə çökməsi qədər çətindir. Həm də özündən qopması qədər asandır. Bu çətinliklə asanlıq arasındakı "get-gəl"i aktrisa Mətanət Abbasın monoloqunda hiss etmək olurdu. Dünyanın məzlum üzü Elgün Həmidovun "dəyişərəm" kəlməsində gizlənirdi. Ağ-qara üzü ilə yaradılana meydan oxuyan kainatın qəddarlığı Amid Qasımovun obrazında xəfifləyirdi.**

**İki əks varlığın, iki əks xarakterin birlikdə səhnədən çıxışı dünyada yaxşılıqla pisliyin, ağ ilə qaranın eyni anda mövcud ola bilməsinin ən ali sübutu idi.**

# Antalyanın tematik parkları bu qış və yazda da qonaqlarını gözləyir

**2026-cı ilə qədəm qoyduğumuz bu günlərdə, Türkiyənin turizm paytaxtı olan Antalya ailələr üçün ideal istirahət mərkəzinə çevrilib. "Euromonitor"un 2025-ci il reytinqinə görə dünyanın ən çox turist qəbul edən ilk 10 şəhərindən biri olan Antalya, qış və bahar tətili üçün əla fürsətlər təqdim edir.**

Şəhər təkcə dənizi və sahilləri ilə deyil, həm də dünya səviyyəli əyləncə parkları və maraqlı attraksionları ilə diqqət çəkir. Burada hər yaşa uyğun əyləncə, yaradıcılıq və macəra bir araya gəlir. Həyəcan dolu karusellərdən tutmuş müxtəlif interaktiv oyunlara qədər geniş imkanlar təklif edən Antalya, ailələr və macəra sevərlər üçün hətta yay mövsümündən kənarda da tətili unudulmaz edir.

### *Əfsanələrin canlandığı məkan: "The Land of Legends"*

Belek bölgəsində yerləşən "The Land of Legends" Türkiyənin ən böyük əyləncə mərkəzidir. Bura həm ailələr, həm də adrenalin həvəskarları üçün il boyu bitməyən bir həyəcan vəd edir. Mərkəz öz qonaqlarına 62 metrlik məşhur "Hyper Coaster"dən tutmuş "Aqua Land"in su attraksionlarına, həmçinin "Nickelodeon Land" və "Maşa və Ayı"nın xəyali dünyalarına qədər hər yaşa uyğun unudulmaz əyləncələr təklif edir. Burada əyləncə həm gündüz, həm də gecə davam edir.

Bundan əlavə, "Kingdom Hotel"in xüsusi dizaynlı otaqları və "Nickelodeon Hotels & Resorts Antalya"nın əyləncəli lüks konsepti ilə "The Land of Legends" həm istirahəti, həm də əyləncəni mükəmməl şəkildə bir araya gətirir.

### *Dokumapark*

Antalyanın Kepez rayonunda yerləşən Dokumapark, keçmiş tekstil fabrikinin ərazisində qurulub. Bura klassik karusellərdən fərqli olaraq, ziyarətçilərə daha çox yaddaşlara həkk olunacaq mədəni bir park təcrübəsi təqdim edir. Bərpa olunaraq yenidən həyat verilən bu ərazi muzeyləri, sərgi sahələrini, kafeləri və gəzinti yollarını vahid bir məkanda birləşdirir. Parkın ən maraqlı hissələri arasında nostalji hisslər oyadan Oyuncaq Muzeyi, Türkiyənin tarixi abidələrinin 1:25 miqyasında kiçildilmiş maketlərindən ibarət 10.000 kvadratmetrlik açıq hava miniatür parkı və klassik avtomobillərin nümayiş olunduğu Avtomobil Muzeyi yer alır. İl boyu müxtəlif festival və emalatxanalara (workshops) ev sahibliyi edən Dokumapark, çimərlik günləri arasında dincəlmək üçün ideal bir mədəniyyət ocağıdır.

### *Su altındakı möcüzə: Antalya Akvariumu*

Konyaaltı çimərliyinin addımlığında yerləşən Antalya Akvariumu, dünyanın ən böyük akvarium komplekslərindən biridir. Burada 40-dan çox tematik tank və akulaların, skatların, həmçinin balıq sürülərinin başınızın üstündən süzülərək keçdiyi 131 metrlik möhtəşəm tunel yer alır. Bu tunel insanda sanki dəniz dibində gəzirmiş kimi unikal bir hiss yaradır. Akvariumla yanaşı, kompleksdə tropik üslublu "WildPark", mənfi dərəcəli temperaturu ilə seçilən "Qar Dünyası və Buz Muzeyi" (Snow World & Ice Museum), qısa metrajlı "Oceanride XD" kinoteatrı və mum fiqurlar muzeyi də fəaliyyət göstərir. Kafelər və mağazaları ilə il boyu qapalı məkanda əyləncə imkanı təqdim edən Antalya Akvariumu, Aralıq dənizinin sahilində bir neçə saatlıq maraqlı macəra vəd edir.

### *Quruda və suda yüksək enerji: Macəra Meşəsi, Aktur Lunapark və Hip-Notics*

Əyləncəni quruda axtaranlar üçün Kepezdəki "Macəra Ormanı" (Macəra Meşəsi) şam ağacları ilə örtülü təpələrdə kəndir parkurları, ziplayn, dırmanma divarları, paintbol və macəra yolları ilə açıq havada əsl adrenalin bəxş edir. Şəhərin mənzərəsinə açılan hündür keçidlər və platformalar buranı aktiv istirahət sevərlər üçün mükəmməl məkana çevirir.

Konyaaltı bölgəsində yerləşən "Aktur Lunapark" isə attraksionları, qondolaları, qorxu evi və uşaq karuselləri ilə klassik karnaval həyəcanını yaşadır. Xüsusilə axşam saatlarında musiqi və rəngarəng işıqlarla canlanan park, nəhəng panorama çarxı ilə şəhər mənzərəsinə rəng qatır. Antalya Beynəlxalq Hava Limanından təxminən 30 dəqiqəlik məsafədə yerləşən "Hip-Notics" Kabel Xizək Parkı isə dağ suları ilə qidalanan üç süni göldə il boyu su idmanı imkanı yaradır. 730 metrlik ana



kabel sistemi və peşəkar triklər üçün nəzərdə tutulan infrastrukturu ilə bura həm yeni başlayanlar, həm də təcrübəli veykbordçular üçün ideal məkandır. Bir neçə saatlıq məşqi tam günlük macəraya çevirən bu park, nəzarət olunan, lakin dinamik bir mühit təklif edir.

### *Tropik sakitlik: Antalya Kəpənək Dünyası*

2026-cı ilin fevral ayında açılması planlaşdırılan "Butterfly World Antalya" (Antalya Kəpənək Dünyası), təxminən 10.000 kvadratmetrlik ərazidə hüzur dolu bir tropik sığınacaq təqdim edəcək.

Nəhəng şüşə konstruksiya altında minlərlə kəpənək yamyaşıl bitkilər, şəlalələr və gölməçələr arasında sərbəst şəkildə uçacaq. Ziyarətçilər rəngarəng kəpənəklərin əhatəsində yaşıl meşələrindən ilhamlanmış zalları gəzə biləcəklər. Kompleksdə həmçinin quş bağçası, botanika zonaları, uşaqlar üçün yaradıcılıq emalatxanaları və ekoloji təhsil üçün nəzərdə tutulmuş açıq hava amfiteatrı da yer alacaq. Təbiətlə iç-içə təcrübə və biomüxtəlifliyə fokuslanan Kəpənək Dünyası, Antalyanın mərkəzində həm öyrədici, həm də rahatladıcı bir istirahət vəd edir.

**2026-cı il irəlilədikcə Antalya sübut edir ki, bura sadəcə yay tətili məkanı deyil. Şəhər ailələrə həm yaz tətili, həm də ilin digər vaxtlarında unudulmaz təcrübələr təklif edir. Antalya yaradıcılığın inkişaf etdiyi, ənənələrin təzələndiyi, əyləncə və təbiətin Aralıq dənizi günəşinin istisi altında il boyu vəhdət təşkil etdiyi bənzərsiz bir məkandır.**

**Sübhan**

## *Xalq artisti: "Heç kəsin haqqı yoxdur ki, o mahnını bərbad halda ifa etsin"*



**"Bu mahnı bir əsərdir. Nəinki Qumralın, heç kəsin haqqı yoxdur o mahnını bərbad halda ifa etsin. Axı mahnını sözlərini düz ifa etmir. "Çütləşmək" nədir? Mahnının sözlərində siz elə sözə rast gəlmisiniz? Ayıbdır, olmaz axı belə etmək".**

Bu sözləri Adalet.az-a açıqlamasında xalq artisti Niyaməddin Musayev deyib. O, Qumral Musayevanı "Dünya sənin, dünya mənim, dünya heç kimin" mahnısını səhv ifa etməsinə görə qınayıb: "Mən illərin sənətkarıyam. Xalqın mənə sevgisini illərdir görürəm. Bu mahnını belə ifa etmək mənə hörmətsizlikdir. Bu qəbul edə bilmirəm. Bir neçə gənclərimiz var ki, həmin mahnını çox gözəl ifa ediblər. Amma o xanım heç də yaxşı ifa etməyib. Bəyənmədim. Sözləri səhv oxuması isə biyabırçılıqdır. Ayıbdır. Ona kimsə bir söz demirsə, o demək deyil ki, mən də buna göz yumacam. Yox, olmaz belə. Bu mahnı səhv oxunacaq, pis hala salınacaq bir mahnı deyil".

**Əntiqə KƏRİMZADƏ**

Aqil Abbas yazıçı
**Qərib Mehdinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas **Məzahir Əhmədoğlu və Fuad Məmmədova** əzizləri
**İlqar Həmidovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu yazıçı
**Qərib Mehdinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu və Şamxal Şabiyev **Məzahir Əhmədoğlu və Fuad Məmmədova** əzizləri
**İlqar Həmidovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səməndər Məmmədov Faxralının böyük ziyalısı
**Bayram Əliyevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 263
Çapa imzalanmışdır: 22.01.2026